Xalqın qəzeti!

# Xalq qəzeti

№ 88 (31057) 20 may 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## S.X.Rüstəmxanlının “Şərəf” ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə Sabir Xudu oğlu Rüstəmxanlı “Şərəf” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 may 2026-cı il**

# Azərbaycan tarixi memarlıq irsini çağdaş şəhərsalma ilə qovuşdurub

## Prezident İlham Əliyevin “Euronews” televiziyasına müsahibəsi




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də “Euronews” televiziyasına müsahibə verib.**

AZƏRTAC müsahibəni təqdim edir.

**Müxbir:** ***Cənab Prezident, hər zaman olduğu kimi Sizi yenidən görməyə çox şadıq. 182 ölkədən 40 mindən çox iştirakçı. Bu, COP29-dan sonra Azərbaycanda keçirilən ikinci ən böyük tədbirdir. WUF13-ə ev sahibliyi etmək Azərbaycanın dayanıqlı şəhərsalmanın gələcəyinin formalaşdırılmasında beynəlxalq roluna hansı töhfəni verir?***

**Prezident İlham Əliyev:** Əlbəttə, WUF13-ə ev sahibliyi etmək bizim üçün böyük şərəfdir. Burada 182 ölkə təmsil olunur. Bu isə Azərbaycana göstərilən hörmətin bariz nümunəsidir. Bildiyimə görə, iştirakçıların sayı rekord həddə çatıb. Bu da həm mövzunun nə qədər mühüm olduğunu, həm də ev sahibi ölkənin geniş beynəlxalq əlaqələrə malik olduğunu nümayiş etdirir.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycan və WUF13: qurub-yaratmaq əzminin təntənəsi



Səhifə ➩ 4

## “Qara şəhər”i “Ağ şəhər”ə çevirən çağdaş memarlıq



Səhifə ➩ 5

## Azərbaycanın yeni qlobal legitimlik strategiyası




Səhifə ➩ 6

## Bakı–Tbilisi nəqliyyat-logistika əməkdaşlığı

*BTQ-nin yükdaşıma qabiliyyəti 1 milyon tondan 5 milyona çatdırılıb*




**Xəbər verildiyi kimi, mayın 18-də Bakıda Prezident İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin iştirakı ilə Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili tərəfindən “Bakı–Tbilisi–Qars” yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda–Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin reabilitasiyası, rekonstruksiyası, inşası üzrə Koordinasiya Şurasının 41-ci iclasının Protokolu imzalanıb.**

*(ardı 12-ci səhifədə)*

## XIX əsrin sonu – XX əsrin əvvəlində Bakıda memarlığın intibahı



Səhifə ➩ 11

## Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə çağdaş şəhərsalmanın baş memarıdır



Səhifə ➩ 10

## Azərbaycan dünyaya “ağıllı” bərpa modeli təqdim edir



Səhifə ➩ 12

## Savaş təxirə salındı...



Səhifə ➩ 14

## Günnüt əməliyyatı Azərbaycan Ordusunun “Dəmir yumruq” müjdəsi idi



Səhifə ➩ 9

## Ermənistanda “sülh” və “savaş” qüvvələri üz-üzə

*Parlament seçkisi ərəfəsində İrəvana Şimaldan təzyiqlər də güclənib*



**Avropa İttifaqının Ermənistanda düzənlədiyi hərarətli “may günləri”nin istisi çəkilməmiş Nikol Paşinyan iqtidarının üzərinə Şimaldan soyuq küləklər əsir. İndidən məlumdur ki, 7 iyun parlament seçkiləri təkcə Hayastanda yox, bütövlükdə, regiondakı proseslərin inkişaf dinamikasına özünün korrektələrini edəcək. Bir tərəfdə Nikol Paşinyan, qarşı tərəfdə Robert Köçəryan və Samvel Karapetyanın hakimiyyət uğrunda mübarizəsini, şərti olaraq, “sülh” və “antisülh” cəbhəsi adlandırmaq olar.**

*(ardı 5-ci səhifədə)*

# Prezident İlham Əliyevin Belarus Milli Assambleyasının Palata sədri ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Belarus Respublikası Milli Assambleyası Nümayəndələr Palatasının sədri İqor Sergeyenkonu qəbul edib.**

Dövlətimizin başçısı Belarusun Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) yüksəksəviyyəli nümayəndə heyəti ilə iştirak etdiyini dedi.

Sıx dostluğa əsaslanan Azərbaycan-Belarus münasibətlərinin inkişafından məmnunluğunu bildirən Prezident İlham Əliyev bütün sahələr üzrə fəal əməkdaşlığın həyata keçirildiyini vurğuladı. Bu xüsusda parlamentlərarası formatın əhəmiyyəti qeyd edildi. Ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığa toxunan dövlətimizin başçısı birgə layihələrin uğurla icra olunduğunu dedi.

Qəbula görə minnətdarlığını bildirən İqor Sergeyenko Belarus Prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Lukaşenkoya çatdırmağı xahiş etdi.

Qonaq vurğuladı ki, Azərbaycan və Belarus liderlərinin şəxsi əlaqələri ölkələrimizin qurumları arasında əməkdaşlığın inkişafına töhfə verir.

İqor Sergeyenko Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılışında iştirak etdiyini deyərək, burada şəhərsalmanın mühüm istiqamətləri üzrə müzakirələrin aparıldığını vurğuladı. Qeyd etdi ki, nüfuzlu beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı zəngin təcrübəsi olan Azərbaycanda WUF13 də yüksək səviyyədə təşkil edilib.

Söhbət zamanı münasibətlərimizin müxtəlif sahələrdə inkişafı perspektivləri müzakirə edildi, hər iki ölkənin qanunverici orqanları arasında əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycan və Mavriki prezidentlərinin dialoqu



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Mavriki Respublikasının Prezidenti Daramber Qoxul ilə görüşüb.**

WUF13 tədbirində iştirak etdiyinə görə Mavriki Prezidentinə təşəkkürünü bildirən dövlətimizin başçısı onun səfərinin ikitərəfli əlaqələrin inkişafı ilə bağlı müzakirələr aparmaq baxımından da yaxşı imkan yaratdığını dedi.

Prezident İlham Əliyev siyasi münasibətlərimizin səviyyəsindən məmnunluğunu bildirdi.

Mavriki Prezidenti bu tədbirə dəvətə görə dövlətimizin başçısına təşəkkür etdi. Daramber Qoxul ikitərəfli əlaqələrimizin müxtəlif aspektlərini müzakirə etmək baxımından da səfərinin roluna toxundu.

Bakıya səfəri çərçivəsində "ASAN xidmət" mərkəzini ziyarət etdiyini deyən Mavriki Prezidenti oradakı şəraitin onda zəngin təəssürat hissi yaratdığını bildirdi və ölkəsində də bu cür təcrübənin tətbiqində maraqlı olduğunu vurğuladı.

ASAN modelinin yaradılması ilə əlaqədar Azərbaycanın müxtəlif dövlətlərlə əməkdaşlıq etdiyini deyən Prezident İlham Əliyev bildirdi ki, bu xüsusda ölkəmiz Mavrikiyə də dəstək verməyə və təcrübəsini bölüşməyə hazırdır.

Qonaq WUF13 kimi qlobal səviyyəli tədbirin Azərbaycanda keçirilməsinin önəmini vurğuladı.

Daramber Qoxul Mavrikidən olan tələbələrə verilmiş təhsil təqaüdləri ilə bağlı Azərbaycan Prezidentinə təşəkkürünü bildirdi, gələcəkdə bunun daha da artırılması imkanlarına baxılmasını xahiş etdi.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlarda əməkdaşlığına toxunuldu, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların tərəfdaşlığın genişləndirilməsi baxımından rolu vurğulandı. İqtisadiyyat, sərmayələr, enerji, o cümlədən bərpaolunan enerji, turizm və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

# Dövlət başçısı Slovakiya Baş nazirinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Slovakiya Respublikasının Baş nazirinin müavini, ətraf mühit naziri Tomaş Tarabanı qəbul edib.**

Dövlətimizin başçısı özünün ötən il Slovakiyaya, Baş nazir Robert Fitsonun isə ölkəmizə səfərlərini xatırladaraq, son dövrlərdə Slovakiyadan yüksəksəviyyəli nümayəndə heyətlərinin Azərbaycana gəldiklərini qeyd etdi və vurğuladı ki, bu, ölkələrimiz arasında fəal əməkdaşlığın həyata keçirildiyini göstərir. Prezident İlham Əliyev Azərbaycanla Slovakiya arasında mövcud dostluğu və tərəfdaşlığı yüksək qiymətləndirərək, əməkdaşlığın səviyyəsindən məmnun olduğunu dedi.

Qonaqpərvərliyə görə minnətdarlığını bildirən Tomaş Taraba qeyd etdi ki, Slovakiya hər zaman Azərbaycanın yanındadır. O, ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini vurğuladı.

Slovakiya Baş nazirinin müavini dedi ki, ölkəsinə qaz lazım olduqda Azərbaycan etibarlı təchizatçı olub.

Tomaş Taraba Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Azərbaycanda keçirilməsinin önəminə də toxundu.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev hazırda Azərbaycanın 12 Avropa ölkəsini, o cümlədən Avropa İttifaqının 10 üzv dövlətini qazla təchiz etdiyini dedi, gələcəkdə bu rəqəmin artmasının mümkünlüyünü vurğuladı.

Görüşdə ikitərəfli münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşıdığı qeyd edildi, əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

## "Bir tərəfdən Azərbaycan Respublikası Hökuməti ilə digər tərəfdən Bolqarıstan Respublikası Hökuməti və Veliko Tırnovo Bələdiyyəsi arasında Bolqarıstan Respublikasının Veliko Tırnovo şəhərində "Şuşa Parkı"nın salınması və yenidən qurulması üzrə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2026-cı il fevralın 11-də Sofiya şəhərində imzalanmış "Bir tərəfdən Azərbaycan Respublikası Hökuməti ilə digər tərəfdən Bolqarıstan Respublikası Hökuməti və Veliko Tırnovo Bələdiyyəsi arasında Bolqarıstan Respublikasının Veliko Tırnovo şəhərində "Şuşa Parkı"nın salınması və yenidən qurulması üzrə əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Bolqarıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 may 2026-cı il**

# Prezident İlham Əliyevin "Euronews" televiziyasına müsahibəsi

*(əvvəli 1-ci səhifədə)*

Təbii ki, bu forum bizim üçün indiyədək görülən işlər, gələcək planlarımız barədə auditoriyaya və beynəlxalq ictimaiyyətə məlumat vermək, eyni zamanda, tərəfdaşlarımızın təcrübəsindən yararlanmaq baxımından da bir fürsətdir. Çünki iştirak səviyyəsi, dövlət və hökumət başçılarının sayı göstərir ki, bu gün şəhərsalma məsələləri bir çox dünya liderlərinin diqqət yetirdiyi mövzulardan biridir. Mən çıxışımda da qeyd etdiyim kimi, tarixi və memarlıq irsinin qorunması ilə şəhərlərin müasirləşdirilməsi bir-biri ilə uzlaşmalıdır.

**Müxbir:** ***Aydındır ki, Azərbaycan Qarabağda və Şərqi Zəngəzurda "ağıllı şəhər" və yaşıl enerji layihələrini təqdim edib. Bunlar münaqişədənsonrakı dövrdə yenidən qurulan ərazilərdir. Sizcə, bu layihələr qlobal şəhər innovasiyalarına necə töhfə verə bilər? Başqalarının təcrübəsindən faydalanmaqdan danışdınız, bəs, onlar sizdən nə öyrənə bilər?***

**Prezident İlham Əliyev:** Düşünürəm ki, biz bu günədək şəhər və kəndlərin sıfırdan qurulması ilə bağlı misilsiz təcrübə formalaşdırmışıq. Təəssüf ki, işğal altında olmuş ərazilərin genişmiqyaslı dağıntılara məruz qalması bizi buna vadar etdi. Mərhələli yanaşma, bəzi hallarda isə paralel inkişaf nəticəsində beş ilə artıq 85 min insanın doğma torpaqlarına qayıdışını təmin etmişik.

İlk növbədə, elektrik enerjisi məsələsi həll olundu. Bu günədək 307 meqavatlıq hidroenerji gücü istifadəyə verilib, hazırda 340 meqavat gücündə Günəş enerjisi layihələri isə inşa edilir. Bu həcm yalnız Qarabağ və Şərqi Zəngəzur üçün deyil, daha geniş ərazilər üçün də kifayət edəcək. Bununla yanaşı, elektrik şəbəkəsinin ölkənin ümumi enerji sistemi ilə inteqrasiyası təmin olunub. Ümumi uzunluğu 75 kilometr olan tunellərin 70 kilometri artıq istifadəyə verilib, 500 körpüdən 435-i artıq tikilib.

Dəmir yolları, məktəblər, xəstəxanalar - bütün bu işlər paralel şəkildə həyata keçirilir. Yenidənqurmanın ilk illərində əsas sərmayəni infrastrukturun yaradılmasına yatırmışdıq. Hazırda isə əsas sərmayələrimiz yaşayış sahələrinin tikintisinə yönəldilib - şəhərlərin Baş planları, "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyaları üzrə layihələr həyata keçirilir. Hər bir kənd üzrə planlar icra edilir. Beləliklə, hesab edirəm ki, bizim təcrübəmiz bənzər problemlərlə üzləşmiş ölkələrə yenidənqurma üçün bir nümunə ola bilər.

**Müxbir:** ***Yəni dünyanın digər ölkələri üçün bir model rolunu oynaya bilər ki, bu da gözəl haldır. Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən ölkələrdən birinə çevrilib. Avropa enerji mənbələrini şaxələndirdiyi bir dövrdə Azərbaycanın rolunun necə inkişaf edəcəyini görürsünüz?***

**Prezident İlham Əliyev:** Biz Avropa ilə enerji sahəsində əməkdaşlığa müəyyən müddət əvvəl başlamışıq. Xüsusilə 2020-ci ildən sonra - Cənub Qaz Dəhlizinin istifadəyə verilməsi ilə bu proses daha da sürətlənib. Hazırda həmin dəhliz vasitəsilə 16 ölkəyə təbii qaz ixrac olunur. Boru kəmərləri vasitəsilə qaz tədarük etdiyimiz ölkələrin sayına görə biz dünyada birinci yerdəyik. Bu rəqəm artmaqdadır. Avropa İttifaqının 10 üzv dövləti bizim müştərimizdir. Ümumilikdə isə 12 Avropa ölkəsi Azərbaycandan qaz alır. Ölkələrin sayı artır. Bizimlə əməkdaşlığa başlamaq istəyən ölkələrin müraciətlərinin sayı da artmaqdadır.

Xoşbəxtlikdən biz boru kəməri infrastrukturu və hasilat sahəsində ev tapşırığımızı vaxtında həyata keçirmişik. Hazırda istehsal səviyyəsi artmaqdadır. Tezliklə, yəqin ki, gələn ayın əvvəlində yeni yataqdan qaz hasilatına başlanılması ilə bağlı məlumat verəcəyik. Burada qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq mövcuddur. Bizim premium bazara ehtiyacımız var, o da Avropadır. Avropanın isə Azərbaycan kimi alternativ təchizat mənbəyinə ehtiyacı var. Beləliklə, biz səylərimizi birləşdirdik və Avropa Komissiyası ilə çox səmərəli əməkdaşlıq qurduq.

**Müxbir:** ***Təşəkkür edirəm. Siz həm regionda, həm onun hüdudlarından kənarda diplomatiya və sabitliyin fəal tərəfdarlarından olmusunuz. Hazırda Hörmüz böhranı regional və qlobal iqtisadiyyata təsir göstərir. Azərbaycan bu vəziyyətə necə yanaşır və bunun öhdəsindən necə gəlir?***

**Prezident İlham Əliyev:** Təchizat zənciri baxımından bu böhran bizə ciddi təsir göstərmir. Çünki enerji təchizatı və marşrutların şaxələndirilməsi siyasəti bizim üçün bu günün məsələsi deyil. Bu siyasət uzun illərdir həyata keçirilir və tərəfdaşlarımız, eləcə də qonşu ölkələrlə birlikdə neft, qaz, elektrik enerjisi və nəqliyyat bağlılığı üzrə şaxələndirilmiş təchizat sistemi formalaşdırmağa nail olmuşuq.

Əlbəttə, Yaxın Şərqdə baş verən hadisələr müəyyən dərəcədə hər kəsə təsir edir. Bəziləri yüksək neft qiymətlərinin faydalı ola biləcəyini düşünə bilər. Bəli, elədir. Ancaq eyni zamanda, neft ehtiyatları ilə zəngin olan ölkələrin bir çoxu öz vəsaitlərini istiqrazlara yatırır, bir çoxu isə səhm bazarlarına investisiya edir. Belə qeyri-sabitlik baş verdiyi vaxt fond bazarları aşağı düşür. Nəticədə biz yüksək neft qiymətlərindən müəyyən gəlir əldə etsək də, bazarlarda investisiyalarımızda itki baş verir. Beləliklə, bu, hər kəsə təsir edir.

Lakin öz enerji layihələrimiz baxımından biz təhlükəsiz mövqedəyik. Siz də qeyd etdiyiniz kimi, biz daim diplomatiyanın tərəfdarıyıq. Diplomatiya olmadan biz öz ehtiyatlarımızı bazarlara çıxara bilməzdik. Çünki bunun üçün digər ölkələrin ərazisindən keçmək, qonşularla və qonşuların qonşuları ilə yaxşı münasibətlər qurmaq, çoxtərəfli əməkdaşlıq formatı formalaşdırmaq, istehsalçılar, tranzit ölkələr və istehlakçılar arasında qarşılıqlı uduşlu vəziyyət yaratmaq lazım idi ki, hər kəs qaydalara əməl etsin və gəlir qazansın.

Bu baxımdan düşünürəm ki, Azərbaycanın təcrübəsi faydalı ola bilər. Böhran həll olunduqdan sonra, - bu, tez və ya gec baş verəcək, - yəqin ki, yeni bir vəziyyət yaranacaq. Bir çox ölkələr enerji siyasətlərini və enerji ehtiyatlarının çatdırılması yollarını yenidən nəzərdən keçirəcəklər. Çox güman ki, Azərbaycanın coğrafiyası və mövcud resursları bu gün olduğundan daha çox tələb olunacaq.

**Müxbir:** ***Cənab Prezident, Sizinlə söhbət etmək həmişə böyük məmnuniyyətdir.***

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Sizi yenidən Azərbaycanda görməkdən məmnunam.

**Müxbir:** ***Geri qayıtmaq həmişə çox xoşdur. Müsahibəyə görə təşəkkür edirəm.***

# "İlham Əliyev. İnkişaf – məqsədimizdir" çoxcildliyinin 149-cu kitabı çapdan çıxıb

**"Azərbaycan Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur. Biz müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir, bir-birimizin təşəbbüslərini dəstəkləyir, qlobal və regional problemlərin həllində ümumi yanaşmalar işləyib hazırlayırıq".**




"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 149-cu kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2025-ci il noyabrın 16-da Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə çıxışı zamanı söyləyib.

Çoxcildliyin bu kitabında toplanmış materiallar 2025-ci ilin noyabrından 2026-cı ilin yanvar ayınadək olan dövrü əhatə edir. Bu nəşrə Prezident İlham Əliyevin Özbəkistan Respublikasına səfərinə, Prezident Şavkat Mirziyoyev ilə görüşünə, İslam Sivilizasiyası Mərkəzi ilə tanışlığına, Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirakına dair materiallar daxil edilib. Yeni kitabda Azərbaycan Prezidentinin Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibəsinin mətni də verilib.

Azərbaycan Prezidentinin Slovakiyaya, Birləşmiş Ərəb Əmirliklərinə səfərləri haqqında informasiyalar da bu cilddə yer alıb. Oxucular yeni kitabda Prezident İlham Əliyevin ötən ilin noyabr ayında NATO-nun nümayəndə heyətini, bu ilin yanvar ayında ABŞ nümayəndə heyətini qəbul etməsi haqqında informasiyalarla da tanış ola bilərlər.

Azərbaycan Prezidenti ötən il Vətən müharibəsində Qələbənin 5-ci ildönümü münasibətilə Ümummilli Lider Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını, Zəfər abidəsini ziyarət edib və Zəfər Muzeyinin açılış mərasimində iştirak edib. Prezident İlham Əliyev Vətən müharibəsində Qələbənin 5-ci ildönümünə həsr olunmuş hərbi paradda çıxış edib. Bütün bunlar haqqında materiallar 149-cu kitabda toplanıb.

Dövlətimizin başçısı ötən ilin dekabrında Qarabağ bölgəsinə səfər edib, Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəb binasının əsaslı təmirdən sonra açılış mərasimində, Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin yeni inşa olunmuş binasının açılışında iştirak edib, Kərkicahan qəsəbəsinə köçən sakinlərlə görüşüb, Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməlini qoyub. Prezident Qarabağa səfəri zamanı Xankəndi şəhərində Zəfər parkının açılış mərasimində, Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüb. Bütün bunlar haqqında informasiyalar yeni kitabda verilib.

Yeni kitaba Azərbaycan Prezidentinin ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin iştirakçılarına müraciətləri, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətinin, Milad bayramı münasibətilə Azərbaycanın Pravoslav xristian icmasına təbrikinin mətnləri də daxil edilib.

Çoxcildliyin buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Bu cildin hazırlanmasında da Azərbaycan Dövlət İnformasiya Agentliyinin materiallarından istifadə olunub.

***AZƏRTAC***

# Vətəndaş cəmiyyəti: qlobal tərəfdaşlıq və qərarvermə




**Forum çərçivəsində ilk dəfə "QHT Forumu: Qlobal tərəfdaşlıqlar və qərarvermə" mövzusunda müzakirə də keçirilib.**

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən təşkil olunan iclasda vətəndaş cəmiyyətinin inklüziv şəhər planlaşdırılması və davamlı şəhər inkişafında rolu müzakirəyə çıxarılıb.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax Azərbaycanın milli şəhərsalma forumunda iştirakından məmnunluğunu ifadə edib. O, Azərbaycanın yenidənqurma prosesində icmaların və müxtəlif tərəflərin fəal şəkildə cəlb olunduğunu görməkdən məmnun olduğunu bildirib. A.Rossbax əlavə edib ki, QHT-lərin iştirakı olmadan qlobal mənzil böhranının həlli mümkün deyil.

Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev COP29 çərçivəsində yaradılan Qlobal Cənub QHT Platformasının artıq uğurlu beynəlxalq təşəbbüsə çevrilməkdə olduğunu bildirib.

"Bu il həmin platformanın Baş Assambleyası təsis olunub və mən bu təşəbbüsün gələcəyinə böyük ümidlə baxıram. Şəhərlərlə bağlı çağırışlar – sürətli urbanizasiya, əhali artımı və iqlim dəyişiklikləri artıq bütün dövlətlərin gündəmindədir. Azərbaycan da iqlim dəyişikliklərinin təsirlərini hiss edir", – deyə o bildirib.

Azərbaycanın qədim şəhərsalma ənənələrinə malik olduğunu vurğulayan H.Hacıyev qeyd edib ki, qədim Qəbələ kimi şəhərlər tarix boyu ticarət, elm, əməkdaşlıq və mədəniyyət mərkəzləri olub.

"Bu gün isə əsas çağırışlardan biri müasir şəhərlərin inkişafı ilə yanaşı, mədəni irsin qorunmasıdır", – deyə o əlavə edib.

BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin direktoru Dima Al-Katib qeyd edib ki, şəhərlərin dayanıqlı inkişafı istiqamətində qlobal çağırışların həlli üçün vətəndaş cəmiyyəti institutlarının iştirakı və çoxtərəfli tərəfdaşlıqlar mühüm əhəmiyyət daşıyır.





Qaçqınlar üzrə Ali Komissarlığın (UNHCR) sabiq icraçı direktoru, hazırda Malayziya hökumətinin dayanıqlı urbanizasiya üzrə müşaviri, Maimuna Mohd Şərif bildirib ki, QHT-lər yalnız qlobal forumların iştirakçısı deyil, həm də insanlar, siyasət və praktika arasında əlaqələndirici qüvvədir.

"Vətəndaş cəmiyyəti təşkilatları hökumətlər, beynəlxalq təşkilatlar, özəl sektor və yerli icmalar arasında mühüm körpü rolunu oynayır. Yalnız dövlət və özəl sektor deyil, insanlar da bu tərəfdaşlığın əsas hissəsi olmalıdırlar", – deyə o vurğulayıb.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi İdarə Heyətinin sədri Aygün Əliyeva son illərdə Azərbaycanın vətəndaş cəmiyyəti sahəsində mühüm beynəlxalq təşəbbüslərin və həmrəylik platformalarının formalaşdığı məkana çevrildiyini bildirib.

BMT-nin Məskunlaşma Proqramı İdarə Heyətinin keçmiş katibi və Hökumətlərarası Əlaqələr Şöbəsinin rəhbəri Kristian Mensah bildirib ki, WUF tarixində ilk dəfə dünyanın müxtəlif ölkələrindən QHT-lər vahid platformada bir araya gələrək xüsusi məkan əldə ediblər.

Birləşmiş Millətlər Təşkilatının Təlim və Tədqiqat İnstitutu Məsləhət Şurasının sədri Luis Qalyeqos qeyd edib ki, şəhərlər qadınlar, kişilər və uşaqlar üçün uyğun şəkildə qurulmalıdır.

***XQ***

# Ümumdünya Şəhərsalma Forumunun 3-cü günündə sessiya və təqdimatlar









**BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Azərbaycan pavilyonunda "Münaqişədən sonra şəhərsalma: Məhv edilmiş kimliyin bərpası və inteqrasiya olunmuş gələcəyin yenidən qurulması" mövzusunda təqdimat keçirilib.**

Əvvəlcə Xankəndi şəhəri, Şuşa, Ağdərə və Xocalı rayonlarında görülən bərpa-quruculuq işlərinə dair videoçarx nümayiş olunub.

Şuşa rayonunda Prezidentin xüsusi nümayəndəsi Aydın Kərimov işğaldan azad olunduqdan dərhal sonra rayonda quruculuq işlərinin başladığına diqqət çəkib. Onun sözlərinə görə, bu proses son bir neçə il ərzində çox sürətlə inkişaf edib. Xüsusi nümayəndə bildirib ki, Şuşada 200-ə yaxın tarixi və mədəniyyət abidəsi mövcuddur, onların əksəriyyəti işğal dövründə dağıdılaraq zərər görüb. Tut bağında yerləşən 7 məscid, 6 bulaq, 7 mədəniyyət obyekti, Şuşa qalası, Üzeyir Hacıbəylinin heykəli, Molla Pənah Vaqifin məqbərə kompleksi və Xanlıq Muxtar karvansarası daxil olmaqla ümumilikdə 27 abidə bərpa edilib.

A.Kərimov əlavə edib ki, 2024-cü il mayın 10-dan etibarən Şuşaya 1411 nəfər, yəni 377 ailə köçürülüb. Birinci yaşayış massivində 450 mənzildən ibarət 23 çoxmənzilli bina istifadəyə verilib. Artıq Şuşada Müalicə-Diaqnostika və Sağlamlıq Mərkəzi fəaliyyət göstərir. Dövlət Xidmətləri Mərkəzi yaradılıb. Qızlar Gimnaziyası Məktəbinin də bərpa işləri davam etdirilir.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov isə vurğulayıb ki, Xankəndi, Ağdərə və Xocalıda minatəmizləmə və partlamamış hərbi sursatların təmizlənməsi fəaliyyətləri ən çətin proseslərdən biri idi. "Xankəndidə 1456 hektar, Ağdərədə 10 min 359, Xocalıda isə 9874 hektar ərazi minalardan və partlamamış sursatlardan təmizlənib", - deyə xüsusi nümayəndə əlavə edib.

E.Yusubov məlumat verib ki, işğaldan azad olunan Xankəndiyə 71 ailə (302 nəfər), Ağdərəyə 857 ailə (3341 nəfər), Xocalıya 1083 ailə (4510 nəfər) qayıdıb: "Dəmir yolu və avtobus terminal layihəsi çərçivəsində, 28 kilometr uzunluğundakı Ağdam-Xankəndi dəmir yolu xəttinin dizayn işləri 90 faiz, tikintisi isə 51,1 faiz tamamlanıb. Eyni layihə çərçivəsində yer alan Xankəndi Şəhər Dəmir Yolu və Avtovağzal Kompleksinin də dizayn işlərinin 90 faizi, tikinti işlərinin isə 40 faizi yekunlaşıb".

Qeyd edək ki, tədbirin sonunda iştirakçıların sualları cavablandırılıb.

***

**Həmin gün "Şəhərlər bağlantılılığın mərkəzində: Şəhər yenidənqurması və regional əməkdaşlıq" mövzusunda xüsusi sessiya da təşkil olunub.**

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov yeni nəqliyyat dəhlizlərinin, dəmir yollarının, avtomobil magistrallarının, enerji infrastrukturunun və rəqəmsal şəbəkələrin yenidənqurma ərazilərini daha geniş regional və beynəlxalq iqtisadi sistemlərə inteqrasiya etdiyini vurğulayıb. Deyib ki, bu investisiyalar mobilliyi, ticarəti, sərmayələri, turizmi və məşğulluğu təşviq edir, eyni zamanda, regional qarşılıqlı asılılığı və uzunmüddətli sabitliyi gücləndirir.

Energetika naziri Pərviz Şahbazov çıxışında bildirib ki, gələcəyin şəhərləri artıq ölçüləri ilə deyil, enerji səmərəliliyi, texnoloji inkişafı və regional bağlantıları ilə dəyərləndiriləcək.

İqtisadiyyat naziri Mikayıl Cabbarov qeyd edib ki, Azərbaycan regionun ən mürəkkəb və uzunmüddətli ərazi münaqişələrindən birini həll edib. O deyib ki, Azərbaycan son 20 ildən az müddətdə yoxsulluq səviyyəsini 49 faizdən 5 faizə endirməyə nail olub.

WUF13-ün milli koordinatoru, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev diqqətə çatdırıb ki, Azərbaycan son beş ildən artıq müddətdə regionun yaxın tarixində ən geniş və əhatəli yenidənqurma proqramlarından birini həyata keçirir.







Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev vurğulayıb ki, Azərbaycan Avrasiya məkanında mühüm nəqliyyat qovşaqlarından birinə çevrilib. Nazirin sözlərinə görə, ötən il Azərbaycan ərazisindən 17 milyon ton yük daşınıb.

***

**Dünən WUF13 çərçivəsində "UNESCO-nun yaradıcı şəhərləri və dayanıqlı şəhərsalma" mövzusunda panel sessiya da keçirilib.**

Müzakirəni UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsi və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi birgə təşkil edib.

UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinin (UCCN) katibi Denise Bax bildirib ki, mədəniyyət bütün proseslərin tərkib hissəsidir. O deyib ki, UNESCO bu sahədə hər zaman innovativ ev modellərinin qurulması, icmaların və yerli iqtisadiyyatın dəstəklənməsi sahəsinə öz dəstəyini verməyə hazırdır. O bildirib ki, mədəniyyət qlobal məşğulluğun 3.55 faizini təşkil edir ki, bunun da əksəriyyəti şəhərlər üzrə göstəriciyə əsaslanır.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxışında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) Bakıda keçirilməsinin Azərbaycanın dayanıqlı şəhər inkişafı sahəsində artan beynəlxalq rolunun aydın göstəricisi olduğunu bildirib. O qeyd edib ki, Azərbaycan zəngin şəhərsalma və memarlıq ənənələrinə malikdir.

Nazir müavini deyib ki, UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş abidələr - İçərişəhəri, Qız qalası və Şirvanşahlar Sarayı Kompleksi, həmçinin Şəkinin tarixi mərkəzi və Xan Sarayı ölkənin zəngin mədəni irsini əks etdirir. Müasir dövrdə isə Heydər Əliyev Mərkəzi, Alov Qüllələri və "Ağ Şəhər" layihəsi Azərbaycanın innovasiya və dayanıqlı inkişaf baxışını nümayiş etdirir.

Tədbir panel müzakirələri ilə davam edib.

Azərbaycan Respublikası Kino Agentliyinin Baş direktoru Rəşad Əzizov bildirib ki, yaradıcı şəhərlər şəbəkəsi təxminən 10 il əvvəl formalaşmağa başlasa da, son 3 ildə bu istiqamətdə inkişaf daha sürətli olub. Hazırda yaradıcı sənayelərin dəstəklənməsi üçün yeni alətlər kimi qiymətləndirilən geniş layihələr şəbəkəsi mövcuddur.

Sonra Buxara şəhər merinin müavini və Şəhər İnvestisiya, Sənaye və Ticarət İdarəsinin rəhbəri Şarofiddin Xusenov, BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Şəhər Yenilənməsi və İctimai Məkan üzrə rəhbəri Xose Çonq və digər çıxış edənlər mövzu ətrafında fikirlərini bölüşüblər.

Çıxışlarda şəhərlərin davamlı inkişafında yaradıcı yanaşmaların və mədəni resursların rolunun getdikcə artdığı vurğulanıb.

***

**Forum çərçivəsində "Şəhər iqlim fəaliyyəti və davamlı urbanizasiya üzrə Bakı Davamlılıq Koalisiyası"nın yüksəksəviyyəli iclası da keçirilib.**

İclas COP29 zamanı yaradılmış Bakı Davamlılıq Koalisiyasının (BCC) fəaliyyətinin genişləndirilməsinə və şəhər iqlim idarəçiliyində davamlılığın təmin olunmasına həsr edilib.

Məclisin açılışında WUF13-ün milli koordinatoru, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev və xarici işlər nazirinin müavini Yalçın Rəfiyev çıxış ediblər.

Bildirilib ki, koalisiyanın əsas məqsədi şəhər iqlim siyasətində mövcud boşluqları aradan qaldırmaq, müxtəlif maraqlı tərəflər arasında davamlı əməkdaşlığı təmin etmək və beynəlxalq forumlararası dövrlərdə ardıcıllığı qorumaqdır.

İclasda Azərbaycan, Türkiyə, Misir və Braziliya da daxil olmaqla bir sıra ölkələrin nümayəndələri ilə yanaşı, BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax da iştirak edib. Bundan əlavə, Keniya, İspaniya, Kanada, Çin, İtaliya, Kolumbiya, Ekvador, Malayziya, Polşa və Efiopiya kimi ölkələrin də prosesə qoşulduğu qeyd olunub.

Panel müzakirələrdə Birləşmiş Ərəb Əmirlikləri Energetika və İnfrastruktur Nazirliyinin infrastruktur və nəqliyyat işləri üzrə nazir müavini Məhəmməd İbrahim Əl-Mənsuri, Braziliya Şəhərlər Nazirinin beynəlxalq məsələlər üzrə müşaviri Antonio da Kosta e Silva, Keniyanın torpaq, ictimai işlər, mənzil və şəhər inkişafı naziri Alis Vahome, Malayziya hökumətinin dayanıqlı urbanizasiya üzrə müşaviri, Kuala Lumpurun sabiq meri Maimuna Mohd Şərif və başqaları çıxış ediblər.

***

**Forumda BMT-nin Məskunlaşma Proqramının "World Cities Report 2026" hesabatının təqdimatı keçirilib.**

Mərasimə UN Habitatın nümayəndəsi Edlam Yemeru moderatorluq edib.

Sonra BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudia Rossbax dəyirmi masada videoformat şəklində çıxış edib. Bildirib ki, dünyada baş verən bir sıra proseslər məskunlaşma kasadlığına gətirib çıxarır: "Qlobal məskunlaşma onilliklər ərzində yaranan problemdir. Milyonlarla insan qeyri-təhlükəsiz şəraitdə yaşayır. Onların ən elementar xidmətlərə belə əlçatanlılığı yoxdur. Hazırda 123 milyon insan qaçqın və məcburi köçkün halına düşüb. Bu da yerli əhalinin yoxsulluğuna gətirib çıxarır".

UN-Habitatın bölmə rəhbəri Benedikt Arimah bildirib ki, hazırlanmış hesabat qlobal məskunlaşma böhranına həsr olunub və burada əsas diqqət konkret həll yollarına yönəldilib: "Hesabatda qlobal məskunlaşma sahəsində mövcud olan böhran, problemlər və çətinliklər, eləcə də bu prosesə uyğun tərəfdaşların və əməkdaşların necə cəlb olunmalı olduğu ətraflı şəkildə təhlil edilir. Biz hesabat çərçivəsində beş əsas meyar üzərində dayanmışıq. Bunlar mənzil əlçatanlığı, qeyri-formal məskunlaşma, iqlim riskləri və dayanıqlılıq, iqlim dəyişikliklərinin təsiri, həmçinin inklüziv şəhərlərin formalaşdırılmasıdır.

Bundan əlavə, hesabat daha yeddi əlavə göstəricini də özündə ehtiva edir. Hesabatın birinci bölməsində əsas diqqət mövcud böhranın mahiyyətinə və səbəblərinə yönəlib. İkinci bölmədə bu sahədə qəbul olunmuş siyasətlər və tətbiq edilən yanaşmalar təhlil olunur. Üçüncü bölmədə isə böhranın əsas göstəriciləri, hökumətlərin bu problemlərə hansı yollarla həll tapa biləcəyi, maliyyə mexanizmləri və digər çıxış yolları araşdırılır. Araşdırmaların nəticələrinə görə, hazırda 3,4 milyard insan adekvat məskunlaşma imkanlarından məhrumdur".

Meksikanın Milli Elm və Texnologiya Şurasının tədqiqatçısı Hector Becerril Miranda problemləri həll etmək üçün ilk növbədə, hüquqi tənzimləməyə baxılmalı olduğunu vurğulayıb.

Niderlandın Erasmus Rotterdam Universitetinin Mənzil və Şəhər İnkişafı Araşdırmaları İnstitutunun baş direktoru David Dodman hesabatda məskunlaşma ilə bağlı problemin əhatəli qeyd olunduğunu deyib.

Böyük Britaniyanın Liverpool Universitetinin professoru Taibat Lawanson çıxışı zamanı mənzil təminatının yalnız tikinti prosesi deyil, kompleks yanaşma tələb edən mühüm sosial-iqtisadi məsələ olduğunu bildirib.

Pakistanın Pəncab əyalətinin Əlçatan Mənzil Proqramının direktoru İmran Ali Sultan dünyada mənzil böhranının dərinləşməsinə diqqət çəkib. Məhkəmə və bank sektorunun mənzil böhranı zamanı oynadığı rola toxunub. Qeyd edib ki, bəzən məskunlaşma ilə bağlı qanunun qəbul edilməsi üçün 3 ilə yaxın vaxt tələb olunur.

Çinin Şəhər və Ətraf Mühit Araşdırmaları Mərkəzinin universitet tədqiqatları üzrə direktoru Yunqing Xu qeyd edib ki, hazırlanan qlobal hesabat yalnız qlobal meyilləri əks etdirmir, həmçinin yerli kontekstlərə uyğunlaşdırılması ilə də diqqəti cəlb edir. Onun sözlərinə görə, bu məsələdə əsas məqam düşüncə tərzinin dəyişməsidir.

Tədbir sual-cavab sessiyası ilə başa çatıb.

***

**WUF13 çərçivəsində "Xəzər regionunda iqlimədavamlı şəhərlər və icmalar: Şəhər uyğunlaşması üçün şaquli iqlim maliyyələşdirilməsi" mövzusunda yüksəksəviyyəli dialoq da keçirilib.**

Yüksəkvəzifəli dövlət nümayəndələrini, BMT təmsilçilərini, beynəlxalq maliyyə institutlarını və inkişaf tərəfdaşlarını bir araya gətirən məclisdə iqlim maliyyəsinin, tərəfdaşlıqların və innovasiyaların miqyaslanabilən və insan mərkəzli şəhər uyğunlaşmasını necə dəstəkləyə biləcəyi müzakirə edilib.

Açılış mərasimində çıxış edən ekologiya və təbii sərvətlər nazirinin birinci müavini Ağakərim Səmədzadə iqlim dəyişikliklərinin təsirlərinin hər il daha da kritik xarakter aldığını, artan temperaturun və su ehtiyatlarının azalmasının yeni çağırışlar yaratdığını diqqətə çatdırıb.

Qeyd olunub ki, Xəzər dənizində suyun səviyyəsinin enməsi artıq ciddi problemə çevrilib. Bunun balıqçılıq sahəsindən tutmuş sahilyanı ərazilərdə yaşayan əhalinin həyatına, turizm iqtisadiyyatına və ümumi ekosistemə qədər milyonlarla insanın yaşamına təsir göstərdiyi vurğulanıb.

Dialoq BMT-nin Ətraf Mühit Proqramının Avropa Ofisinin regional koordinatoru Mahir Əliyevin moderatorluğu ilə müzakirələrlə davam edib.

Müzakirələrdə BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax, BMT-nin Ətraf Mühit Proqramının (UNEP) baş katibinin köməkçisi və icraçı direktorunun müavini Elizabeth Maruma Mrema, ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev, Beynəlxalq Miqrasiya Təşkilatının İqlim Fəaliyyəti Bölməsinin direktoru Rania Sharshr və başqaları iştirak ediblər.

***XQ***

# Azərbaycan və WUF13: qurub-yaratmaq əzminin təntənəsi

## *Uğurlu dövlət siyasəti və keçmişlə müasirliyin ahəngdar vəhdəti*

**Rejissoru dahi Tofiq Tağızadə, ssenari müəllifi böyük yazıçımız Anar olan, Azərbaycan kinematoqrafiyasının incisi sayılan məşhur "Dədə Qorqud" filmində hadisələrin mərkəzində xalq dayanır. Sənət əsərində, ümumən, xalqımızın taleyi, tarixi proseslərdə rolu, uzaq keçmişi, adət və ənənələri ön plana çəkilir. Nəhayət, saysız-hesabsız insan fəlakətlərinin, ardı-arası kəsilməyən müharibələrin şahidi olmuş Dədə Qorqud insanları azad əməyə səsləyir.**



### Dövlət siyasəti və siyasi zövq

*"Beləliklə, hazırda Böyük Qayıdış Proqramı həyata keçirilir, şəhər və kəndlərin Baş planları hazırlanır. Mən, əlbəttə ki, çox rəqəm gətirə bilərəm, lakin yalnız ikisini qeyd edim. Artıq 5 il ərzində çəkdiyimiz tunellərin uzunluğu 70 kilometrdir. Digər beşi də tikiləcək. 500 körpüdən 435-i inşa olunub. Bununla yanaşı, elektrik stansiyaları, su təchizatı kəmərləri, su anbarları, evlər, məktəblər, xəstəxanalar, üç beynəlxalq hava limanı tikilib, dəmir yolları çəkilib. Bütün bunlar cəmi beş il ərzində inşa olunub".* Bu fikri Prezident İlham Əliyev Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimindəki çıxışında səsləndirib.

Ümumən, dövlətimizin başçısının mötəbər toplantıdakı çıxışı Azərbaycanın müstəqillik dövründə gəldiyi yolun mənzərəsini canlandırmaq baxımından son dərəcə əhəmiyyətlidir. O mənzərə ki, küləndən yoğrulmuş Vətənimizin yeni heyrətamiz salnaməsidir. Azərbaycan xalqı 1991-ci ildə əldə etdiyi dövlət müstəqilliyini qurub-yaratmaq əzmi ilə möhkəmləndirdiyi kimi, 2020-ci ildən sonra eyni əzmi işğaldan azad edilmiş torpaqlarımızın bərpasına yönəltdi.

Tam əminliklə söyləyə bilərik ki, biz şəhəryaradan və şəhərsalan xalqıq. Bu deyimlərin çoxsaylı müasir nümunələrini görürük. Gözlərimiz önündə gözəlləşən Qəbələmiz, Gəncəmiz, Naxçıvanımız, Şamaxımız və başqa şəhərlərimiz canlanır. Ümumən, hər bir rayonumuz keçmişlə müasirliyin vəhdəti olmaqla unikallıq təcəssümüdür. Bu unikallıq özündə tarixə, keçdiyimiz yola böyük ehtiramın ayrı-ayrı çalarlarını birləşdirir. Bu unikallıq əsrarəngizlikdir, dərin yaşam fəlsəfəsi və misilsiz zövqdür.

Müasir Azərbaycanda şəhərsalma məhz zövq işinə çevrilib. Çünki prosesin Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın timsalında böyük hamiləri və zövq ustaları var. Həm dövlətimizin başçısı, həm də ölkəmizin Birinci xanımı şəhərsalma məsələlərini daim diqqətdə saxlayır. Dövlətimiz mövcud istiqamətdə ardıcıl, məhsuldar siyasət həyata keçirməklə, yeni dövrün Azərbaycanının simasının formalaşmasını təmin edir.

### Heydər Əliyev böyüklüyü və qurtulmuş Bakı

Əlbəttə, Azərbaycanda şəhərsalma siyasətinin mənəvi paradiqması kimi, digər zərurət trayektoriyası da diqqətdən yayınmır. Söhbət eyni zamanda, siyasi trayektoriyadan gedir. Elə isə tarixə qısaca nəzər salaraq qeyd edək ki, XIX əsrin ikinci yarısından başlayaraq, XX əsrin əvvəlləri də daxil olmaqla, Azərbaycanda sənayenin inkişafı, neft amilinin ön plana çıxması urbanizasiya reallığı doğurmuşdu. Proses Bakının memarlıq baxımından genişlənməsi, həmçinin sosial-iqtisadi həyatın əsas mərkəzinə çevrilərək yeni sima qazanması ilə müşayiət olunmuşdu. Nəzərə alaq ki, urbanizasiya təkcə şəhərlərin böyüməsi deyil, eyni zamanda, cəmiyyətin yaşam tərzinin dəyişməsi deməkdir. Dəyişiklik isə nəticə etibarilə, Şərq memarlıq ənənələri ilə Avropa üslubunun sintezinə əsaslanmışdı.

Sonrakı zaman kəsiyində, xüsusən sovet Azərbaycanının ulu öndər Heydər Əliyevin adı ilə bağlı inkişaf mərhələsində tarixi irsin qorunması ilə yanaşı, müasir infrastrukturun qurulması həyata keçirildi ki, bu yanaşmada başlıca hədəf olaraq milli-mədəni kimliyin saxlanılması ön planda dayandı. Başqa sözlə desək, Heydər Əliyev şəxsiyyəti şəhərsalmanı xalqımız üçün vacib siyasət kriteriyalarına uyğunlaşdırdı.

Axı Ulu öndər 1969-cu ildə respublikamıza rəhbərliyə gələnədək paytaxt Bakıda əhalinin əksəriyyətini qeyri-millətlər təşkil etmişdi. Heydər Əliyevin şəhərsalma və sənayeləşdirmə kursu mövcud status-kvonu dəyişdi. Fikrimiz qəribə səslənsə də, deməliyik ki, o dövrdə məhz Ümummilli liderin sayəsində Bakı azərbaycanlıların şəhərinə çevrildi, həmçinin əvvəl Çarizmin, sonra isə keçmiş SSRİ-nin imperialist baxışlarında yer almış paytaxtımızı Azərbaycandan ayrı, mərkəzə tabe əraziyə çevirmək niyyətləri puça çıxdı.

### Urbanizasiya və ya keçmişlə müasirliyin harmoniyası

Müasir dövrdə Azərbaycanda şəhərsalma siyasəti daha geniş, məzmunlu və planlı şəkildə həyata keçirilir. Proses yalnız yeni binaların inşası ilə məhdudlaşmır, tarixi-mədəni abidələrin bərpası və qorunmasını da əhatə edir. Paytaxt Bakıda və şəhərlərdə aparılan yenidənqurma işləri tarixi irslə müasirliyin harmoniyasını yaradır. Məsələn, İçərişəhər kimi qədim memarlıq nümunələrinin qorunması ilə paralel surətdə, müasir bulvarlar, parklar, nəqliyyat infrastrukturu və yaşayış kompleksləri salınır.

Onu da deyək ki, Azərbaycanda urbanizasiya siyasəti tarixə bağlılığı qorumaqla, müasir inkişaf modelini birləşdirən mühüm strategiyaya çevrilmişdir. Bu, həm milli irsin gələcək nəsillərə ötürülməsinə, həm də ölkənin müasir və dayanıqlı şəhər mühitinin formalaşmasına xidmət edir. İşğaldan azad olunmuş torpaqlarımızda isə belə yanaşmanın, necə deyərlər, şah əsərləri yaradılır. Halbuki, Prezident İlham Əliyevin vurğuladığı kimi: *"Beynəlxalq müşahidəçilər və ziyarətçilər Ağdamı Xirosima ilə müqayisə edirdilər, onlar Ağdamı "Qafqazın Xirosiması" adlandırırdılar. Çünki şəhər, sadəcə, mövcud deyildi. Şəhər tamamilə yerlə-yeksan edilmişdir və o, Xirosimadan fərqli olaraq, atom bombasının atılması nəticəsində bir günə bu vəziyyətə düşməmişdir. Bu, 30 illik işğal ərzində edilmişdir və bu zaman binalar, tarixi binalar və ictimai binalar, evlər tamamilə sökülərək dağıdılmışdır".*

Bəli, Ağdam şəhərinin yenidən qurulması Azərbaycanda müasir urbanizasiya siyasətinin ən mühüm nümunələrindən biri kimi qiymətləndirilə bilər. Özü də şəhər yalnız qurulmur, habelə, onun timsalında yeni şəhərsalma modeli formalaşdırılır. Ağdamda "ağıllı şəhər" konsepsiyasına uyğun yollar, kommunikasiya xətləri, enerji və su sistemləri ərsəyə gəlir, ərazinin əvvəlki tarixi-mədəni simasının müəyyən elementlərini qorumaq və yaşatmaq məqsədi də nəzərə alınır. Müasir Ağdam layihəsində yaşayış məhəllələri, məktəblər, xəstəxanalar, parklar, inzibati binalar və sosial obyektlər vahid plan əsasında salınır, şəhərin ekoloji baxımdan dayanıqlılığı, yaşıllıq zonalarının artırılması və müasir nəqliyyat həllərinin tətbiqi əsas götürülür. Bir sözlə, 10 il əvvəl yuxu kimi görünən proseslər gerçəyə çevrilir.

### Sahiblənmək əzmi və uğurlu ev sahibliyi təcrübəsi

Azərbaycan dövləti və xalqı təkcə Ağdama deyil, bütövlükdə, işğaldan azad edilmiş torpaqlarına sahib çıxır. Daha doğrusu, xalqımız torpağa sahiblənməyin müasir örnəyini yaradır. Bu deyimin Prezident İlham Əliyev tərəfindən diqqətə çatdırılan özünəməxsusluğu da var: *"Yalnız dağıtmaq, məhv etmək və əziyyətlər vermək üçün gələnlərdən fərqli olaraq, məhz torpağın yiyələri bu cür davranırlar. Bu gün 85 mindən artıq azərbaycanlı keçmişdə işğal altında olmuş ərazilərdə yaşayır. Onlar işləyir, yaşayır, təhsil alır və onların məşğulluğu hökumətimizin ən mühüm hədəflərindən biridir".*

Tam əminliklə onu da demək mümkündür ki, bu gün Azərbaycanda aparılan şəhərsalma siyasətinin mərkəzində insan amili dayanır. Buna görə Prezident İlham Əliyev WUF13-ün açılış mərasimindəki çıxışında işğaldan azad edilmiş torpaqlarda insanlar üçün mənzillər və fərdi evlər, məktəb və xəstəxanalar tikildiyini xatırladır və bildirir ki, salınacaq çoxsaylı sənaye zonaları öz torpağında yaşamaq kimi fundamental hüququndan məhrum olmuş yüz minlərlə insanın sürətli qayıdışına birmənalı dəstək olacaq.

Sonda yenidən "Dədə Qorqud" filminə qayıdaq. Film xalq ozanının dilindən canlı döyüş meydanını bərəkətli əkin yerlərinə çevirmək tövsiyəsi ilə bitir və müdrik qoca səslənir ki, "Əgər torpaq qorunmursa, əkilməyinə dəyməz, əgər əkilmirsə, onda qorunmağına dəyməz". Bu gün Azərbaycan xalqı və dövləti Prezident İlham Əliyevin prinsipiallığı, qətiyyəti və iradəsi sayəsində doğma torpağa, elə-obaya sahiblənməyin bənzərsiz və təkrarsız nümunəsini yaradıb. WUF13 kimi mötəbər toplantıya ev sahibliyi isə bu əzmə və iradəyə beynəlxalq səviyyədə verilmiş böyük dəyərdir. Elə bir dəyər ki, dünyanın müxtəlif bölgələrində münaqişələrin və müharibələrin genişlənməsinin qlobal təhlükəsizlik məsələsini daha da aktuallaşdırdığı bir zamanda ölkəmizin sabitlik və beynəlxalq əməkdaşlıq üçün etibarlı platformaya çevrildiyinin göstəricisidir. Elə bir dəyər ki, WUF13-ə uğurlu ev sahibliyinin fonunda Azərbaycanın şəhərsalma, urbanizasiya və dayanıqlı şəhər inkişafı sahəsində təcrübə mübadiləsi üçün də mühüm məkan statusunu vurğulayır.

***Əflatun AMAŞOV,***
***"Xalq qəzeti"nin***
***baş redaktoru***

# "Xalq qəzeti" Çin pavilyonunun qonağı oldu

**Bakıda keçirilən Dünya Şəhərsalma Forumu – WUF13 beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Dünyanın 182 ölkəsinin təmsil olunduğu Bakı Forumunun iştirakçıları arasında Çin Xalq Respublikasının tanınmış şəhərsalma mütəxəssisi, "Şanxay Tongji Urban Planning & Design Institute" şirkətinin Beynəlxalq Əməkdaşlıq və Konsaltinq Mərkəzinin direktoru Roski Ven də var. Çinli ekspert qəzetimizə eksklüziv müsahibəsində WUF13 forumunun əhəmiyyəti, Azərbaycan–Çin münasibətləri, eləcə də Bakının inkişaf modeli və müasir şəhərlərin gələcəyi barədə fikirlərini bölüşdü.**

***– Cənab Ven, bilmək istərdik ki, WUF13 forumunda sizi ən çox təəccübləndirən və diqqətinizi çəkən məqamlar oldumu?***

– Açığını desəm, məni ən çox təəccübləndirən məqam Azərbaycanın belə böyük beynəlxalq tədbiri çox yüksək səviyyədə təşkil etməsi oldu. Burada hər şey peşəkar şəkildə qurulub. Forum iştirakçıları üçün yaradılan şərait, təhlükəsizlik, koordinasiya və tədbirin ümumi atmosferi olduqca təsirlidir. Mən müxtəlif ölkələrdə keçirilən beynəlxalq urbanizasiya forumlarında iştirak etmişəm. Lakin Bakı Forumu həm təşkilati, həm də iştirakçıların fəallığı baxımından xüsusilə fərqlənir. Burada yalnız nəzəri çıxışlar deyil, real problemlərə yönəlmiş praktik həll yolları müzakirə olunur.

Diqqətimi çəkən digər məqam Bakının özündə müşahidə etdiyim inkişaf oldu. Şəhər həm müasir infrastruktura malikdir, həm də özünün tarixi kimliyini, şarmını qoruyub saxlayır. Bu balans urbanizasiya baxımından olduqca vacibdir.

***– Bəs nümayəndələrinizin Azərbaycanda qarşıladığı və diqqətlərini çəkən məqamlar hansılardır?***

– Çin nümayəndə heyəti Azərbaycanın sürətli inkişafını böyük maraqla izləyir. Xüsusilə Bakının müasir şəhərə çevrilməsi, yol infrastrukturu, yeni tikinti layihələri və şəhərin ümumi görünüşü nümayəndələrdə müsbət təəssürat yaradıb. Eyni zamanda, Azərbaycanın milli-mədəni irsini qoruması bizim üçün çox maraqlıdır. Bir çox ölkələrdə sürətli urbanizasiya zamanı tarixi memarlıq nümunələri və milli xüsusiyyətlər müəyyən qədər itirilir. Lakin Bakıda qədim və müasir memarlığın harmoniyasını görmək mümkündür.




İnsanların qonaqpərvərliyi xüsusi qeyd olunmalıdır. Azərbaycan xalqı çox mehriban və səmimidir. Biz bunu forumun ilk günündən hiss etdik. İnsan amili beynəlxalq münasibətlərdə vacib rol oynayır.

***– Azərbaycan – Çin münasibətləri yüksələn xətlə inkişaf edir. Sizcə, bu kimi beynəlxalq tədbirlər iki ölkə arasında əməkdaşlığın daha da genişlənməsinə hansı töhfələri verir?***

– Şübhəsiz ki, belə tədbirlər əməkdaşlığın genişlənməsi üçün vacib platformadır. Azərbaycan və Çin arasında münasibətlər son illər daha da inkişaf edir və bu əlaqələr müxtəlif istiqamətləri əhatə edir. Xüsusilə "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Azərbaycan Çinin strateji tərəfdaşlarından biridir. Azərbaycan coğrafi mövqeyinə görə Asiya ilə Avropa arasında mühüm körpü rolunu oynayır.

Urbanizasiya və şəhər planlaşdırılması sahəsində də əməkdaşlıq üçün geniş imkanlar var. Çin "ağıllı şəhər", rəqəmsal idarəetmə, "yaşıl enerji" və dayanıqlı inkişaf istiqamətində böyük təcrübəyə malikdir. Azərbaycan isə sürətlə inkişaf edən və yeni layihələr həyata keçirən ölkədir. Hesab edirəm ki, WUF13 çərçivəsində qurulan əlaqələr gələcəkdə yeni layihələrin əsasını qoya bilər. Ekspertlər arasında təcrübə mübadiləsi də hər iki ölkə üçün faydalıdır.

***– Bakının şəhərsalma modelini necə qiymətləndirirsiniz?***

– Bakı çox maraqlı şəhərdir. Burada müasirliklə qədimlik bir araya gəlir. Mən xüsusilə şəhərin dənizkənarı hissəsinin inkişafını yüksək qiymətləndirirəm. İctimai məkanların yaradılması və insanların rahatlığı üçün görülən işlər müasir şəhərsalma prinsiplərinə uyğundur. Şəhərin nəqliyyat sistemində də inkişaf müşahidə olunur. Urbanizasiya yalnız binaların tikilməsi deyil. Əsas məsələ insanların keyfiyyətli həyat şəraitinə sahib olmasıdır. Bakı bu istiqamətdə inkişaf edir və gələcəkdə regionun ən müasir şəhərlərindən birinə çevriləcəyinə əminəm.

***– Hazırda dünyada şəhərlərin qarşılaşdığı əsas problemlər hansılardır?***

– Bu gün şəhərlərin qarşısında duran ən böyük problemlərdən biri iqlim dəyişikliyidir. Şəhərlər enerji istehlakının əsas mərkəzləridir və ətraf mühitə təsir baxımından böyük məsuliyyət daşıyırlar. Buna görə də yaşıl şəhərlər konsepsiyası artıq seçim deyil, zərurətə çevrilib. Şəhərlər daha ekoloji, daha dayanıqlı və insanyönümlü olmalıdır. Digər problem sürətli urbanizasiyadır. Əhali şəhərlərə köçdükcə mənzil, nəqliyyat və sosial xidmətlər üzərində təzyiq artır. Bu problemlərin həllində texnologiya mühüm rol oynayacaq.

Ağıllı şəhər texnologiyaları gələcəyin əsas istiqamətlərindən biridir. Çin bu sahədə böyük təcrübəyə malikdir və biz bu təcrübəni digər ölkələrlə bölüşməyə hazırıq.

***– Urbanizasiya sahəsində konkret hansı təcrübəni bölüşməyi planlaşdırırsınız?***

– Çin son onilliklərdə sürətli urbanizasiya prosesi keçib. Biz ötən müddətdə həm uğurlar qazandıq, həm də müxtəlif problemlərlə qarşılaşdıq. Bu təcrübə beynəlxalq əməkdaşlıq baxımından faydalı ola bilər. Hazırda Çində "ağıllı şəhərlər", yaşıl nəqliyyat, rəqəmsal idarəetmə və ekoloji planlaşdırma sahəsində böyük layihələr həyata keçirilir. Lakin mənim üçün ən vacib prinsip insanyönümlü inkişafdır. Şəhər yalnız hündür binalar və yollar demək deyil. Şəhər insanların rahat, təhlükəsiz və xoşbəxt yaşadığı məkan olmalıdır.

İcazənizlə, qəzetinizin oxucuları ilə səfər təəssüratımı da bölüşərdim. Bu mənim Azərbaycana ilk səfərim olsa da, burada özümü çox rahat hiss etdim. İnsanlar çox mehriban və qonaqpərvərdir. Mən Azərbaycanın gələcəyinə böyük ümidlə baxıram. Bu ölkə həm strateji mövqeyi, həm də inkişaf potensialı ilə regionda mühüm rol oynayır. Mən Azərbaycan xalqına davamlı inkişaf, rifah və uğurlar arzulayıram.

Fikirlərimi Azərbaycan dilində öyrəndiyim bir ifadə ilə yekunlaşdırmaq istəyirəm: "Çox sağ ol!".

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# 3,4 milyard insan dəstəyə möhtacdır



**"Araşdırmaların nəticələrinə görə, hazırda 3,4 milyard insan adekvat məskunlaşma imkanlarından məhrumdur. Bu, qlobal səviyyədə olduqca ciddi problemdir".**

Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF 13) çərçivəsində BMT-nin Məskunlaşma Proqramının əsas nəşri olan "World Cities Report 2026" adlı hesabata həsr olunan dəyirmi masada proqramın bölmə rəhbəri Benedikt Arimah daha sonra deyib:

– Bir çox halda əhalinin gəlirinin 30 faizi mənzil xərclərinə sərf olunur və bəzi hallarda bu göstərici 50 faizə qədər yüksəlir. Bəzi ölkələrdə isə insanların gəlirlərinin 11 faizi yalnız mənzil xərclərinə yönəlir. Mərkəzi və Cənub-Şərqi Asiya regionlarında bu göstərici 56 faizə çatır. 2010-cu ildən etibarən milyonlarla insan bu problemlərlə üzləşir, bir çox insan isə qaçqın həyatı yaşayaraq məskunlaşma çətinlikləri ilə qarşılaşır.

Proqnozlara əsasən, 2040-cı ilə qədər təbii fəlakətlərin vuracağı iqtisadi zərər 280 milyard dollara çatacaq və bu vəziyyət insanların mənzil əldə etməsini daha da çətinləşdirəcək. Həmçinin 1,4 milyard insan qeyri-formal formal məskunlaşmaqdadır. Bütün bu rəqəmlər narahatlıq doğurur.

***XQ***

# Azərbaycanın diplomatiya və enerji təhlükəsizliyi modeli

## *Prezident İlham Əliyevin "Euronews"a müsahibəsində qlobal çağırışlara cavab*




**Prezident İlham Əliyev mayın 18-də "Euronews" telekanalına müsahibəsində bir sıra maraqlı fikirlər səsləndirdi ki, həmin fikirlərə əsasən, dünya üçün Azərbaycan formulu üzərində dayanmaq mümkündür. Elə bir formul ki, diplomatiyadan ustalıqla istifadəyə əsaslanır. Bu əsaslanma isə, öz növbəsində, ümummilli fayda və mənfəəti yüksək tutur, habelə, onu digər dövlətlərin maraqlarına uyğunlaşdırmaqla, balans və paritet formalaşdırır.**

Dövlətimizin başçısı bildirir ki, "diplomatiya olmadan biz öz ehtiyatlarımızı bazarlara çıxara bilməzdik. Çünki bunun üçün digər ölkələrin ərazisindən keçmək, qonşularla və qonşuların qonşuları ilə yaxşı münasibətlər qurmaq, çoxtərəfli əməkdaşlıq formatı formalaşdırmaq, istehsalçılar, tranzit ölkələr və istehlakçılar arasında qarşılıqlı uduşlu vəziyyət yaratmaq lazım idi ki, hər kəs qaydalara əməl etsin və gəlir qazansın".

Tam əminliklə deyə bilərik ki, Azərbaycan son onilliklərdə yalnız enerji ehtiyatlarına malik ölkə yox, həm də mürəkkəb geosiyasi şəraitdə çoxtərəfli əməkdaşlıq qurmağı bacaran etibarlı tərəfdaş kimi tanınır. Prezident İlham Əliyev tərəfindən səsləndirilən fikirlər bir daha onu göstərir ki, enerji siyasətində uğurun əsas şərtlərindən biri təkcə təbii resursların mövcudluğu deyil, həmçinin qarşılıqlı etimada əsaslanan münasibətlər və regional əməkdaşlıqdır. Söhbət güclü, proqmatik və rasional ruhlu diplomatiya sayəsində qurulmuş əməkdaşlıqdan gedir. Əlbəttə ki, bütün bu kimi fəaliyyətin çoxsaylı çətinliklərin aşılaraq həyata keçirildiyi məlumdur. Məşhur misaldakı kimi ifadə etsək, Moskva birdən-birə qurulmayıb.

Nəzərə alaq ki, müasir dünyada enerji ehtiyatlarının bazarlara çıxarılması artıq yalnız iqtisadi məsələ prizmasından uzaqdır. Bu proses, eyni zamanda, siyasi iradədən asılıdır. O iradədən ki, xalqın və dövlətin maraq və mənafelərini rəhbər tutsa da, dünyada sərvətindən və imkanlarından yararlanmağı bacarmayan, hətta müstəmləkə rəftarı ilə üzləşən xalqlar var. Yeri gəlmişkən, ölkəmizi də məhz bu yararsız ampluada təsəvvürə gətirən qüvvələrin mövcudluğundan xəbərdarıq və müstəqillik illərində belə mənfi meyillərə çox sinə gərmişik.

Azərbaycan öz enerji strategiyasını məhz bərabərtərəfli prinsiplər üzərində quraraq böyük uğurlar əldə edib. Uğur isə çoxvektorludur. Bu gün Xəzər hövzəsində yerləşən enerji resurslarının dünya bazarına çıxarılması üçün müxtəlif ölkələrin ərazilərindən keçən nəqliyyat və enerji marşrutları yaradılıb. Bu isə qonşu dövlətlərlə etibarlı münasibətlər və çoxtərəfli əməkdaşlıq mexanizmlərinin formalaşdırılmasını zəruriləşdirib. Müvafiq olaraq, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən enerji layihələri dərin məzmun daşımaqla, istehsalçı, tranzit və istehlakçı ölkələr arasında qarşılıqlı fayda prinsipi əsasında qurulub. Belə yanaşma regionda etimad mühitinin güclənməsinə, iqtisadi inteqrasiyanın genişlənməsinə imkan yaradıb. Bu baxımdan Azərbaycan diplomatiyasının mühüm qolunu təşkil edən enerji diplomatiyası beynəlxalq münasibətlərdə uğurlu əməkdaşlıq nümunəsi olaraq qiymətləndirilə bilər.

Prezident İlham Əliyevin vurğuladığı kimi, dünyada baş verən böhranlar və geosiyasi dəyişikliklər enerji siyasətinə ciddi təsir göstərir. Amma, necə deyərlər, bu günün sabahı da var: "Bu baxımdan düşünürəm ki, Azərbaycanın təcrübəsi faydalı ola bilər. Böhran həll olunduqdan sonra, - bu, tez və ya gec baş verəcək, - yəqin ki, yeni bir vəziyyət yaranacaq. Bir çox ölkələr enerji siyasətlərini və enerji ehtiyatlarının çatdırılması yollarını yenidən nəzərdən keçirəcəklər. Çox güman ki, Azərbaycanın coğrafiyası və mövcud resursları bu gün olduğundan daha çox tələb olunacaq", - deyən dövlətimizin başçısı əminlik yaradır.

Bəli, müxtəlif regionlarda yaranan münaqişələr dövlətləri yeni enerji mənbələri və alternativ marşrutlar axtarmağa vadar edir. Mövcud şəraitdə enerji təhlükəsizliyi məsələsi daha da aktuallaşır. Bir çox ölkələr öz enerji siyasətlərini yenidən nəzərdən keçirərək, daha etibarlı tərəfdaşlarla əməkdaşlığa üstünlük verirlər. Məhz belə bir dövrdə Azərbaycanın strateji əhəmiyyəti daha da artır.

Ölkəmizin strateji əhəmiyyəti həm də ona görə artır ki, rəsmi Bakının gördüyü işlər məqsədyönlüdür və konkret nəticələr var. Belə ki, dövlətimizin əlverişli coğrafi mövqeyi, zəngin enerji ehtiyatları ilə yanaşı, formalaşdırdığı nəqliyyat infrastrukturu Azərbaycanın regionun əsas enerji mərkəzlərindən birinə çevirib. Ölkəmiz həm Şərqlə Qərb, həm də Şimalla Cənub arasında mühüm bağlantı rolunu oynayır və bu amil beynəlxalq enerji bazarındakı mövqeyimizin daha da güclənməsini şərtləndirir.

Azərbaycanın təcrübəsi göstərir ki, uzunmüddətli uğurun əsasında dayanan qarşılıqlı hörmətə və ortaq maraqlara söykənən diplomatiya enerji layihələrinin davamlılığını yalnız iqtisadi gəlirlə deyil, tərəfdaş ölkələr arasında formalaşan etibar mühitlə şərtləndirir. Bu səbəbdən Azərbaycan modeli gələcəkdə bir çox ölkələr üçün nümunə ola bilər.

Sonda ümumiləşdirmə apararaq deyək ki, Prezident İlham Əliyevin "Euronews" telekanalına müsahibəsindəki fikirləri müasir dövrdə diplomatiyanın enerji siyasətində oynadığı mühüm rolu aydın şəkildə ifadə edir. Azərbaycanın həyata keçirdiyi enerji strategiyası isə onu göstərir ki, düzgün diplomatik xətt, regional əməkdaşlıq və qarşılıqlı fayda prinsipi həm iqtisadi inkişafın, həm də beynəlxalq sabitliyin əsas təminatlarından biridir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# "Qara şəhər"i "Ağ şəhər"ə çevirən çağdaş memarlıq

**Bakının tarixi təkcə köhnə binalardan və neft buruqlarından ibarət deyil. Bu şəhər həm də Azərbaycanın güclü iqtisadiyyatını və müasir inkişafını nümayiş etdirir. Bunun ən bariz nümunəsi keçmiş "Qara şəhər"dir. Bir vaxtlar tüstü və mazut qoxuyan bu çirkli sənaye zonası indi ekoloji cəhətdən təmiz müasir yaşayış sahəsinə – "Ağ şəhər"ə çevrilib.**



Yada salaq ki, XIX əsrin sonlarında Bakıda başlayan neft bumu şəhərin simasını tamamilə dəyişdi. Dünyanın diqqəti Xəzər sahilindəki bu şəhərə yönəldi və Bakı qısa müddətdə neft mərkəzinə çevrildi. Həmin dövrdə şəhərin şərq hissəsində yaranan "Qara şəhər" sənayenin ürəyi hesab olunurdu. Burada neft emalı zavodları fəaliyyət göstərir, hasil olunan neft Avropa və Rusiya bazarlarına daşınırdı.

Sürətli sənayeləşmənin ağır nəticələri də oldu. Zavodların qatı tüstüsü, torpağa hopan neft tullantıları və güclü çirklənmə zamanla bu ərazini yaşamaq üçün əlverişsiz məkana çevirdi. Elə "Qara şəhər" adı da məhz buradan yarandı. Sənaye inkişafı iqtisadi yüksəliş gətirsə də, ekoloji və sosial baxımdan çox ağır bir mənzərə formalaşdırmışdı. Sovet dövründə də "Qara şəhər" əsas sənaye mərkəzlərindən biri idi. Neft emalı və kimya sənayesinin genişlənməsi ekoloji vəziyyəti ağırlaşdırdı. Şəhərsalma qaydalarının düzgün tətbiq edilməməsi, nizamsız tikinti və yaşıllıq sahələrinin azlığı bu zonanı Bakının ən problemli yerinə çevirdi. Uzun illər "Qara şəhər" Bakının çirkli sənaye keçmişinin simvolu kimi qaldı. Müstəqillik dövründə isə Azərbaycanın inkişaf strategiyası insan həyatının keyfiyyətini və ekoloji təhlükəsizliyi ön plana çıxardı. Nəhəng infrastruktur layihələri dövlət siyasətinin ana xətti insanların daha rahat, təhlükəsiz və sağlam şəhər mühitində yaşamasını təmin etməyə yönəldi. Bu məqsədlə Prezident İlham Əliyevin 2006-cı ildə imzaladığı ekoloji vəziyyətin yaxşılaşdırılması üzrə kompleks plan çərçivəsində köhnə zavodların şəhərdən köçürülməsi və torpaqların təmizlənməsi prosesinə start verildi. Artıq 2010-cu ildən etibarən paytaxtın mərkəzində yerləşən sənaye ərazisinin dirçəldilməsi üçün "Bakı Ağ şəhər" layihəsinin icrasına başlanıldı.

...İndi bu müasir məkanda inşa edilən modern binalar, salınan geniş küçələr, piyada zonaları, yaşıl istirahət parkları və canlı ictimai sahələr şəhər sakinlərinə xidmət edir. İnsanların sərbəst hərəkətini təmin edən müasir nəqliyyat infrastrukturu, ekoloji standartlara söykənən tikinti texnologiyaları ilə birləşərək paytaxtda tamamilə sağlam mühit formalaşdırdı. Tarixi transformasiyanın ən mühüm və heyrətamiz məqamlarından biri isə onilliklər boyu zəhərli neft tullantıları ilə zədələnmiş torpaqların xüsusi elmi-texnoloji üsullarla təmizlənməsidir.

Bu unikal layihə sübut etdi ki, dövlətin əsas hədəfi, sadəcə, yeni binalar ucaltmaq deyil, insanlara daha keyfiyyətli və rahat həyat mühiti bəxş etməkdir. "Qara şəhər"in bu cür yenidən qurulması həm də ağır sənaye irsinin müasir memarlıq modelinə uğurlu inteqrasiyası idi.

Heç şübhəsiz, "Ağ şəhər" Bakının təkcə ekologiyasını deyil, həm də beynəlxalq simasını və nüfuzunu dəyişdirdi. Avropa memarlıq məktəbi ilə milli üslubun vəhdətini əks etdirən planlı şəhərsalma konsepsiyası bu ərazini regionun ən cəlbedici urbanistik layihələrindən birinə çevirdi. Burada formalaşan yeni biznes mərkəzləri, inkişaf edən xidmət sektoru və xarici investorların artan diqqəti paytaxtın iqtisadi dinamikasına böyük bir canlılıq qatıb.

Bu gün "Ağ şəhər" Bakının postindustrial, yəni sənaye sonrası inkişaf modelidir. Şübhəsiz ki, bu dəyişikliklər sadəcə memarlıq yenilənməsi deyil, o, həm də insan amilini hər şeydən uca tutan yeni şəhər mədəniyyətinin fəlsəfəsidir. Bu fəlsəfə, keçmişin sənaye çirkliliyini gələcəyin təmiz və dayanıqlı ekosisteminə çevirən Azərbaycanın yenilməz quruculuq əzminin təzahürüdür.

*

Azərbaycan Prezidenti İlham Əliyev də Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılış mərasimində çıxışı zamanı bu məsələyə xüsusi diqqət çəkərək bildirib: "Biz ətraf mühit sahəsində çox işləri görməli olduq. Bakı hələ 1846-cı ildə dünyada ilk dəfə neft hasil etmiş şəhər olub və sonra 180 il ərzində demək olar ki, bütün illərdə ətraf mühitin qorunmasına sıfır dərəcə riayət edilib. Beləliklə, Bakı çox çirklənib və Bakının "Qara şəhər", Bibiheybət və Böyükşor kimi bəzi hissələrini qeyd etsəm, ola bilsin, əcnəbilər üçün bu, bir məna kəsb etmir. Lakin əgər vaxt tapıb həmin yerləri ziyarət etsəniz, bəzi videomateriallara və ya fotoşəkillərə baxsanız, onların 20 il öncə və indi necə göründüyünü başa düşərsiniz və Bakıda ətraf mühitə uyğun məkanın yaradılması üçün görülmüş işləri təsəvvür edərsiniz. Çox çirklənmiş Qara şəhər əvəzinə bu gün şəhərsalmanın nümunəsi olan Ağ şəhəri görə bilərsiniz. Yeri gəlmişkən, o, çirkləndiyinə görə Qara şəhər adlanırdı. Bu, şəhər daxilində bir şəhər idi".



Habitat Peşəkarları Forumunun həmsədri, Dayanıqlı Urbanizasiya Konsorsiumunun təsisçilərindən biri Lans Braun qeyd edib ki, Bakının "Ağ şəhər" layihəsini xüsusi qeyd edərək, ağır sənaye zonalarının şəhər mərkəzindən uzaqlaşdırılmasını urbanizasiya baxımından mühüm addım kimi qiymətləndirib, Azərbaycanın mədəni infrastrukturu, ictimai məkanları və şəhərsalma yanaşmasından müsbət təəssürat aldığını bildirib.

Onu da qeyd edək ki, bu layihəyə paralel olaraq Bibiheybətin 500 hektardan çox çirklənmiş mədən sahəsi təmizləndi. Bakının bu giriş qapısı sənaye inkişafının, iqtisadi qüdrətinin rəmzi idisə, eyni zamanda, ekoloji baxımdan tamamilə iflic olmuş fəlakət zonası idi. Mövzu ilə bağlı **ekspert Gülxar Rzayeva** XQ-yə bildirdi ki, torpaq uzun illər ərzində neft quyularından sızan lay suları və ağır neft qalıqları ilə zəhərlənmişdi: "Torpaq qatı xüsusi aqrotexniki və mühəndislik üsulları ilə tamamilə təmizləndi, neft lilindən təmizlənmiş ərazilərə minlərlə ton münbit torpaq qatı daşındı. Çox keçmədən bu boz və cansız relyefin yerində Abşeronun quraq iqliminə dözümlü olan, həm şəhərin ekoloji havasını yeniləyən, həm də estetik görünüşünü dəyişən meşə zolaqları salındı. Yalnız Bibiheybətdə deyil, həm də ətraf dağ massivlərində böyük püstə və zeytun bağları salınaraq onilliklərlə yığılıb qalmış sənaye çirki tamamilə neytrallaşdırıldı".

Xarici mediada dərc olunan məqalələrdə də vurğulanırdı ki, neft hasilatının mərkəzi olan bir ərazinin qısa müddətdə dayanıqlı ekosistemə inteqrasiya edilməsi və orada beynəlxalq standartlara cavab verən yaşayış və istirahət infrastrukturunun qurulması qlobal miqyasda böyük şəhərlər üçün nümunəvi şəhərsalma modelidir.

Beləliklə, "Qara şəhər"dən "Ağ şəhər"ə, Bibiheybət və Böyükşor gölünə uzanan inkişaf yolu Azərbaycanın keçmişdən gələcəyə doğru keçdiyi mürəkkəb, amma uğurlu modernləşmə prosesinin parlaq nümunəsidir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Ermənistanda "sülh" və "savaş" qüvvələri üz-üzə

*(əvvəli 1-ci səhifədə)*

"Antisülh"çülərin Rusiyadan aldıqları dəstək özünü ən müxtəlif formalarda büruzə verməkdədir. "Bizim Ermənistanla münasibətlərimiz var və bu münasibətlər müttəfiqlər kimi yaxındır. Amma, eyni zamanda, onlar həm də mürəkkəbdir. Nəzərə almalıyıq ki, Qərb MDB-nin bəzi üzvlərinin timsalında Ermənistanı da özünə tabe etdirməyə, onun MDB və Avrasiya İqtisadi İttifaqındakı tərəfdaşları ilə qarşılıqlı faydalı iqtisadi, ticari və investisiya əlaqələrini kəsməyə çalışır". Bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirib. O, Rusiya–Ermənistan münasibətlərinin hazırkı durumunun Aİİ-nin qarşıdakı sammitində müzakirə mövzularından biri olacağını açıqlayıb. Sammitin mayın sonlarında Qazaxıstanda keçirilməsi planlaşdırılır və Ermənistan Baş naziri Nikol Paşinyan seçki kampaniyası ilə əlaqədar Aİİ-nin bu tədbirində iştirak edə bilməyəcəyini deyib.

Ermənistanın postsovet qurumlarına yanaşmada son hərəkətlərindən narazılıq notları Rusiya mediasında da eşidilməkdədir. Rusiyanın tanınmış Teleqram kanalı "Baza"nın yaydığı məlumata görə, Ermənistanın Aİİ-dən çıxması bu ölkəyə, ən azı, 5 milyard dollara başa gələcək. Bu məbləğin böyük qisminin Rusiyadan alınan təbii qazın bahalaşması ilə bağlı olacağı barədə xəbərdarlıq edilir. Xatırladaq ki, İrəvan üçün "mavi yanacağın" hazırkı qiyməti min kubmetr üçün 177,5 ABŞ dollarıdır. Amma Ermənistan Aİİ-dən çıxacağı təqdirdə, qiymət 550 dollara qədər qalxa bilər. Bu isə o deməkdir ki, İrəvanın illik əlavə ödənişi təxminən 800 milyon dollar təşkil edəcək. Yəni Lavrovun xəbərdarlığı elektron medianın "özəl hesablaması" ilə real landşafta salınır.

Üstəlik, o da bildirilir ki, Ermənistan 2024-cü ildə ölkəyə əhəmiyyətli gəlir gətirən sanksiyalara məruz qalan malların Rusiyaya təkrar ixracının dayandırılması, eləcə də Rusiyaya birbaşa ixracın potensialının azalması təhlükəsi səbəbindən milyard dollarlıq böyük itkilərlə üzləşə bilər. Şimallı analitiklər Ermənistan məhsulları üçün uyğun alternativ bazarların olmaması barədə də xəbərdarlıq edirlər.

***

Obrazlı desək, parlament seçkiləri yaxınlaşdıqca, Moskva Ermənistanın siyasi hakimiyyəti ətrafında həm çəmbərin daraldılması, həm də "qaz krantı" ilgəyinin sıxılması kimi təzyiq vasitələrini dövriyyəyə buracağı xəbərdarlıq-tezislərini səsləndirməkdədir. Güman edə bilərik ki, İrəvan üçün taleyüklü indiki məqamda Kremlin iqtisadi təsir rıçaqlarından faydalanmağa başlamasının səbəblərindən biri də mayın 5-də Nikol Paşinyanın parlament seçkilərində yenidən baş nazir olacağı təqdirdə, Ermənistanın Aİİ-dən vaz keçib Aİ-yə daxil olub-olmayacağı ilə bağlı suala birbaşa cavabdan yayınmasıdır.

Bu azmış kimi, İrəvanda Avropa Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının sədri Ursula Fon der Lyayenlə keçirdiyi brifinqdə Paşinyan Ermənistanın Aİ ilə əlaqələrində böyük potensialın olduğu və tərəflərin çox mühüm strateji layihələri birgə həyata keçirəcəklərinə əminliyini ifadə etmişdi. Bu davranış Moskvanın səbrini daşırmağa yetərli olub.

Rusiya Prezidenti Vladimir Putin, faktiki olaraq, Ermənistana Aİİ-dən "dinc yolla boşanmağı" təklif etmişdi. Bunun cavabında isə Nikol Paşinyan "dövlətlərlə beynəlxalq təşkilatlar arasında münasibətlər heç də nikah kimi deyil" demişdi. Hazırda Kremlin Paşinyan hökumətini bütün cəbhələrdə zəiflətməyə, daxildə reytinqini endirməyə çalışmasının səbəbi məlumdur – qarşıdan parlament seçkiləri gəlir. Amma Kremlin İrəvana təsir rıçaqları heç də 5-10 il əvvəlki effektdə deyil. Bəli, Rusiyanın Ermənistanla dərin iqtisadi əlaqələri var və İrəvan da Rusiyaya sanksiyaya məruz qalan malların tədarükçüsü kimi yaxşı faydalanır. İntəhası, bütün bu amillərin 7 iyun seçkisinin nəticələrinə ciddi təsir göstərəcəyini söyləməyə əsas vermir.

Aydın məsələdir ki, təbii qazın qiymətinin kəskin artırılması təhlükəsi Kremlin erməni elektoratına təsir mexanizminin bir elementidir. Bəli, Rusiya Paşinyanın üçüncü baş nazirlik dönəmində hər vəchlə Ermənistanda sabitliyi pozmağa cəhd edəcək. Amma proqnozlaşdırdığımız durumda rəsmi İrəvanın qonşuları – Azərbaycan və Türkiyə ilə münasibətləri bərpa etmək siyasəti bu ölkəyə uzunmüddətli iqtisadi dividendlər gətirə bilər. Hətta ola bilər ki, sülh sazişi imzalandıqdan sonra Türkiyə və Azərbaycan investisiyaları bu ölkəyə daxil olsun və hətta Bakı gələcəkdə Ermənistanın enerji ehtiyaclarını ödəsin. Bizim bu qənaətimizi bölüşən erməni analitik, İrəvan Mətbuat Klubunun fəxri prezidenti Boris Navasardyanın fikrincə, Moskva artıq qəbul etmək məcburiyyətindədir ki, Ermənistanın Rusiyadan uzaqlaşması davamlı və geridönməz prosesə çevrilir.



***

Mayın əvvəllərində "Avropa Siyasi Birliyi"nin İrəvanda keçirilən sammiti, yəni "Qərb günləri" Moskva üçün hərəkətə keçməyin katalizator rolunu oynadı. Doğrudur, az sonra spiker Alen Simonyan Ermənistanın iqtisadi sabitliyinin əsas amili kimi Aİİ üzvlüyünə üstünlük verdiyini və yaxın gələcəkdə bu statusa yenidən baxmaq niyyətində olmadığını açıqladı. Simonyanın bu açıqlaması Vladimir Putin və Sergey Lavrovun az qala təhdid kimi səslənən son bəyanatları, Rusiya baş nazirinin müavini Aleksey Overçukun və Rusiya Xarici İşlər Nazirliyi departamentinin rəhbəri Mixail Kaluqinin Ermənistan–Rusiya əməkdaşlığının bütün sahələrini və onun məhdudlaşdırılmasının fəsadlarını ətraflı izah edən müsahibələri, habelə rəsmi Moskvanın mediada yer alan müharibə ritorikalı xəbərləri fonunda səsləndi.

Kreml İrəvanın bu mövqeyindən razı qaldı. Hazırda, demək olar ki, hamı Ermənistanda parlament seçkilərinin nəticələrini bu ölkə ilə gələcək münasibətləri qurmaq üçün fürsət bildiyi halda, Rusiya hələ də konkret cavablar istəyir. Onun üçün "davamlı iqtisadi fayda müqabilində loyallığı qorumaq" düsturu gündəmdədir. Elə Aİİ-nin qarşıdan gələn sammitinin Ermənistan üçün narahatedici məsələlərin müzakirəsinə həsr olunacağı da diqqətlə izlənəcək.

Yerli ekspertlər hesab edirlər ki, Moskvanın çətin siyasi və iqtisadi vəziyyətdə olan Ermənistan hakimiyyətinə seçkilər öncəsi təzyiq göstərməklə, sadəcə, süni şəkildə öz payını və nüfuzunu yüksəltmək variantı da istisna deyil. Axı qarşıdakı sammitdə Ermənistan Aİİ-dən çıxarılarsa, xüsusən də onun qismən beynəlxalq təcridini nəzərə alsaq, Rusiyanın özü də xeyli itirəcək. Təbii ki, itkilərin miqyası simmetrik olmayacaq, amma dəqiq hesablamalar Ermənistanın istənilən anda hansı qurumdan qopmağa daha çox hazır olduğunu aşkar edə bilər. Bu da danılmaz həqiqətdir ki, öz suverenliyini möhkəmləndirmək üçün Ermənistanın iqtisadi, enerji və təhlükəsizlik sahələrində xarici qarşılıqlı əlaqələrini şaxələndirməkdən başqa yolu yoxdur.

Bu baxımdan, İrəvan ABŞ-a və yaxın qonşuları ilə münasibətlərinə praqmatik yanaşmalı, onları özünün prioritet tərəfdaşları kimi görməlidir. Eyni zamanda, bu tərəfdaşlığın potensialını reallaşdırmaq üçün TRIPP və onunla müqayisə olunan strateji əməkdaşlıq layihələrini də mütləq nəzərə almalıdır.

Dünyanın indiki qlobal qeyri-sabitlik şəraitində İrəvan üçün alternativlərin olmaması ciddi risklərlə doludur. Həm də bu səbəbdən ikitərəfli Ermənistan – Azərbaycan və Ermənistan – Türkiyə formatı regional layihələrin inkişafını əsaslandıran amildir. Ümid edək ki, bu format tezliklə real məzmun kəsb edəcək.

***İ.HƏSƏNQALA***
***XQ***

# Azərbaycanın yeni qlobal legitimlik strategiyası




**Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) Azərbaycanın dəyişən beynəlxalq sistemdə özünü necə təqdim etdiyini, hansı geosiyasi identiklik qurduğunu və hansı "yumşaq güc" strategiyasını həyata keçirdiyini göstərən mühüm siyasi hadisədir**

182 ölkədən 45 mindən artıq qeydiyyata alınmış iştirakçının Bakıya gəlməsi artıq forumun bir neçə mühüm siyasi reallığın indikatoru olduğunun təsdiqidir. Birincisi, urbanizasiya XXI əsrdə qlobal siyasətin əsas istiqamətlərindən birinə çevrilib; ikincisi, dövlətlərin beynəlxalq nüfuzu artıq yalnız hərbi və iqtisadi güclə ölçülmür; üçüncüsü isə Azərbaycan özünü regional dövlət statusundan daha genişmiqyaslı qlobal platforma aktoruna transformasiya etdirməyə çalışır.

Prezident İlham Əliyevin çıxışında səsləndirdiyi "COP29-dan sonra ikinci ən böyük beynəlxalq tədbir" ifadəsində mühüm strateji xətt görünür: Azərbaycan ardıcıl şəkildə qlobal problemlərin müzakirə olunduğu beynəlxalq mərkəz obrazı formalaşdırır. Əgər COP29 iqlim diplomatiyası kontekstində Azərbaycanın qlobal enerji keçidində rolunu ön plana çıxarırdısa, WUF13 urban transformasiya, dayanıqlı inkişaf və şəhər diplomatiyası üzərindən yeni siyasi legitimlik istehsal edir.

XXI əsrin beynəlxalq münasibətlər sistemində şəhərlər müasir dünya siyasətində şəhərlər dövlətlərin iqtisadi gücünün, texnoloji potensialının, siyasi legitimliyinin və hətta geosiyasi nüfuzunun əsas göstəricilərindən birinə çevrilib. Bakının son illər keçdiyi urban transformasiya prosesi də bu kontekstdə xüsusi diqqət çəkir. Müasir dövlətlərdə memarlıq və şəhər estetikasının geosiyasi kommunikasiya funksiyası getdikcə artır. Prezident İlham Əliyevin çıxışında Azərbaycanın "Şərqlə Qərbin qovuşduğu məkan" olması ilə bağlı vurğusu da məhz bu geosiyasi identiklik strategiyasının tərkib hissəsidir.

Bakının memarlıq siması bu narrativin vizual ifadəsinə çevrilib. İçərişəhərin tarixi irsi ilə futuristik göydələnlərin eyni şəhər məkanında paralel mövcudluğu Azərbaycanın dünyaya siyasi mesajını əks etdirir. Azərbaycan özünü bir tərəfdən qədim sivilizasiya və tarixi İpək Yolunun davamçısı, digər tərəfdən isə modern texnoloji və urban transformasiya modelinə açıq dövlət kimi təqdim etməyə çalışır. Belə bir yanaşma, əslində, postsovet məkanında yeni legitimlik modelinin formalaşması ilə də bağlıdır. Çünki müasir dövrdə dövlətlərin legitimliyi şəhərlərin yaşanabilirliyi, ictimai məkanların keyfiyyəti, ekoloji dayanıqlılıq və texnoloji imkanlarla ölçülür.

Son ilyarım ərzində Azərbaycanın ardıcıl şəkildə COP29 və Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası kimi iki nəhəng beynəlxalq tədbirə ev sahibliyi etməsi Bakının beynəlxalq sistemdə öz rolunu yenidən müəyyənləşdirməyə yönəlmiş uzunmüddətli xarici siyasət strategiyasının tərkib hissəsi kimi görünür. Burada diqqətçəkən əsas məqam ondan ibarətdir ki, Azərbaycan qlobal idarəetmə, iqlim siyasəti, urbanizasiya və dayanıqlı inkişaf kimi beynəlxalq gündəliyin əsas mövzularına daxil olmağa çalışır. Qloballaşmanın yeni mərhələsində beynəlxalq tədbirlərə ev sahibliyi etmək özü ayrıca siyasi kapital formasıdır. Olimpiya Oyunları, EXPO sərgiləri, COP sammitləri, Davos Forumu və digər beynəlxalq platformalar dövlətlər üçün yumşaq güc istehsalı və beynəlxalq legitimlik mexanizmləridir.



COP29 və WUF13 kimi forumların Azərbaycana verdiyi ən mühüm siyasi dividendlərdən biri beynəlxalq legitimliyin genişlənməsidir. Beynəlxalq legitimlik müasir siyasətdə beynəlxalq sistem tərəfindən "etibarlı və məsuliyyətli aktor" kimi qəbul olunmaq deməkdir. Minlərlə nümayəndənin, beynəlxalq təşkilatların, ekspertlərin və siyasi liderlərin Bakıya gəlməsi Azərbaycanın qlobal diplomatik xəritədə çəkisini artırır. Çünki müasir informasiya müharibələri dövründə dövlətlərin beynəlxalq reputasiyası ən azı iqtisadi və hərbi resurslar qədər vacibdir. Azərbaycan da, beynəlxalq tədbirlər vasitəsilə özünün "yumşaq geosiyasi brendini" formalaşdırmağa çalışır.

Digər mühüm məqam isə postneft imicinin qurulması ilə bağlıdır. Uzun illər Azərbaycan beynəlxalq iqtisadi sistemdə əsasən enerji ixracatçısı və karbohidrogen resurslarına əsaslanan iqtisadi model ilə tanınırdı. Lakin qlobal enerji keçidi, yaşıl transformasiya və dekarbonizasiya prosesləri neft dövlətlərini yeni inkişaf modeli axtarmağa məcbur edir. Azərbaycan da bu transformasiya mərhələsində özünü "yaşıl enerji", logistika, rəqəmsal iqtisadiyyat və urban innovasiya mərkəzi kimi təqdim etməyə çalışır.

Burada Azərbaycanın son illər formalaşdırmağa çalışdığı "multivektorlu geosiyasi platforma" modeli xüsusi diqqət çəkir. Bakı özünü fərqli geosiyasi mərkəzlər arasında əlaqələndirici məkan kimi təqdim etməyə çalışır. Prezident İlham Əliyevin müxtəlif beynəlxalq tədbirlərdəki çıxışlarında tez-tez vurğuladığı "Şərqlə Qərbin qovşağı" tezisi WUF13 kontekstində daha geniş geosiyasi məna qazanır.

Xüsusilə diqqətçəkən məqamlardan biri Azərbaycanın özünü "Qlobal Şimal" ilə "Qlobal Cənub" arasında körpü kimi təqdim etməsidir. Son illərdə beynəlxalq sistemdə bu iki blok arasında siyasi və iqtisadi ziddiyyətlərin artdığı müşahidə olunur. İnkişaf etməkdə olan dövlətlər qlobal idarəetmə institutlarında daha çox təmsilçilik tələb edir, Qərb isə beynəlxalq qaydaların qorunmasını prioritet kimi təqdim edir. Azərbaycan məhz bu boşluğu doldurmağa çalışan aktorlardan biri kimi görünür. Bakı həm Qərb institutları ilə əməkdaşlığı davam etdirir, həm də Türk dünyası, Qoşulmama Hərəkatı, İslam dünyası və inkişaf etməkdə olan ölkələrlə paralel münasibətlər qurur. Bununla paralel olaraq şəhərin rəqəmsal və urban modernizasiya prosesi də Bakının yeni siyasi imicinin formalaşmasında mühüm rol oynayır. Müasir dünyada şəhərlər texnoloji inkişafın vizual göstəricisinə çevrilib. "Ağıllı şəhər" layihələri, rəqəmsal xidmətlər, "yaşıl enerji" infrastrukturu və dayanıqlı urban idarəetmə modelləri artıq dövlətlərin inkişaf səviyyəsinin əsas indikatorları hesab olunur. Bakı son illərdə məhz bu istiqamətdə transformasiya olunan şəhər obrazı yaradır.

Digər mühüm amil təhlükəsizlik və siyasi sabitlik imicidir. Müasir beynəlxalq sistemdə qlobal tədbirlərin keçirilməsi üçün dövlətin təhlükəsizlik imkanları və daxili sabitliyi əsas şərtlərdən biridir. Regional qeyri-sabitlik fonunda Bakının iri beynəlxalq tədbirləri uğurla təşkil etməsi Azərbaycanın özünü "stabil platforma dövləti" kimi təqdim etməsinə imkan yaradır.

Bakının yeni geosiyasi identikliyində multikultural və transregional obraz da xüsusi yer tutur. Azərbaycan uzun illərdir özünü müxtəlif sivilizasiyaların, dinlərin və mədəniyyətlərin kəsişmə nöqtəsi kimi təqdim edir. WUF13 kimi platformalar isə bu narrativi beynəlxalq səviyyədə daha görünən edir. Şəhərin memarlıq strukturu, tarixi irsi və modern urban məkanı bir arada Azərbaycanın vermək istədiyi siyasi mesajı tamamlayır: Bakı həm Şərqə, həm də Qərbə aid olan, eyni zamanda, heç bir geosiyasi blokun sərt ideoloji çərçivəsinə tam daxil olmayan çevik platformadır.

Son olaraq qeyd edək ki, əslində, dəyişən dövlətin özünü necə təqdim etməsi, hansı siyasi identiklik qurması və beynəlxalq sistemdə hansı funksiyanı üzərinə götürmək istəməsi ilə bağlıdır. Azərbaycan regional təhlükəsizlik gündəliyindən qlobal transformasiya gündəliyinə inteqrasiya olunur; enerji mərkəzi obrazını beynəlxalq dialoq və qlobal kommunikasiya mərkəzi modeli ilə tamamlayır. WUF13 isə bu transformasiyanın ən görünən siyasi simvollarından birinə çevrilir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Müstəmləkəçilikdən qaynaqlanan kəskin mənzil böhranı

## *BTQ-nin beynəlxalq əməkdaşlıq və sosial ədalət müzakirələrinə töhfəsi*

**Mayın 19-da WUF13 çərçivəsində Bakı Təşəbbüs Qrupu (BTQ) tərəfindən "Müstəmləkə idarəçiliyinin yaratdığı ədalətsizliklər və mənzil böhranı" mövzusuna həsr olunmuş tədbir təşkil edildi.**

Tədbir çərçivəsində konfrans iştirakçıları müstəmləkə və neokolonial idarəetmənin sosial-iqtisadi təsirlərini, urbanizasiya proseslərində yaranan struktur bərabərsizlikləri, mənzil təminatı sahəsində mövcud çağırışları, eləcə də bu problemlərin yerli əhali üzərində yaratdığı təsirləri müzakirə ediblər. BTQ-nin icraçı direktoru çıxışı ilə tədbiri açıq elan etdi. Daha sonra BMT-nin Gənclər üzrə Məşvərət Şurasının üzvü Mariam Sayed Mohamed Abdelsalam dedi ki, bu müzakirələr mənim üçün çox önəmlidir: "Misirli olduğum barədə danışarkən ağlınıza 7 min illik müstəmləkəçilik tarixi, torpaqlarımızdan keçən saysız-hesabsız sivilizasiyalar gələ bilər. Onlar bizim ölkəmizdə öz izlərini qoyublar. Misirlilər olaraq biz bu izləri çox vaxt sevdiyimiz hər şeydən məhrum edən, dağıdıcı bir yükdən ümid yaradan bir gücə çevirməyi öyrənmişik, elə bir gücə ki, mövcud narrativi dəyişdirir və təmin edir".

Daha sonra tədbirə qatılan müxtəlif ölkələrdən olan nümayəndələr qəzetimizlə fikirlərini bölüşdülər.



**Qlobal Cənub Gənclər Platformasının Keniyadan olan üzvü Brayan Nqiqi Mutoni** XQ-yə eksklüziv açıqlamasında bildirdi ki, Ümumdünya Şəhərsalma Forumunun bu sessiyası artıq çox uğurlu görünür, çünki inklüzivdir: "Burada dünyanın müxtəlif ölkələrindən iştirakçıları görmək mümkündür: "Mən inanıram ki, baş tutan sessiyalar, müzakirələr və baş verəcək bütün proseslər vasitəsilə dünyada ciddi dəyişikliklər baş verəcək. Hətta şəhərsalma və urbanizasiya sahəsində hələ tam inkişaf etməmiş ölkələr də zamanla bu mərhələyə çatacaqlar. Belə tədbirlər bizə qlobal mənzərəni daha aydın görmək və gələcəyi necə formalaşdıra biləcəyimizi düşünmək imkanı yaradır".



**Sent-Vinsent və Qrenadin hökumət başçısının müşaviri Riçard Bayron-Koks** XQ-yə bildirdi ki, burada geniş spektrli fəaliyyətlər təşkil olunub və müxtəlif mövzular, şəhərlərdə uşaqlardan tutmuş qlobal gəncliyə qədər əhatə olunur: "Azərbaycan platforma vasitəsilə dünyanın müxtəlif regionlarından gələn insanları bir araya gətirən, dialoq və əməkdaşlığı təşviq edən mühüm körpü rolunu oynayır. Sözügedən qlobal müzakirələr üçün inklüziv və açıq bir məkan yaradır. Burada afrikalılar da, asiyalılar da, mənim kimi Latın Amerikası və Karib hövzəsindən gələn nümayəndələr də iştirak edirlər. Azərbaycanın beynəlxalq platforma rolu bununla öz təsdiqini tapmış olur".



**Beynəlxalq Reparasiyalar Hərəkatının prezidenti Jean-Pierre Jose Martin** də bizimlə fikirlərini bölüşərək vurğuladı ki, bu gün söhbət xalqların mənzil təminatından gedir: "Xalqları mənzillə təmin etmək üçün mütləq şəkildə torpağa çıxış olmalıdır. Əgər bir xalq müstəmləkə vəziyyətindədirsə, torpaq ona məxsus olmur. Torpağa sahib olmadan isə mənzil təminatını necə həyata keçirmək olar? Bu, birinci fundamental məsələdir. İkinci məsələ isə ondan ibarətdir ki, insanlara mənzil təmin etməkdən danışıldığı halda, eyni zamanda, onların zəruri ehtiyac duyduğu içməli suya çıxışının olmaması necə izah oluna bilər? Belə olan halda, sosial ədalət və insan hüquqları baxımından ciddi ziddiyyət yaranır. Həmin məsələlər Fransanın son müstəmləkə əraziləri ilə yanaşı, eyni zamanda, bir çox regionlara, o cümlədən şəhərsalma və inkişaf siyasətində ədalət və bərabərlik axtarışında olan ölkələrə məxsus, daha geniş qlobal müzakirənin tərkib hissəsidir. Azərbaycan kimi dövlətlər bu gün davamlı şəhər inkişafı və sosial infrastrukturun ədalətli bölgüsü istiqamətində mühüm təcrübələr formalaşdırır".

Sonda bir daha qeyd edək ki, müstəmləkəçilikdən qaynaqlanan sosial və iqtisadi bərabərsizliklərin aradan qaldırılması, xüsusilə mənzil təminatı, torpaq hüquqları və əsas resurslara çıxış məsələlərinin həlli qlobal əməkdaşlıq tələb edir. WUF13 kimi beynəlxalq platformalar isə müxtəlif regionlardan olan nümayəndələri bir araya gətirərək inklüziv dialoq və davamlı inkişaf naminə ortaq yanaşmaların formalaşdırılmasına mühüm töhfə verir. Azərbaycanın belə qlobal müzakirələrə ev sahibliyi etməsi ölkənin beynəlxalq əməkdaşlıq və sosial ədalət gündəliyində artan rolunu bir daha nümayiş etdirir.

*Nəzrin ELDARQIZI*
*XQ*

# WUF13 günlərində Bakı dünyanın şəhərsalma paytaxtına çevrilib

## *Liderlərin və qonaqların foruma hazırlıq və müzakirələr barədə təəssüratı yüksəkdir*

**Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumu – WUF13 təkcə urbanizasiya, dayanıqlı şəhərlər və gələcəyin yaşayış modelləri haqqında müzakirələrin aparıldığı beynəlxalq platforma kimi deyil, həm də Azərbaycanın təşkilatçılıq imkanlarının, müasir inkişaf konsepsiyasının və qlobal əməkdaşlığa açıq yanaşmasının nümayişi kimi yaddaşlara həkk olunur.**

Forumun açılış mərasimində çıxış edən dövlət və hökumət başçıları, nümayəndə heyətlərinin və beynəlxalq təşkilatların rəhbərləri, şəhərsalma üzrə ekspertlər sessiyanın təşkilinin səviyyəsini xüsusi vurğulayır, Bakı haqqında təəssüratlarının yüksək olduğunu bildirir, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın keçdiyi inkişaf yolunu nümunə kimi dəyərləndirir və ölkəmizin şəhərsalma sahəsində əldə etdiyi uğurlar barədə müsbət fikirlər səsləndirirlər.



**BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) Assambleyasının prezidenti Nqa Kor Minq** açılış mərasimindəki çıxışında, ilk növbədə, Azərbaycan dövlətinə və xalqına təşəkkürünü ifadə etdi. O, Bakını "qədim İpək Yolunun üzərində və Xəzər dənizinin sahilində yerləşən şəhər" kimi xarakterizə edərək forum iştirakçılarına göstərilən səmimi qonaqpərvərliyə və tədbirin keçirilməsinə görə minnətdarlığını bildirdi.

Nqa Kor Minq xüsusi vurğuladı ki, Bakı WUF13 günlərində dünyanın paytaxtına çevrilir. Bu fikir forumun miqyasını və Azərbaycanın qlobal şəhərsalma gündəliyində oynadığı rolu açıq şəkildə ifadə edirdi. Çıxış boyunca Azərbaycanın ev sahibi kimi rolu bir neçə dəfə xüsusi vurğulandı. O, Azərbaycan xalqına məxsus "Hər kəsin öz evi öz qibləsidir" ifadəsini xatırladaraq bunun şəhərsalma fəlsəfəsinin mərkəzində dayandığını bildirdi.



**UN-Habitatın icraçı direktoru Anaklaudia Rossbaxın** çıxışı həm forumun beynəlxalq əhəmiyyətini, həm də Azərbaycanın ev sahibi kimi rolunu ön plana çıxaran əsas çıxışlardan biri oldu. Onun mesajlarında Bakının qlobal şəhərsalma gündəliyinin mərkəzinə çevrilməsi, Azərbaycanın təşkilatçılıq imkanları və forumun yaratdığı beynəlxalq həmrəylik xüsusi vurğulandı. İcraçı direktor forumun təşkilati səviyyəsinə ayrıca toxunaraq Azərbaycana təşəkkürünü bildirdi. O vurğuladı ki, son günlər ölkənin bəzi bölgələrində müşahidə olunan əlverişsiz hava şəraitinə baxmayaraq, Bakıda forum yüksək səviyyədə təşkil olunub və burada komanda işi, sürətli reaksiya və ortaq məqsəd hissi nümayiş etdirilib. Onun sözlərinə görə, iştirakçıların bu gözəl məkanda bir araya gətirilməsi Azərbaycanın peşəkar təşkilatçılıq imkanlarının göstəricisidir. Rossbax xüsusi olaraq qeyd etdi ki, WUF13 indiyədək keçirilən forumlar arasında ən geniş və müxtəlif beynəlxalq auditoriyanı bir araya gətirib.



Rəsmi hissədən sonra WUF tarixində ilk dəfə olaraq keçirilən Liderlər Sammitində çıxış edən **Özbəkistan Prezidenti Şavkat Mirziyoyev** deyib: "Bugünkü konfransın Xəzərin incisi olan gözəl Bakı şəhərində qüsursuz təşkilinə və bizə göstərilən səmimi qonaqpərvərliyə görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Onun rəhbərliyi ilə Azərbaycan, xüsusilə Qarabağ sürətli və genişmiqyaslı inkişaf yolu keçir. Qısa müddət ərzində azad edilmiş ərazilərdə bütöv şəhərlər bərpa olunub, yeni yaşayış kompleksləri və müasir infrastruktur obyektləri inşa edilib".

**Serbiya Prezidenti Aleksandar Vuçiç** bildirib: "Möhtəşəm qonaqpərvərliyə, Bakıda gözəl qəbula və unudulmaz bir tədbirə bizi qəbul etdiyinizə görə Prezident İlham Əliyevə, mənim əziz dostuma təşəkkür edirəm. Mən hər dəfə Bakıya gələndə böyük dəyişikliklərin və tərəqqinin, Azərbaycan xalqının, Prezident İlham Əliyevin birlikdə öz ölkələri üçün etdiklərinin şahidi oluram. Sizin əzminiz, qətiyyətiniz və Prezident İlham Əliyevin xalqına bağlılığı bu inanılmaz tərəqqinin təminatçısıdır". O vurğulayıb ki, bu, həqiqətən Ümumdünya Şəhərsalma Forumunun tam potensialının reallaşmasına xidmət edir: "Xəzər dənizinin sahilində yerləşən bu mükəmməl ölkənin məhz urbanizasiya, şəhərsalma problemlərinin həllinə yönələn foruma ev sahibliyi etməyi də təsadüfi deyil".

**Qırğız Respublikasının Prezidenti Sadır Japarov** WUF13-ü urbanizasiya, dayanıqlı inkişaf, iqlim dəyişikliyi və mənzil əlçatanlığı məsələlərinin müzakirəsi üçün unikal platforma adlandırıb: "Bu mühüm forumun ən yüksək səviyyədə təşkilinə, həmçinin səmimi qonaqpərvərliyinə görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına dərin minnətdarlığımı bildirmək istəyirəm".

**Gürcüstanın Baş naziri İrakli Kobaxidze** "mənəvi, isti qonaqpərvərliyinə və olduqca önəmli qlobal tədbirlərdən biri olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının yüksək səviyyədə təşkilinə görə" Azərbaycana təşəkkür edib. Qeyd edib çünki bu, qlobal çağırışdır və iqlim dəyişikliyi, mənzillə bağlı olan problemlər, həmçinin sosial vəhdət məsələlərini müzakirə etmək imkanı yaradır.

Məlumatda qeyd edilirdi ki, Günnütü nəzarətdə saxlamağa imkan verən, dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti isə İrəvan–Yexeqnadzor–Gorus–Laçın–Xankəndi avtomobil yoluna ordumuza nəzarət etməyə imkan verməsidir. “Ərazinin etibarlı müdafiəsi və təminat məqsədilə 50 km yeni yol çəkilib, 50 km-dən uzun yararsız yollar isə bərpa edilib. Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub”, – deyə Əlahiddə Ümumqoşun Ordu bildirirdi.

Əldə edilən uğur böyük Zəfərə təşnə olan xalqımızda böyük ruh yüksəkliyinə səbəb oldu. İnsanlar uzun illərdən sonra ilk dəfə olaraq Naxçıvan istiqamətində belə ciddi irəliləyişin şahidi olurdular. Bununla belə, haqlı sual yaranırdı; əməliyyat barədə məlumat niyə gec açıqlanıb? Əlbəttə, əlahəzrət zaman bütün məsələləri yoluna qoyduğu, bütün suallara vaxtı çatanda cavab verdiyi kimi bu nigaranlığı da vaxt yetişəndə aradan qaldırdı. Nəyi, necə, nə vaxt etmək lazım olduğunu yaxşı bilən Prezident, Ali Baş Komandan İlham Əliyev bununla bağlı fikirlərini 2021-ci il mayın 10-da muxtar respublikaya səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində açıqladı. Həmin müsahibədən iqtibas gətirmək, zənnimizcə, yerinə düşər: “Əlbəttə ki, Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun döyüş qabiliyyəti də yerindədir və uğurlu Günnüt əməliyyatı – üç il bundan əvvəl keçirilmiş əməliyyat bunun bariz nümunəsidir. O əməliyyat Ermənistanda hakimiyyət dəyişikliyinə təsadüf etdi, ona görə, hakimiyyətə gəlmiş yeni iqtidar bunu, bir növ, ört-basdır etməyə çalışdı. Biz də heç üstünü vurmadıq. Çünki bizə hansısa təbliğat yox, real iş lazımdır. Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. Bu yüksəkliklər imkan verdi ki, biz artıq strateji kommunikasiyalara tam nəzarət edirik və Ermənistandan Qarabağa gedən yola da nəzarət edirik. İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi. Qarşı tərəf bilir ki, bizim nəzarətimizdə olan bu kommunikasiyalar istənilən vaxt kəsilə bilər və əlbəttə, öz addımlarını buna uyğun atmalıdır.

Günnüt əməliyyatı, biz də dediyim kimi, bunun üstünü vurmaq istəmədik. Amma ondan sonra Ermənistanın artıq devrilmiş hakimiyyətinin jurnalist nümayəndələri gedib bizim yeni postlarımızı çəkib, bunu internetdə qoyubdur, paylaşıbdır və ondan sonra Ermənistanda hay-küy qalxdı. Onda mən dedim ki, daha biz də niyə gizlətməliyik? Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə tapşırıq verdim ki, siz də məlumat verin, çəkiliş qrupu göndərin və çəkiliş qrupu getdi, həmin o yüksəklikləri gördü. Yəni, Günnüt əməliyyatı Naxçıvan Ordusunun potensialını göstərdi, Azərbaycan Ordusunun potensialını göstərdi”.



### Azərbaycan Ordusunun Zəfər sorağı

Günnüt əməliyyatı bir daha təsdiqlədi ki, Azərbaycan Ordusu əvvəlki illərlə müqayisədə tamamilə fərqli səviyyəyə yüksəlib. Əməliyyat zamanı koordinasiya, sürət və dəqiqlik xüsusi diqqət çəkirdi. Müasir dövrdə hərbi uğur yalnız silah, yaxud şəxsi heyətin say tərkibindən asılı deyil. Hazırlıq, çeviklik, informasiya üstünlüyü və düzgün idarəetmə çox vacib rol oynayır. Günnüt əməliyyatında bu amillərin bir çoxu açıq şəkildə hiss olunurdu. Əməliyyat həm də ordumuzda peşəkar kadr potensialının formalaşdığını nümayiş etdirdi. Çətin dağ şəraitində hərəkət etmək xüsusi təcrübə tələb edir. Azərbaycan hərbçiləri həmin şəraitdə uğurla fəaliyyət göstərə bildilər. Bundan əlavə, texniki imkanların genişlənməsi də nəticəyə təsir edən əsas amillərdən idi. Müasir müşahidə vasitələri, rabitə sistemləri və koordinasiya imkanları əməliyyatın effektivliyini artırmışdı.

### Psixoloji təsir

Günnüt əməliyyatının yaratdığı təsir yalnız hərbi sahə ilə məhdudlaşmırdı. Hadisə, qeyd etdiyimiz kimi, cəmiyyətdə ciddi marağa səbəb oldu və böyük ruh yüksəkliyi yaratdı. Mövzu sosial şəbəkələrdə və mediada geniş müzakirə edildi. İnsanlar ordumuzun uğurunu qürur hissi ilə qarşıladılar. Ordunun güclənməsi cəmiyyət daxilində özünəinam hissini yüksəldən amillərdən birinə çevrildi. Xalqda güvən hissi möhkəmləndi. Eyni zamanda, vətəndaşlar Azərbaycan Ordusunun imkanlarını daha yaxından gördülər. Əməliyyat həm də gənclərin orduya münasibətinə müsbət təsir göstərdi. Hərbi xidmətə maraq artdı.

Ümumiyyətlə, işğal faktoru uzun illər ərzində cəmiyyətdə psixoloji travmaya çevrilmiş, ağır yük yaratmışdı. Bu səbəbdən hər bir uğurlu addım insanlar tərəfindən xüsusi həssaslıqla qarşılanırdı. Günnüt əməliyyatı da həmin uğurlardan biri kimi yadda qaldı. Bu hadisə ordumuzun şəxsi heyəti üçün də mühüm motivasiya mənbəyi oldu. Çünki hər zaman ən böyük ruh yüksəkliyini real nəticə yaradır.

### Aprel döyüşləri ilə varislik, regionda dəyişən vəziyyət

Günnüt əməliyyatından sonra bölgədə vəziyyət müəyyən mənada dəyişdi. Ordumuzun daha əlverişli mövqelərə sahib olması Ermənistan tərəfinin əvvəlki müşahidə imkanlarını zəiflətdi. Hərbi baxımdan belə dəyişikliklər uzunmüddətli təsir göstərə bilir. Bəzən bir yüksəklik illərlə davam edən üstünlük yaradır. Günnüt istiqamətində əldə olunan nəticələr də məhz belə qiymətləndirilirdi. Hərbi ekspertlər hesab edirdilər ki, bu əməliyyat gələcək hadisələr üçün də mühüm siqnal idi. Çünki Azərbaycan Ordusu ilk dəfə deyildi ki, belə təşəbbüs göstərirdi. 2016-cı ilin Aprel döyüşlərindən sonra Günnüt əməliyyatı ordunun artan imkanlarının növbəti göstəricisi kimi qəbul olunurdu. Ümumiyyətlə, bir çox hərbi müşahidəçi Günnüt əməliyyatını Aprel döyüşlərinin davamı kimi qiymətləndirir. Çünki hər iki hadisədə ortaq cəhətlər var. Ən vacib məqam Azərbaycan Ordusunun təşəbbüsü ələ alması idi. Həm Aprel döyüşləri, həm də Günnüt əməliyyatı ordumuzun artıq yeni mərhələyə qədəm qoyduğundan xəbər verirdi. Bu hadisələr ordumuzun döyüş hazırlığının yüksəldiyini ortaya qoyurdu. Eyni zamanda, cəmiyyət daxilində inam hissini artırırdı. İnsanlar görürdülər ki, illər ərzində aparılan ordu quruculuğu, hazırlıq işləri öz nəticəsini verməyə başlayıb.

### Vətən müharibəsinə gedən yol

Tarixə nəzər saldıqda, görünür ki, Günnüt əməliyyatı sonrakı hadisələr üçün mühüm mərhələlərdən biri idi. 2020-ci ildə başlayan Vətən müharibəsində Azərbaycan Ordusu misilsiz uğurlar əldə edərək torpaqlarımızı işğaldan azad etdi. Hesab edilir ki, Günnüt əməliyyatı Vətən müharibəsindən əvvəl ordumuzun imkanlarını yoxlayan vacib addımlardan biri idi. Burada həm taktiki hazırlıq, həm koordinasiya, həm də sürətli qərarvermə qabiliyyəti uğurla sınaqdan çıxmışdı. Vətən müharibəsi zamanı dağlıq ərazilərdə aparılan əməliyyatlar göstərdi ki, Azərbaycan Ordusu bu sahədə ciddi təcrübə qazanıb. Günnüt əməliyyatı həmin təcrübənin formalaşmasında mühüm rol oynayan hadisələrdən biri sayılır.

### Əməliyyatın əsas nəticələri

Əməliyyat nəticəsində ordumuz bir sıra vacib üstünlüklər əldə etdi. İlk növbədə, girişdə vurğuladığımız kimi, strateji yüksəkliklər nəzarətə götürüldü. Bu yüksəkliklər müşahidə imkanlarını genişləndirdi və müdafiə xəttini daha əlverişli vəziyyətə gətirdi. İkinci mühüm nəticə təhlükəsizlik imkanlarının artması idi. Yeni mövqelər vasitəsilə bölgədə risklərə daha operativ reaksiya vermək mümkün oldu. Üçüncü vacib məqam psixoloji üstünlük idi. Əməliyyat göstərdi ki, Azərbaycan Ordusu istənilən vaxt vəziyyəti dəyişə biləcək potensiala malikdir. Bu uğur eyni zamanda ordunun peşəkar inkişafının nəticəsi idi. İllərlə aparılan hazırlıq, texniki yenilənmə və şəxsi heyətin təcrübəsi öz təsirini göstərirdi.

Günnüt əməliyyatı müasir hərb tariximizdə xüsusi yer tutan şərəfli hadisələrdəndir. Onu da bildirək ki, əməliyyat qısa müddətdə və minimal itki ilə nəticə vermişdi. Əməliyyat zamanı yalnız bir hərbi qulluqçu – Əlahiddə Ümumqoşun Ordunun əsgəri Adil Tatarov şəhidlik zirvəsinə ucalmışdı. Günnüt əməliyyatı göstərdi ki, Azərbaycan Ordusu sürətli qərar qəbul etmək, çətin relyef şəraitində fəaliyyət göstərmək və qısa müddətdə nəticə əldə etmək imkanına malikdir. Bu gün Günnüt əməliyyatı haqqında danışarkən yalnız bir hərbi əməliyyatdan söhbət getmir. Burada həm hazırlıq, həm iradə, həm də düzgün planlaşdırmanın nəticəsi görünür. Azərbaycan Ordusu həmin əməliyyatla sübut etdi ki, strateji baxımdan vacib addımlar atmağa və vəziyyəti dəyişməyə qadirdir. Günnüt əməliyyatı regionda dəyişən hərbi balansın, artan peşəkarlığın və ordumuzun güclənən imkanlarının simvollarından biri kimi tarixdə qalır.

*XQ-nin Analitik Mərkəzi*

**Azərbaycanın müasir inkişaf tarixində xüsusi yer tutan şəhərsalma və memarlıq siyasətinin uğurla həyata keçirilməsi nəticəsində ölkəmiz təkcə regionun deyil, dünyanın diqqət mərkəzində olan urbanizasiya nümunələrindən birinə çevrilib. Tarixi irsin qorunması ilə müasir memarlığın uzlaşdırılması, dayanıqlı şəhər modellərinin qurulması, "ağıllı" şəhər və "ağıllı" kənd konsepsiyalarının tətbiqi, eləcə də işğaldan azad edilən ərazilərdə həyata keçirilən genişmiqyaslı quruculuq işləri Azərbaycanın şəhərsalma siyasətində prioritet istiqamət kimi daim diqqət mərkəzində saxlanılıb.**

# Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə çağdaş şəhərsalmanın baş memarıdır

## *Milli irs, müasir yanaşmalar və qlobal məskunlaşma strategiyasına töhfələr*





Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik xətti bu inkişafın təməl prinsipinə çevrilib. Başqa sözlə, dahi şəxsiyyətin ölkəyə rəhbərliyi dövründə şəhərsalma və memarlıq sahəsində sistemli yanaşmanın əsasları formalaşdırılıb, milli memarlıq ənənələrinin qorunması və inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılıb, respublikada şəhərlərin planlı inkişafı, yaşayış massivlərinin yaradılması, infrastruktur layihələrinin həyata keçirilməsi, milli memarlıq ənənələrinin qorunması istiqamətlərində mühüm qərarlar qəbul olunub.

Ulu öndərin respublikamıza ilk rəhbərliyi dövründə Azərbaycanın şəhərsalma sistemlərinin qorunması və müasirləşdirilməsi ilə bağlı zəruri layihələr gerçəkləşdirilib. Şəhərlərdə memarlıq abidələrinin bərpası üzrə planlı iş aparılıb, yaşayış və inzibati binaların tikintisi geniş vüsət alıb, şəhərsalma və memarlıq fəaliyyətinin davamlılığını təmin edən əsaslı layihələr reallaşdırılıb. Xüsusilə paytaxt Bakı ilə yanaşı, regionlarda da yeni sənaye və yaşayış məntəqələrinin salınması, sosial obyektlərin inşası urbanizasiya prosesində yeni dinamika ilə fərqlənib.

Eyni zamanda, bu illərdə milli memarlıq irsinə münasibət də dəyişilib. Tarixi abidələrin qorunması dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilib. Azərbaycanın qədim şəhərlərinin memarlıq üslubunun saxlanılması ilə yanaşı, müasir tikinti texnologiyalarının tətbiqi ilə şəhərsalma sahəsində yeni inkişaf mərhələsinin əsası qoyulub.

Azərbaycan müstəqillik qazandıqdan sonra ölkənin qarşısında duran əsas vəzifələrdən biri dağıdılmış iqtisadiyyatın bərpası və müasir dövlət quruculuğunun gerçəkləşdirilməsi olub. Bu mərhələdə də Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətdə şəhərsalma və memarlıq xüsusi diqqətdə saxlanılıb, tarixi-mədəniyyət abidələrinin bərpası, milli memarlıq məktəbinin inkişafı, şəhərlərin sosial-iqtisadi baxımdan yenilənməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib.

Qürurverici haldır ki, Ümummilli liderin müəyyənləşdirdiyi inkişaf xətti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə respublikanın şəhərsalma və memarlıq sahəsində region üçün nümunə sayılan mühüm göstəricilər əldə olunur. Son illərdə isə genişmiqyaslı infrastruktur və abadlıq layihələrinin uğurlu icrası ilə Azərbaycanın urbanizasiya siyasəti müasir çağırışlara uyğun həyata keçirilir. Xüsusilə paytaxt Bakının simasının dəyişməsi, şəhərin müasir memarlıq nümunələri ilə zənginləşdirilməsi, ekoloji və sosial amillərin nəzərə alınması ilə urbanizasiya prosesində yeni baxış formalaşır.

Dövlət başçısı İlham Əliyev prezidentlik fəaliyyəti dövründə ölkədə həyata keçirilən abadlıq-quruculuq layihələrinin icrası, yeni parkların və istirahət mərkəzlərinin salınması, qədim memarlıq abidələrinin bərpası zamanı mədəni irsin qorunmasını və gələcək nəsillərə çatdırılmasını dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi daim diqqətdə saxlayıb. Çoxəsrlik yol keçən və özünəməxsus dəst-xətti ilə hər zaman seçilən Azərbaycan memarlığının xalqımızın mədəniyyət salnaməsində layiqli yer tutduğunu çıxışlarında xüsusi vurğulayan ölkə rəhbəri sənətkarlarımızın klassik Şərq ənənə və prinsiplərinə əsaslanaraq yaratdıqları misilsiz memarlıq incilərinin dünya mədəni irsinin ayrılmaz hissəsi olaraq hər birimiz üçün qürur mənbəyinə çevrildiyini dəfələrlə bildirib.

Elə bunun nəticəsidir ki, dövrün arxitektura üslublarını və milli memarlığın böyük təcrübəsini özündə birləşdirən uğurlu layihələrin icrası nəticəsində ötən müddət ərzində Azərbaycanda şəhərsalma sənəti yüksək mənəvi-estetik təsir gücünə malik qiymətli nümunələrlə diqqət çəkib. Dövlət müstəqilliyinin bərpasından sonra ölkəmizdə memarlıq və şəhər quruculuğu sahəsindəki yeni təzahürlər modern üslublu tikililərin və monumental komplekslərin dizayn həllində özünü qabarıq büruzə verib.

Prezident İlham Əliyevin yeniliyə və təkmilləşməyə marağı həyata keçirilən hər bir layihədə öz əksini tapır. Dünyanın aparıcı dövlətlərinin və nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında Bakının ən gözəl və yaşamaq üçün əlverişli şəhərlər sırasında yer alması ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin uğurlu nəticəsi kimi diqqət çəkir. Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi Zəfər və suverenliyimizin tam bərpası isə respublikamızda şəhərsalma siyasətinin yeni mərhələsini formalaşdırır. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycanın təkmil şəhərsalma təcrübəsinin real nümunəsi olaraq dünyada böyük maraq doğurur.

Qarabağ və Şərqi Zəngəzurun 30 illik işğalı dövründə tamamilə dağıdılan şəhər və kəndlərimiz bu gün Baş plan əsasında yenidən qurulur. Ağdam, Füzuli, Zəngilan, Şuşa, Laçın, Cəbrayıl və digər yaşayış məntəqələrinin inşası müasir urbanizasiya prinsiplərinə uyğun şəkildə həyata keçirilir. Xüsusilə "ağıllı" şəhər və "ağıllı" kənd konsepsiyalarının tətbiqi ilə Azərbaycanın innovativ şəhərsalma siyasəti diqqət mərkəzində saxlanılır. Bu konsepsiya çərçivəsində enerji səmərəliliyi, rəqəmsal idarəetmə, alternativ enerji mənbələrindən istifadə, ekoloji tarazlığın qorunması və müasir sosial infrastrukturun yaradılması kimi məsələlərə əsas prioritetlər kimi yanaşılır.

Adları çəkilən iqtisadi rayonlarda aparılan genişmiqyaslı quruculuq layihələri Azərbaycan dövlətinin şəhərsalma sahəsində strateji baxışını və güclü icra imkanlarını nümayiş etdirir. Bu proses şəhərlərin bərpası ilə bərabər, həm də yeni həyat fəlsəfəsinin formalaşdırılmasından xəbər verir. Vətən savaşından ötən illər ərzində doğma yurd-yuvasından didərgin düşən 85 min insanın torpaqlarına qovuşması, bu ərazilərdə 307 meqavatlıq hidroenerji gücün istifadəyə verilməsi, elektrik şəbəkəsinin ölkənin ümumi enerji sistemi ilə inteqrasiyasının gerçəkləşdirilməsi və ümumi uzunluğu 75 kilometr olan tunellərin 70 kilometrinin artıq istifadəyə verilməsi də vurğulanan fikrin bariz nümunəsidir.

Bakının dünyanın ən gözəl meqapolislərindən birinə çevrilməsində, paytaxtın müasir simasının formalaşmasında son illər həyata keçirilən memarlıq layihələrinin mühüm rolu var. Şəhərin yeni simvolları hesab olunan Heydər Əliyev Mərkəzi, Alov Qüllələri, Bakı Kristal Zalı və Ağ Şəhər kimi layihələr Azərbaycanın inkişaf dinamikasını nümayiş etdirir. Müasir memarlıq üslubu ilə milli ənənələrin harmoniyasını özündə birləşdirən bu tikililər artıq dünya memarlıq inciləri sırasında xüsusi yer tutur. 2015-ci ildə ölkəmizin ev sahibliyi etdiyi Avropa Oyunlarına hazırlıq mərhələsində inşa olunan Bakı Olimpiya Stadionu, Bakı Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzi kimi obyektlər də paytaxtın memarlıq görünüşünə əlavə gözəllik qatır.

Deyirlər ki, hər bir ölkə onun paytaxtı ilə qiymətləndirilir. Bu mənada, hazırda müasirliyi və zəngin memarlıq abidələri ilə diqqət çəkən baş şəhərimiz qonaqlarda Azərbaycanın inkişaf səviyyəsi, xalqın milli mədəniyyəti, həyat tərzi barədə xoş təəssüratlar yaradır. Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyir: "Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Paytaxta gələn qonaqlar, o cümlədən mənim həmkarlarım həmişə şəhərdə gedən quruculuq-abadlıq işləri haqqında öz təəssüratlarını bölüşərək qeyd edirlər ki, Bakı doğrudan da dünyanın ən gözəl şəhərlərindən biridir".

Paytaxtımızın bu gün sürətlə inkişaf etməsindən bəhs edərkən mühüm bir məqamı da xüsusi vurğulamaq lazımdır. Hər bir şəhərin öz simasını daim yeniləməsi, müasirləşməsi dünyada baş verən yeniliklərin şəhər həyatına uğurla inteqrasiya olunması, sakinlərin daha yüksək səviyyəli rahatlıq və xidmətlərlə təmin edilməsidir. Lakin Bakının inkişaf konsepsiyası bir sıra meqapolislərdə müşahidə olunan "hər şeyi dağıdıb yenidən tikmək" praktikasından tamamilə fərqlənir. Belə ki, müasirləşən Bakımızda şəhərin əsrlərdən gələn koloritinə, tarixi tikililərinə dövlət başçısı səviyyəsində son dərəcə həssas və məsuliyyət münasibət bəslənilir.

Prezident İlham Əliyev dəfələrlə paytaxtımızın tarixi simasının qorunmasının vacibliyini önə çəkərək xüsusi vurğulayıb: "Bakı şəhərinin nadir, özünəməxsus, tarixi memarlıq siması var. Bu, bizim böyük sərvətimizdir və hər bir tarixi binaya böyük diqqətlə yanaşılır. O binaların təmiri gərək elə aparılsın ki, onların tarixi görkəmi pozulmasın. Bəzi hallarda tarixi binaları sökürlər, onların yerində eybəcər hündürmərtəbəli binalar tikirlər. Buna yol vermək olmaz. Bakının memarlığı bizim milli sərvətimizdir".

Şəhərimizin yeni inkişaf strategiyasında Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə yüksək səviyyədə əməl olunur. Bu gün paytaxtın qədimliklə müasirliyin unikal vəhdətində inkişaf etməsindən böyük qürur hissi yaşanır. İçərişəhər, Qız Qalası, Şirvanşahlar Sarayı və digər daş abidələr zəngin tariximizdən xəbər verir, xalqımızın şəhərsalma mədəniyyətinin hələ bir neçə əsr əvvəl də yüksək səviyyədə olduğunu təsdiqləyir. Əlamətdar haldır ki, son illərdə Prezident İlham Əliyevin tapşırığı ilə paytaxtın bir sıra tarixi tikililərində, o cümlədən İçərişəhərdə yüksək zövqlə təmir-bərpa işləri aparılıb, bu abidələrə, necə deyərlər, ikinci həyat verilib.

Yaxşı xatırlayırıq ki, 2013-cü ildə Bakıda nadir hadisə baş verdi: Füzuli küçəsində yerləşən 39 saylı bina yolun genişləndirilməsi ilə əlaqədar, təxminən, 10 metr geriyə sürüşdürüldü. Məsələ burasındadır ki, 1908-ci ildə neft maqnatları Hacınski qardaşları tərəfindən tikdirilən həmin bina tarixi memarlıq əhəmiyyəti daşıyırdı. Füzuli küçəsinin genişləndirilməsi ilə əlaqədar binanın gələcək taleyi gündəmə gəlmişdi. Paytaxtın hər bir memarlıq elementinə böyük önəm verən Prezident İlham Əliyev tarixi əhəmiyyətli tikilinin qorunması ilə bağlı konkret tapşırıqlar verdi və nəticədə "Hacınski qardaşlarının evi" kimi tanınan bina öz tarixi görkəmində saxlanıldı. Sürüşdürmə prosesini Prezident İlham Əliyevin şəxsən izləməsi dövlət başçısının, bütövlükdə, Bakının tarixi simasının qorunmasına necə böyük həssaslıqla yanaşdığını bir daha təsdiqlədi.

Bakının qədim simasının qorunması tarixi irsimizə verilən yüksək dəyərin bariz nümunəsidir. Eyni zamanda, göz önündə yüksələn əzəmətli tikililəri, yeni memarlıq nümunələri ilə seçilən müasir şəhərimizin formalaşması da hər bir azərbaycanlının qəlbində sonsuz qürur hissi oyadır. Bir tərəfdə tarixin daş yaddaşı, digər tərəfdə isə müasirliyin simvoluna çevrilən möhtəşəm binalar və yeni gözəllik rəmzləri... İlk baxışda təzadlı görünən bu mənzərə, əslində, xalqımızın keçmişinə bağlılığını, milli-mənəvi dəyərləri yaşatmaq iradəsini, eyni zamanda, müasirliyə və tərəqqiyə daim can atmasını aydın şəkildə nümayiş etdirir. Qədimliklə müasirliyin bu unikal vəhdəti Bakının özünəməxsus simasını formalaşdıran əsas amillərdən biridir.

Bu məqamda onu da qeyd edək ki, paytaxtın inkişafına daim diqqət və qayğı göstərən Prezident İlham Əliyev şəhərdə aparılan tikinti-quruculuq işlərinə yüksək tələbkarlıqla yanaşır. Dövlət başçısının mövqeyi qətidir: yeni tikililər ucaldılarkən yer seçimi düzgün aparılmalı, binaların fasadında və daxili tərtibatında ən mükəmməl memarlıq həllərinə üstünlük verilməli, eyni zamanda, keyfiyyətli inşaat materiallarından istifadə olunmalıdır.

Son illərdə Bakıda yaradılan yeni gözəllik rəmzlərinin böyük əksəriyyətinin memarlıq həllinin məhz dövlət başçısının müəyyənləşdirdiyi meyarlar əsasında formalaşdırılması da yuxarıdakı fikrin bariz ifadəsidir. Bu baxımdan paytaxtın yeni rəmzləri sırasında 2012-ci ildə istifadəyə verilən Heydər Əliyev Mərkəzi xüsusi yer tutur. Dünyaşöhrətli memar Zaha Hadidin layihəsi əsasında inşa edilən bu möhtəşəm binada düz xətlərdən istifadə olunmaması onun fərqliliyini daha da artırır. Dalğavari formada yerdən səmaya yüksələn və yenidən zərif şəkildə yerə qovuşan bu memarlıq nümunəsi sonsuzluğu və davamlı inkişafı təcəssüm etdirir.

Şəhərimizin simasında xüsusi yer tutan daha bir möhtəşəm memarlıq ansamblı Bakının tarixi simvolu sayılan 3 alovu əks etdirən "Alov qüllələri"dir. Dağüstü ərazidə inşa olunan 39, 37 və 34 mərtəbəli bu tikililər şəhər üzərində əbədi yanan 3 alov dilini xatırladır. Paytaxtın demək olar ki, hər yerindən görünən "Alov qüllələri"nin üzərində gecələr dalğalanan üçrəngli bayrağımız isə hər bir azərbaycanlının qəlbində sonsuz iftixar və qürur hissi doğurur.

Prezident İlham Əliyev Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimindəki çıxışında son illər paytaxtda həyata keçirilən abadlıq-quruculuq layihələrinin icrası, yeni parkların və istirahət mərkəzlərinin salınması, qədim memarlıq abidələrinin bərpası haqqında danışaraq Bakının dünyanın ən cəlbedici şəhərlərindən birinə çevrildiyini diqqətə çatdırır: "Paytaxt Bakının tarixi simasını qorumaqla bərabər, biz onun infrastrukturunun yenidən qurulmasına və müasirləşdirilməsinə nail olmuşuq. Bakı misilsiz memarlığı, park və bulvarları ilə tarixi irs və müasirliyin ahəngliyini özündə birləşdirir".

Bu fikir paytaxtın keçdiyi inkişaf yolunun dolğun mənzərəsindən xəbər verməklə bərabər, həm də müstəqillik dövründə Abşeronun və paytaxt Bakının ekoloji durumunun yaxşılaşdırılmasının mühüm məsələlərdən biri kimi diqqət mərkəzində saxlanılmasından xəbər verir. Dövlət başçısının siyasi iradəsi əsasında hazırda da bu istiqamətdə məqsədyönlü tədbirlər görülür, şəhərin ekoloji vəziyyəti yaxşılaşdırılır, bir çox önəmli layihələr icra edilir.

Yeri gəlmişkən, xatırladaq ki, indiyədək şəhərimizin ekologiyasına ciddi ziyan vuran bir sıra mənbələr aradan qaldırılıb. Məsələn, paytaxtımızın şərqində, Bakı buxtasının mərkəzində 221 hektar sahəni əhatə edən "Qara şəhər" "Ağ şəhər"ə çevrilib. Dövlət başçısının iştirakı ilə 2011-ci il dekabrın 24-də "Qara şəhər"in ərazisində yaradılacaq "Ağ şəhər"in təməlqoyma mərasimi keçirilib. Bununla da onilliklər ərzində neftlə çirklənmiş, insanların təsəvvüründə ölü zona kimi qalmış "Qara şəhər"in yeni siması formalaşmağa başlayıb. Bu gün isə bəhs olunan ərazidə salınan "Ağ şəhər" yüksək infrastruktura malik "şəhər içində şəhər"ə çevrilib.

Yaxud Bibiheybət neft mədənləri bir vaxtlar ekoloji fəlakət mənbəyi idi. Bu ərazidə acınacaqlı vəziyyət hökm sürürdü. Burada neftlə çirklənmiş torpaq sahələri, gölməçələr ciddi narahatlıq doğururdu. Qısa müddətdə bütün bunların hamısı ləğv edilərək yerində gözəl parklar salındı. Paytaxtın ekologiyasına ciddi ziyan vuran mənbələr arasında daha çox narahatlıq doğuran keçmiş Balaxanı zibilxanasından qalxan tüstü havanı çirkləndirirdi. Bundan xüsusilə ətraf qəsəbələrdə yaşayan əhali əziyyət çəkirdi. Çox qısa müddətdə həmin zibilxana ləğv edilərək yerində müasir poliqon quruldu. Burada ən müasir standartlar əsasında məişət tullantılarının çeşidlənməsi və zərərsizləşdirilməsi ilə ekologiyaya mənfi təsirlər minimuma endirildi.

Böyükşor gölü də ciddi təhlükə mənbəyi idi. Onilliklər ərzində bu gölə axıdılan kanalizasiya, lay suları sözügedən ərazini də ekoloji fəlakət zonasına çevirmişdi. Dövlət başçısının tapşırığı əsasında göldə xarici şirkətlərin iştirakı ilə təmizlik işləri aparıldı. Böyükşor gölünün bir hissəsində ekoloji standartlara tam cavab verən park salındı. Gölün üzərindən həm də yeni yol çəkildi, eyni zamanda, digər hissəsinin təmizlənməsi istiqamətində müəyyən layihələrin aparılmasına başlandı.

Beləliklə, Prezident İlham Əliyevin 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı sərəncamı da ölkə rəhbərinin bu sahəyə verdiyi xüsusi önəmin göstəricisidir. Sərəncamda vurğulandığı kimi, respublika ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları, karvansaralar, məscidlər, məbədlər və türbələr milli memarlıq ənənələrinin zənginliyini əks etdirir. Bu irsin qorunması və gələcək nəsillərə çatdırılması dövlət siyasətinin mühüm istiqamətlərindən biridir.

"Şəhərsalma və Memarlıq İli" çərçivəsində keçiriləcək tədbirlər ölkəmizin beynəlxalq təqdimatı baxımından da mühüm əhəmiyyət daşıyır. Bu təşəbbüs Azərbaycanın urbanizasiya və memarlıq sahəsində qazandığı uğurların beynəlxalq miqyasda tanıdılmasına əlavə imkanlar yaradır. Başqa sözlə, ölkəmizin şəhərsalma sahəsində əldə etdiyi qabaqcıl təcrübə beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır.

Ölkəmiz iqlim dəyişmələri, dayanıqlı şəhərlərin qurulması və urbanizasiya problemlərinin həllində etibarlı tərəfdaş kimi qəbul edilir. Bütün bunlar isə Azərbaycanın şəhərsalma və memarlıq sahəsində qazandığı uğurlarla dünyaya nümunə göstərən ölkələrdən biri olduğunu deməyə əsas verir.

Paytaxt Bakı ilə yanaşı, regionların və işğaldan azad edilmiş ərazilərin müasir tələblərə uyğun şəkildə yenidən qurulması dövlətimizin gücünü, strateji baxışını və yüksək idarəçilik qabiliyyətini nümayiş etdirir. Tarixi irsin qorunması ilə müasir memarlığın vəhdəti, "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin uğurla həyata keçirilməsi Azərbaycanın dayanıqlı inkişaf modelini daha da gücləndirir.

Şübhəsiz, "Şəhərsalma və Memarlıq İli" çərçivəsində həyata keçirilən tədbirlər, eləcə də 13-cü Ümumdünya Şəhərsalma Forumu ölkəmizin beynəlxalq nüfuzunun daha da artmasını, yeni əməkdaşlıq formatlarının formalaşmasını və respublikamızın qlobal urbanizasiya proseslərində rolunun güclənməsini şərtləndirir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Belarus Milli Assambleyasının Palata sədri Milli Məclisdə



**Milli Məclisin Sədri Sahibə Qafarova mayın 19-da ölkəmizdə səfərdə olan Belarus Respublikası Milli Assambleyası Nümayəndələr Palatasının sədri İqor Sergeyenko ilə görüşüb.**

Belarus Milli Assambleyası Nümayəndələr Palatasının sədri əvvəlcə Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Sonra tərəflər arasında təkbətək görüş keçirilib.

Daha sonra ulu öndər Heydər Əliyevin adını daşıyan xatirə zalına gələn qonaqlar burada Ümummilli liderin həyatının müxtəlif dövrlərini əks etdirən eksponatlarla tanış olublar. İqor Sergeyenko buradakı Xatirə kitabına ürək sözlərini yazıb.

Sonra tərəflər arasında geniş tərkibdə görüş olub. Sahibə Qafarova münasibətlərin inkişafında iki ölkənin dövlət başçıları arasında yüksəksəviyyəli əlaqələrin mühüm rolunu vurğulayıb. Ali və yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərin, imzalanan sənədlərin əlaqələrin daha da dərinləşməsini təmin etdiyini bildirib.

İqor Sergeyenko Prezident İlham Əliyevin WUF13-ün açılış mərasimindəki çıxışında şəhərsalma sahəsində mühüm məsələlərə toxunduğunu diqqətə çatdırıb. Bu tədbirin mühüm əhəmiyyət daşıdığını və WUF13 çərçivəsində müasir dövrün ən aktual məsələlərindən olan urbanizasiya problemlərinin geniş müzakirə edildiyini deyib.

**Milli Məclisin Sədri Sahibə Qafarova və Belarus Respublikası Milli Assambleyası Nümayəndələr Palatasının sədri İqor Sergeyenko ikitərəfli görüşdən sonra mətbuata bəyanatlarla çıxış ediblər.**

Sahibə Qafarova İqor Sergeyenkonun Azərbaycana rəsmi səfəri çərçivəsində həm də Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında Belarusu təmsil etdiyini, ötən gün forumun açılış mərasimində iştirak etdiyini diqqətə çatdırıb



S.Qafarova qeyd edib ki, parlamentlərarası əlaqələrimiz də ölkələrimiz arasındakı münasibətlərin hazırkı səviyyəsinə uyğundur. Mühüm platformalardan biri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış və hazırda Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin də əhəmiyyəti vurğulanıb.

İqor Sergeyenko isə çıxışı zamanı ölkəmizə səfəri və parlamentlərimiz arasında münasibətlərə dair müsbət fikirlərini bölüşüb.

# Mingəçevirdə beynəlxalq elmi konfrans

**Mingəçevir Dövlət Universiteti və Türkiyənin "Dokuz Eylül" Universitetinin birgə təşkilatçılığı ilə "Dil, təhsil, tədqiqat və dayanıqlılıq sahəsində müasir problemlər" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**

Heydər Əliyev Mərkəzində təşkil edilən məclisdə Milli Məclisin deputatları, Mingəçevir Şəhər İcra Hakimiyyətinin rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, YAP-ın şəhər təşkilatının, Bələdiyyənin, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın, eləcə də 23 ölkəni təmsil edən ali təhsil və tədqiqat institutlarının nümayəndələri, ziyalılar, dilçi alimlər, müəllimlər və tələbələr iştirak ediblər.



Konfrans iştirakçıları əvvəlcə Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər. Sonra "Dil sərhəd tanımır" adlı kitab sərgisinə baxış keçirilib. Sərgidə MDU-nun alimlərinin, ölkənin müxtəlif elmi mərkəzlərinin və nəşriyyatların dilçilik sahəsində çap olunmuş elmi əsərləri, monoqrafiyalar və tədris vəsaitləri nümayiş olunub.

MDU-nun rektoru Anar Eminov çıxış edərək dil, təhsil və tədqiqat sahələrinin qarşılıqlı əlaqəsinin müasir dövrdə bilikli cəmiyyətin formalaşmasında əsas dayaqlardan biri olduğunu vurğulayıb. O, konfransın beynəlxalq miqyasını xüsusi xatırladaraq, 23 ölkədən 77 ali təhsil və tədqiqat institutunu təmsil edən alimlər tərəfindən 545-dən çox məqalə və tezis təqdim olunmasını elmi əməkdaşlığın genişlənməsi, bilik mübadiləsinin gücləndirilməsi və yeni akademik platformaların formalaşması baxımından yüksək qiymətləndirib.

Rektor konfransın Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə həsr olunmasının rəmzi və elmi baxımdan böyük əhəmiyyət daşıdığını da qeyd edərək bildirib ki, elmi məclisin ilk paneli Azərbaycan dilçilik elminə böyük töhfələr verən professor Mahirə Hüseynovanın 65 illik yubileyinə həsr edilib.

Filologiya elmləri doktoru, professor, Prezident təqaüdçüsü, Əməkdar müəllim, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Mahirə Hüseynova dilin yalnız ünsiyyət vasitəsi deyil, həm də milli yaddaşın, mədəni identikliyin və tarixi varisliyin əsas daşıyıcısı olduğunu vurğulayıb. O bildirib ki, dilçilik elmi bu gün yalnız nəzəri çərçivələrlə məhdudlaşmır, eyni zamanda təhsil siyasəti, sosial kommunikasiya, rəqəmsal texnologiyalar və multikultural mühit kontekstində yeni tədqiqat istiqamətləri formalaşdırır.

Bildirilib ki, belə beynəlxalq platformalar müxtəlif elmi məktəblər arasında dialoqun qurulmasına, ortaq terminoloji və metodoloji yanaşmaların formalaşdırılmasına və xüsusilə gənc tədqiqatçıların elmi mühitə inteqrasiyasına mühüm töhfə verir. Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd olunması isə yalnız tarixi hadisə deyil, həm də müasir türkoloji tədqiqatların inkişafına yeni baxışdır.

Konfransın davamında MDU-nun rektoru Anar Eminova Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının fəxri professoru diplomu və "Şərəf ordeni" təqdim olunub.

Elmi məclis Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Prezident Kitabxanasının direktoru, professor Afət Abbasova, Milli Məclisin deputatı Elnarə Akimova, "Ədəbiyyat" qəzetinin baş redaktoru Azər Turan, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın katibi Günay Əkbərova və "Dokuz Eylül" Universitetindən Murat Atanın çıxışları ilə davam etdirilib.

*İlqar HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

# XIX əsrin sonu – XX əsrin əvvəlində Bakıda memarlığın intibahı

**Azərbaycanın Rusiya tərəfindən ilhaq edilməsi, ölkənin şəhərsalma və memarlığının inkişafında da yeni mərhələnin əsasını qoydu. Bu, xüsusən XIX əsrin ikinci yarısında Azərbaycanın kiçik şəhər-qalalarından birinin inqilabdan əvvəlki Rusiyanın böyük sənaye mərkəzinə çevrilməyə başladığı dövrdə baş verdi. Feodal qapalılığını ləğv edən və daha qabaqcıl şəhərsalma prinsiplərini irəli sürən kapitalizm sisteminin mənfi tərəflərinə baxmayaraq, bu dövrün şəhərsalma prosesinin bütün mərhələləri Bakının planlaşdırmasında və bir sənaye şəhəri kimi inkişafında öz əksini tapdı.**

Doğrudur, XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakı memarları tərəfindən yaradılan irsin müasir Bakı memarlığının aktiv elementi olması üçün Sovet Azərbaycanın memarları da çox böyük işlər görüblər. 100 ildən çox müddətdə (1806–1918) Bakı sənaye şəhəri kimi inkişaf edirdi. Bu illərdə sosializm yenidənqurması üçün də mühüm rol oynamış şəhərin planlaşdırmasını həyata keçirən yeni təşkilat yaradıldı. Lakin Bakının planlaşdırılmasında əhəmiyyətli rol oynayan bu təşkilat şəhərin inkişafının ana xətlərinin, ümumiyyətlə, şəhərsalmanın qaydaların yaxşı icra etməmişdir. Belə ki, dövrün mövcud şəhər sahələri əməli faydaları ilə yanaşı, diqqətçəkən gözəl memarlıq elementlərindən ola bilmədilər. Şəhər planında onların dəyərinin lazımınca qiymətləndirilməməsinə səbəb müvafiq abadlığın olmaması idi. "Teatralnaya", "Birjevaya", "Kubinskaya", "Marinski bağçası", "Parapet" və s. kimi şəhər sahələri





və bağları yalnız sosializmin yenidənqurma fəaliyyətindən sonra şəhərsalma mədəniyyətinin tərkib hissəsinə çevrildilər.

Şəhərin sürətli inkişaf dövründən miras qalmış memarlıq nümunələri müstəqillik illərində də özünün "ikinci baharını" yaşamış və bu gün də Bakının planlaşdırmasında böyük qayğı ilə qorunmaqdadır. Eyni zamanda, formalaşmış şəhər orqanizminin bütövlüyünü qorumaq məqsədilə onun tarixi məhəllələrinin memarlıq və şəhərsalma irsi, yenidənqurma prosesində də həssas yanaşma və diqqət tələb etmişdir.

1859–1918-ci illər Bakının ikinci quberniya şəhəri olduğu və inqilabdan əvvəlki Rusiyanın böyük sənaye mərkəzlərinin sırasına qatıldığı vaxtlardır. Bu zaman şəhər artıq sənaye artımına görə Orta və Yaxın Şərqin paytaxt şəhərlərini, əhali artımına görə isə dünyanın böyük şəhərlərini geridə qoymuş, şəhərsalma cəhətdən isə həm inkişaf xarakterinə, həm də planlaşdırma məzmununa görə daha dolğun olmuşdur.

Bu fakt onu deməyə əsas verir ki, XIX–XX əsrlərdə Bakının bənzərsiz şəhərsalma tarixi olmuşdur. Türkmənçay müqaviləsinin imzalanmasından sonra yeni sosial-iqtisadi və siyasi şəraitdə dinc tikinti işləri başlandı. Bakı sürətlə kapitalizm dövrünə daxil oldu. Bu, şəhərin böyüməsinə təkan verdi və fərqli bədii-memarlıq qaydalarına malik yeni növ binaların tikintisinə gətirib çıxardı.

Bakı Xəzər dənizində ən yaxşı liman şəhəri olmaqla Rusiyanın Qacarlar dövləti ilə ticarətində mühüm rol oynayırdı. Bu ticarətdə Xəzər dənizi sahillərində yerləşən bölgələr də fəal iştirak edirdilər.

1806-cı ildə Bakı xanlığı Rusiya tərəfindən işğal olunduqdan sonra onun memarlıq sahəsində inkişafında yeni mərhələ başlandı. 1859-cu ildə Bakı qəzası Bakı quberniyasının mərkəzinə çevrildi. Yaxın və Orta Şərq ölkələri, Orta Asiya və Rusiya ilə ticarət əlaqələrini inkişaf etdirmək üçün dəniz kənarında yerləşən Bakının rahat buxtası vardı. Şəhərin yerləşdiyi coğrafi mövqeyi şəhər ərazisinin genişlənməsi və inkişafı üçün əlverişli idi. XIX əsrin ikinci yarısından başlayaraq Abşeron neft yataqlarının plana uyğun istehsalı dövründəki Bakı, nəinki Çar Rusiyasının, hətta bütün dünyanın ən iri sənaye və iqtisadi mərkəzinə çevrilməyə başladı. 1872-ci ildə iltizam sistemi ləğv edildikdən sonra Bakı neft sənayesi və buna uyğun olaraq şəhər sürətlə inkişaf etməyə başladı. Görkəmli Azərbaycan maarifçi-demokratı Həsən bəy Zərdabi Bakının həmin dövrünü qələmə alarkən yazırdı ki, **"...hər tərəfdən bura kapital və bilik axmağa başladı və keçmiş inzibati sürgün yerində həyat qaynadı".**




Artıq 1894-cü ildə Bakıda neft hasilatı 340 milyon puda çatdı və bu göstəriciyə görə Amerikada ilə bərabərləşdi. Sonrakı illərdə isə onu ötüb keçdi. Yəni 1850-ci illə müqayisədə, XIX əsrin sonunda Bakıda neft hasilatı 1500 dəfə artmışdı. Bu da şəhərin inkişafında həlledici bir amilə çevrildi.

XIX əsrin sonuna yaxın Bakının neft sənayesi öz inkişafının ən yüksək pilləsinə qalxdı və neft hasilatı üzrə dünyada birinci yerə çıxdı. Qısa müddətdə Bakıda neft sənayesi kapitalist təşkilinin aşağı formasından inhisarçı birliyin yüksək formalarına kimi təkamül yolu keçdi. Bakı şəhəri böyük templə inkişaf edirdi. Şəhərin sənaye inkişafı və ərazisinin genişlənməsi tempi, Rusiya imperiyasının bir çox böyük şəhərləri ilə müqayisədə, daha irəlidə idi. 1923-cü ildə tədqiqatçı V.Surikov yazırdı: **"Bakı Amerika tərzi şəhər sayılır, yəni onun inkişaf intensivliyi Amerikanın iri şəhərlərinin inkişafı kimi başgicəlləndiricidir".** Həmin dövrün şəhərsalma tələblərinə cavab verən iqlim və topoqrafik xüsusiyyətləri nəzərə almaq, artıq yaranmış hissələri nizamlamaq və yeni layihələndirilən məskunlaşma rayonlarını inkişaf etdirmək üçün şəhərin baş planının hazırlanmasına ehtiyac var idi.

Bakının memarlığının planlaşdırmasında yeni mərhələ 1878-ci ilə aiddir. Həmin illərdə hazırlanmış plan Bakı şəhərinin memarı O.Porfirovun yekun rəyi əsasında qəbul edilmişdi. Bu plan şəhərin qərb hissəsinin inkişafı baxımından, peşəkarcasına işlənib hazırlanmış yeganə baş plan idi. Planda nəzərdə tutulan layihələrdə şəhəri məhəllələrə bölməklə ərazinin genişləndirilməsi və yerli xüsusiyyətlər, mövcud tikililər nəzərə alınırdı. Bu plan layihə sənədi kimi hüquqi qüvvəyə malik olmasa da, sonrakı tarixlərdə ondan istifadə olunmuşdur. Artıq həmin dövrdə Bakıda tikilən məhəllələrin sayı artaraq Bayılda 20-ə, Qara şəhərdə 30-a çatmışdı. 1878-ci ildə Bakının ərazisi Qara şəhər və Bayıl istiqamətində genişlənməklə 250 hektara çatmışdı. Bu qısa müddətdə – 15 il ərzində Bakıda tikinti işləri 3 dəfə artmışdı və bu artım tempi Rusiya İmperiyasının şəhərləri üçün qeyri-adi idi.

Bakının sürətli inkişafı, şəhərin limanının artmaqda olan rolu, onun quberniya mərkəzinə çevrilməsi və qalanın hərbi məntəqə kimi öz rolunu itirməsinə digər amillər də öz təsirini göstərdi. Məhz həmin dövrdə Bakı şəhərinin bu günə qədər qorunub saxlanmış spesifik rayonlaşdırılması, inzibati-ictimai mərkəzin və şəhərin kənar hissələrinin – Canubda Bayıl və Şərqdən Qara şəhərin formalaşmasına səbəb oldu. Beləliklə, qeyd etdiyimiz dövrdə Böyük Bakının əsası qoyuldu.

Şəhərin ərazisi genişlənir, yeni rayonlar yaranır, bununla bərabər mərkəzi yerlər arasındakı uyğunsuzluq meydana çıxırdı. Bakı şəhər Duması mərkəzin abadlaşdırılmasına diqqət yetirsə də, ətraf rayonlar bu diqqətdən kənarda qalırdı.

1880-ci illərin əvvəllərində Bakının şimal-şərq hissəsində məskunlaşma ərazisi və sənaye zonaları arasında iri yaşıl massivlərin yerində dəmir yolu vağzalının binası tikildi. 1883-cü ildə Bakı-Tiflis dəmir yolunun istifadəyə verilməsindən sonra küçələrin istiqaməti dəyişdi. Bakının şərq hissəsində vağzal sənaye zonası və Abşeronla əlaqə yaradan əhəmiyyətli küçələr salındı. Bunlardan biri indiki 28 May (keçmiş "Telefon") küçəsi, 1893-cü ildə İsa ("Romanov") küçəsi idi. Burada əsas etibarilə nəqliyyat kantorları və topdan satış ticarət müəssisələri yerləşirdi.

1870-ci ildə Dövlət Şurasının "Şəhər əsasnaməsi" təsdiq edildi. Bu əsasnamə Mərkəzi Rusiyaya nisbətən Cənubi Qafqazda gec tətbiq edildi. 1878-ci ildə şəhər özünüidarə islahatı Azərbaycan şəhərləri içərisində yalnız Bakıda tətbiq edildi. Bu islahatın tətbiq edilməsinin şəhər idarəçiliyində böyük əhəmiyyəti var idi. Belə ki, şəhər despotik polis idarəçiliyindən azad olub, seçkili və kollektiv idarəçiliyə keçdi. Amma buna baxmayaraq, şəhər başçısı vəzifəsinə, bir qayda olaraq, qeyri-azərbaycanlılar seçilirdilər.

Şəhər Dumasının Bakının abadlaşdırılması istiqamətində göstərdiyi fəaliyyət sahələrindən biri də dənizkənarı bulvarın salınması ilə əlamətdar oldu. Bakıda dənizkənarı bulvarın əsası 1865-ci ildə memar Qasım bəy Hacıbababəyov tərəfindən qoyuludu. XX əsrin əvvəllərindən etibarən Bakının şəhərsalma strukturunun inkişafında, şəhərin planlaşdırılmış bütöv orqanizm kimi formalaşmasında Qasım bəy Hacıbababəyov, N.A.fon der Nonne və M.H.Hacınski kimi şəhərsalma mütəxəssisləri və memarlar çox böyük rol oynamışlar.

Neft sənayesinin inkişafı nəticəsində Bakı şəhəri artıq böyük ticarət limanına çevrilmişdi. 1902-ci ildə Duma Bakının dənizkənarı şəhər kimi, sahil zolağında çoxsaylı körpülərin olduğunu nəzərə alaraq, dənizkənarı ərazidən əhaliyə bulvar şəklində bir pay ayırmağı nəzərə almışdı. Şəhər idarəsinin üzvü M.H.Hacınski bundan istifadə edib 1909-cu ildə bu ərazidə Bulvarın salınması təşəbbüsü ilə Dumada çıxış etdi. Onun çıxışından sonra Bulvarın tikintisi üçün 10 min rubl ayrıldı. Bu, o dövr üçün çox böyük vəsait idi.

Şəhərin baş planının inkişafının bütün mərhələlərinin fərqləndirici xüsusiyyətləri varislik, şəhərsalma məsələsinin həllinə səmərəli yanaşma və düzgün qiymətləndirmə təşkil edirdi. Çünki hər plandan hər hansı bir kənara çıxma xərclərin artmasına səbəb olurdu. Şəhər yüz il boyunca ictimai xarakterli yaşıllığın yaradılması uğrunda inadla mübarizə aparırdı. Baha başa gələn yaşıllıqların suvarılması kifayət qədər olmasa da, yerli su mənbələrinin hesabına həyata keçirilirdi. Buna baxmayaraq, Bakının memarlıq-planlaşdırma strukturunda bir-birinin ardınca, az sayda da olsa, bağlar, parklar salınır və illər keçdikcə, dəniz kənarındakı Bulvar genişlənirdi. Bağlar, şəhər bağçaları kimi yaşıl memarlıq nümunələrinin meydana çıxması öz ahəngi, özünəməxsus koloriti ilə şəhərin ümumi görünüşünə xüsusi estetik məzmun qatırdı.

Şəhər strukturunda yaşıl memarlıq elementlərinin inkişafı Abşeronda özünəməxsus planlaşdırmaya malik şəhərkənarı villaların tikilməsinə yol açdı. Şəhərkənarı villalarda bağ-park sənətinin yerli ənənələri əsasında geniş ərazilərin yeni məkan həllı tətbiq edildi. Bu, təkcə Abşeronun şimal sahilinin, daha doğrusu, əsasən Mərdəkan və Şüvəlanın abadlaşdırılması ilə məhdudlaşmadı, eləcə də şəhərin bütünlüklə yaşıllıqla "bəzənmə" mədəniyyətinin inkişafı və ümumi artımına kömək etmiş oldu.

XX əsrin əvvəllərində Bakı kapitalist şəhərlərə xas ziddiyyətlərlə dolu böyük aqlomerasiyaya çevrilsə də, şəhər planlaşdırma strukturunun maraqlı nümunələrini saxlamağa çalışırdı. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Bakıda şəhərsalmada yeni bir dövr başlandı.

*Elman MİRZƏYEV,*
*tarix üzrə fəlsəfə doktoru*

# Bakı–Tbilisi nəqliyyat-logistika əməkdaşlığı




(əvvəli 1-ci səhifədə)

Bu sənədlə Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi üzrə həyata keçirilmiş modernləşdirmə işlərinin tamamlanması və yekun qəbulu təsdiq edilib.

Mərasim BTQ xəttinin effektiv idarəçiliyinin təmin edilməsi məqsədilə ADY və "Marabda-Kartsaxi Dəmir Yolu" MMC-nin törəmə şirkətləri tərəfindən yaradılmış "BTKI Railways" MMC birgə müəssisəsinin işə başlaması ilə əlamətdar olub.

BTQ-nin imkanlarının artırılması məqsədilə 2024-cü ildə "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən xəttin Gürcüstan ərazisindən keçən 184 kilometrlik hissəsində modernləşdirmə işləri aparılıb. 5 mərhələdən ibarət olan layihə 13 dəmir yolu stansiyası, 55 körpü, 8 dartı yarımstansiyası, 320 bina və süni mühəndis qurğularını (körpü, yolötürücü, keçid və s.) əhatə edir. Layihə çərçivəsində 30,3 kilometr uzunluğunda yeni dəmir yolu xətti, təkər cütlərinin dəyişdirilməsi stansiyası, 153,1 kilometr uzunluğunda mövcud dəmir yolunun reabilitasiya və rekonstruksiyası üzrə işlər həyata keçirilib. Layihə mürəkkəb coğrafi relyefdə, bəzi ərazilərdə dəniz səviyyəsindən 2400 metr yüksəklikdə və sərt iqlim şəraitində icra olunub. Görülən işlər nəticəsində BTQ-nin illik yük ötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona çatdırılıb.

Modernləşdirmənin məqsədi BTQ-ni Orta Dəhlizin əsas yükdaşıma arteriyalarından birinə çevirmək və dəhlizin rəqabətqabiliyyətini artırmaqdır. Bu modernləşmə BTQ-ni Çin və Mərkəzi Asiyadan Avropaya uzanan ən qısa və çevik quru marşrutlardan biri kimi daha funksional edir.

ADY layihənin Azərbaycan tərəfində – Bakı–Böyük Kəsik sahəsində də əsaslı təmir işləri həyata keçirib, enerji sistemini yeniləyib. Ötən il Böyük Kəsikdən Hacıqabul sahəsinə qədər dəyişən cərəyan sistemi tətbiq olunub, rabitə və işarəvermə sistemləri yenidən qurulub.

Artıq BTQ sadəcə Bakı, Tbilisi və Qarsı birləşdirən dəmir yolu deyil, modernləşdirilmiş xətt Orta Dəhlizin yükdaşıma qabiliyyətini artıracaq, Şərq–Qərb ticarət axınlarını sürətləndirəcək, Azərbaycanı regional tranzit qovşağı kimi gücləndirərək Avrasiya logistika sistemində yeni balans yaradacaq.

***

Azərbaycan və Gürcüstan arasında nəqliyyat və logistika sahəsində əməkdaşlıq regionun iqtisadi və geosiyasi mənzərəsini formalaşdıran əsas istiqamətlərdən biridir. Hər iki ölkə Şərqlə Qərb, eləcə də Şimalla Cənub arasında mühüm tranzit körpüsü rolunu oynayaraq Avrasiya məkanında strateji nəqliyyat qovşağı kimi çıxış edir.

Son illər Bakı və Tbilisi arasında bu sahədə əməkdaşlığın daha da dərinləşməsi regionda yükdaşımaların həcminin artmasına, ticarət əlaqələrinin genişlənməsinə və beynəlxalq nəqliyyat dəhlizlərinin səmərəliliyinin yüksəlməsinə mühüm töhfə verib. Xüsusilə BTQ dəmir yolu xətti iki ölkə arasında strateji tərəfdaşlığın ən uğurlu nümunələrindən biridir. Bu marşrut Asiya ilə Avropanı birləşdirən Orta Dəhlizin əsas komponentlərindən biri olmaqla yükdaşımaların daha sürətli və təhlükəsiz həyata keçirilməsinə imkan yaradır.

Bununla yanaşı, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Poti Dəniz Limanları arasında əməkdaşlıq Xəzər və Qara dəniz hövzələri arasında yük axınının güclənməsinə şərait yaradır. Azərbaycanın Ələt Beynəlxalq Dəniz Ticarət Limanı ilə Gürcüstanın liman infrastrukturu arasında formalaşan əlaqələr regionun logistika imkanlarını genişləndirərək beynəlxalq investorların diqqətini cəlb edir.

Rəsmi Bakı və Tbilisinin nəqliyyat-logistika sahəsində tərəfdaşlığı yalnız iqtisadi deyil, həm də siyasi baxımdan mühüm əhəmiyyət daşıyır. Bu əməkdaşlıq Cənubi Qafqazda sabitliyin möhkəmlənməsinə, regional inteqrasiyanın dərinləşməsinə və yeni ticarət marşrutlarının inkişafına xidmət edir. Mövcud geosiyasi çağırışlar fonunda iki ölkənin koordinasiyalı fəaliyyəti regionun qlobal təchizat zəncirində rolunu daha da gücləndirir.

Sonda qeyd edək ki, yaxın illərdə Orta Dəhliz üzrə yükdaşımaların artması Azərbaycan və Gürcüstanın logistika sahəsində əməkdaşlığını yeni mərhələyə çıxara bilər. Bu isə hər iki ölkənin tranzit gəlirlərinin artmasına, infrastruktur layihələrinin genişlənməsinə və regionun beynəlxalq ticarətdə strateji mövqeyinin möhkəmlənməsinə səbəb olacaq.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*



**Aslan ƏSƏDOV,**
**nəqliyyat eksperti**

Nəqliyyat sahəsi ilə bağlı qeyd etmək olar ki, dəmir yolu ilə yükdaşımaların ümumi həcmi digər nəqliyyat növləri, xüsusilə avtomobil daşımaları ilə müqayisədə daha böyükdür. Eyni zamanda, dəmir yolu daşımaları iri həcmli yüklərin daşınmasında daha çevik və iqtisadi baxımdan daha sərfəli hesab olunur. Bunun əsas səbəbi dövlətlərarası daşımalar zamanı formalaşan tarif siyasətinin həm istehlakçıların, həm ixracatçıların, həm də idxalçıların maraqlarını balanslı şəkildə qorumasıdır.

Digər mühüm məqam Azərbaycan, Gürcüstan və Türkiyə dəmir yolu sistemlərinin qarşılıqlı inteqrasiyasıdır. Bildiyimiz kimi, Azərbaycan və Gürcüstanın dəmir yolu infrastrukturu əsasən sovet dövründə formalaşıb və müəyyən texniki standartlara əsaslanır. Türkiyənin dəmir yolu sistemi ilə inteqrasiya isə bu nəqliyyat xəttinin beynəlxalq daşımalar baxımından daha funksional və səmərəli olmasına şərait yaradır.

Bu gün Azərbaycan dəmir yolları beynəlxalq nəqliyyat sisteminin mühüm hissəsinə çevrilib. Yüklərin müxtəlif istiqamətlər üzrə daşınması, ölkələrarası logistika əlaqələrinin gücləndirilməsi və vahid nəqliyyat şəbəkəsinin formalaşdırılması baxımından bu marşrutun rolu olduqca böyükdür. Xüsusilə regional inteqrasiyanın dərinləşdirilməsi və tranzit imkanlarının artırılması baxımından bu layihə mühüm əhəmiyyət daşıyır.

Sərnişin daşımaları baxımından da bu əməkdaşlığın xüsusi əhəmiyyəti var. Bakı–Tbilisi–Qars xətti üzrə sərnişin qatarlarının fəaliyyətinin bərpası insanlar arasında gediş-gəlişi asanlaşdırmaqla yanaşı, turizmin inkişafına, iqtisadi aktivliyin artmasına və nəqliyyat bazarında rəqabətin güclənməsinə də müsbət təsir göstərəcək. Bu, həm də alternativ nəqliyyat vasitələrinin inkişafına və xidmət keyfiyyətinin yüksəlməsinə töhfə verəcək.

Ümumilikdə, Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi Azərbaycanın nəqliyyat infrastrukturunda mühüm strateji yer tutur. Bu marşrut Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşərək ölkənin regional tranzit mərkəzi kimi mövqeyini daha da gücləndirir və uzunmüddətli perspektivdə dayanıqlı logistika bazarının formalaşmasına xidmət edir.

**Cənubi Qafqaz regionda siyasi sabitlik və əməkdaşlıq meydanına çevrilmiş Azərbaycan Respublikası Avropa İttifaqının mötəbər enerji tərəfdaşı kimi öz mövqeyini getdikcə gücləndirir. Bu əməkdaşlığın təməli isə 13 il əvvəl Trans-Adriatik Qaz Boru Kəməri (TAP) layihəsinin həyata vəsiqə alması ilə qoyulub.**

# Ölkəmiz alternativ enerji poliqonuna çevrilib



Xəzər regionu ilə Avropa qitəsi arasında vacib enerji körpüsü rolunu oynayan Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP kəməri ötən müddətdə "köhnə qitə"nin enerji xəritəsinin zənginləşdirilməsinə mühüm töhfələr verib. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən 5 il 4 ay ərzində sözügedən kəmərlə, təqribən, 58 milyard kubmetr qaz nəql olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də "Euronews" televiziyasına müsahibəsi zamanı bu vacib məqama toxunaraq deyib: "Biz Avropa ilə enerji sahəsində əməkdaşlığa müəyyən müddət əvvəl başlamışıq. Xüsusilə 2020-ci ildən sonra – Cənub Qaz Dəhlizinin istifadəyə verilməsi ilə bu proses daha da sürətlənib. Hazırda həmin dəhliz vasitəsilə 16 ölkəyə təbii qaz ixrac olunur. Boru kəmərləri vasitəsilə qaz tədarük etdiyimiz ölkələrin sayına görə biz dünyada birinci yerdəyik. Bu rəqəm artmaqdadır".




Hazırda Avropa İttifaqının 10 üzv dövlətinin, ümumilikdə isə, 12 Avropa dövlətinin Azərbaycandan qaz aldığını xatırladan Prezident İlham Əliyev ölkəmizlə bu sahədə əməkdaşlığa başlamaq istəyi ilə bağlı müraciətlərinin sayının getdikcə artmaqda olduğunu vurğulayıb.

Azərbaycanın bu gün Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən ölkələrdən birinə çevrildiyini bildirən televiziya əməkdaşının Avropanın enerji mənbələrini şaxələndirdiyi bir dövrdə Azərbaycanın bu sahədə rolu ilə bağlı sualını cavablandıran dövlətimizin başçısı deyib: "Xoşbəxtlikdən biz boru kəməri infrastrukturu və hasilat sahəsində ev tapşırığımızı vaxtında həyata keçirmişik. Burada qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq mövcuddur. Bizim premium bazara ehtiyacımız var, o da Avropadır. Avropanın isə Azərbaycan kimi alternativ təchizat mənbəyinə ehtiyacı var. Beləliklə, biz səylərimizi birləşdirdik və Avropa Komissiyası ilə çox səmərəli əməkdaşlıq qurduq".

Müsahibə zamanı Prezident İlham Əliyev ölkəmizdə qaz istehsalının artmaqda davam etdiyini vurğulayaraq gələn ayın əvvəlində yeni yataqların hasilatına başlanılacağını diqqətə çatdırıb. Burada söhbət "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun daha dərin laylarında yerləşən sərbəst təbii qaz ehtiyatlarının işlənməyə cəlb edilməsindən gedir. AÇG yatağındakı sərbəst təbii qaz ehtiyatlarının kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi və hasilatı ilə bağlı işləri irəlilətmək məqsədilə 2024-cü il sentyabrın 20-də mövcud hasilatın pay bölgüsü sazişinə yeni bir əlavə imzalanıb.

Həmin sazişə sərbəst təbii qaz ehtiyatları ilə bağlı yeni əlavənin imzalanmasından sonra planlaşdırılmış ilkin hasilat quyusu "Qərbi Çıraq" platformasından təhlükəsiz şəkildə qazılıb. Qiymətləndirmə baxımından xüsusi əhəmiyyət daşıyan bu quyudan əldə olunan məlumatlar AÇG-dəki sərbəst təbii qaz ehtiyatlarının işlənməsi üçün gələcək planların hazırlanmasına kömək edəcək. Ümumilikdə isə, buradan çıxarıla bilən sərbəst təbii qaz ehtiyatlarının 4 trilyon kub futadək olduğu proqnozlaşdırılır.

Yeri gəlmişkən, bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Covanni Kristofoli bir qədər əvvəl yerli media nümayəndələri üçün keçirdiyi brifinqdə bu il AÇG sərbəst qazın işlənməsi layihəsi çərçivəsində hasilata başlanılacağını diqqətə çatdıraraq yay aylarına doğru "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun daha dərin hissəsindən qazılan quyunun istismara veriləcəyini bəyan etmişdi. Onun sözlərinə görə, bu, rezervuarın yeni hissəsini öyrənməyə imkan yaradaraq hasilat göstəricilərini əhəmiyyətli dərəcədə artırmağa, eləcə də AÇG-də iri qaz ehtiyatlarına çıxışı təmin etməyə imkan yaradacaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### *Ekspert rəyi*



**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**

2020-ci ilin son günündə ölkəmizin ən böyük qaz-kondensat yatağı sayılan "Şahdəniz"dən hasil edilən "mavi yanacaq" Avropa İttifaqı bazarlarına axmağa başlayıb. Bununla da, gələcək əlaqələrin möhkəmləndirilməsi, iqtisadi əməkdaşlığın yeni mərhələyə qədəm qoyması və uzunmüddətli tərəfdaşlıq platformasının formalaşdırılması istiqamətində mühüm addım atılıb.

Əgər Azərbaycan qazının böyük bazarlara uzunmüddətli çıxışına nail olunmasaydı, ölkəmizin Xəzərdəki böyük qaz həcmləri bəlkə indiyə qədər ehtiyat kimi qalmaqda davam edərdi. Həm də məsələ təkcə maddi kapitalla məhdudlaşmayacaqdı. Çünki böyük həcmdə qazın Avropa bazarlarına çıxarılması ilə Azərbaycanın siyasi, iqtisadi və mədəni əlaqələri də genişlənmək yoluna çıxdı. Bu da ölkəmizin qarşısında yeni imkanlar açdı.

Rəsmi Bakının Avropa qaz bazarına çıxışı isə Xəzəri "qoca qitə" ilə birləşdirən Cənub Qaz Dəhlizi kimi nəhəng bir layihənin reallaşdırılması ilə nəticələndi. Azərbaycan dövləti təbii qazı, sadəcə, bir əmtəə kimi deyil, uzunmüddətli regional və beynəlxalq əməkdaşlığın, həmçinin zamanında ölkənin enerji təhlükəsizliyinin gücləndirilməsində strateji vasitə kimi qiymətləndirməyi bacardı.

Dövlət başçısının "Euronews" televiziyasına müsahibəsində bildirdiyi kimi, gələn ayın əvvəlində Azərbaycanın enerji sektorunda daha bir əlamətdar hadisənin başlanılacağı qeyd olunacaq. "AÇG dərin qaz" layihəsi çərçivəsində hasilata başlanılması ilə ölkəmizin ixrac potensialı bir qədər də artacaq. Güman edirəm ki, bu il üçün həcmlər bir neçə yüz milyon kubmetr olacaq. Çünki yeni təbii qaz quyusu tədricən layihə gücünə çatacaq. Bu isə zaman tələb edir. Gələn ildən daha bir qaz quyusu istifadəyə veriləcək. Bununla da 2028-ci ildə AÇG-də hasilat 2 milyard kubmetrədək arta bilər.

AÇG-dən çıxan səmt qazının əmtəəlik hissəsi Azərbaycanın daxili bazarına yönəldilir. Çox güman ki, sərbəst təbii qaz həcmləri xarici bazarda satılacaq. Tərəflər, yəqin ki, ilk təbii qaz hasilatı başlayan zaman ictimaiyyətə bununla bağlı ətraflı açıqlama verəcəklər.

Nəhayət, Azərbaycanın 2030-cu ildə ixrac qazının artırılmasının əsas yükü "Abşeron" yatağının işlənməsinin ikinci fazası üzərinə düşəcək. Rəsmi məlumatlara görə, yataqdan ildə 4,5 milyard kubmetr qaz çıxarılacaq. Bu da ölkəmizin ixrac potensialının daha da artmasına səbəb olacaq.

# Azərbaycan dünyaya "ağıllı" bərpa modeli təqdim edir

**Mayın 17-dən etibarən Bakı Birləşmiş Millətlər Təşkilatının 13-cü Şəhərsalma Forumuna ev sahibliyi edir. Bu mühüm beynəlxalq müzakirə ölkəmiz üçün bir sıra strateji imkanlar yaradır.**

Prezident İlham Əliyev mayın 18-də "Euronews" televiziyasına verdiyi müsahibədə bildirib ki, Bakı forumu Azərbaycan üçün indiyədək görülən işləri, gələcək planları auditoriyaya və beynəlxalq ictimaiyyətə məlumat vermək baxımından, eyni zamanda, tərəfdaşların təcrübəsindən yararlanmaq üçün bir fürsətdir: "İştirak səviyyəsi, dövlət və hökumət başçılarının sayı göstərir ki, bu gün şəhərsalma məsələləri bir çox dünya liderlərinin diqqət yetirdiyi mövzulardan biridir. Mən çıxışımda da qeyd etdiyim kimi, tarixi və memarlıq irsinin qorunması ilə şəhərlərin müasirləşdirilməsi bir-biri ilə uzlaşmalıdır".



Qeyd edək ki, dünyanın 182 ölkəsindən qeydiyyatdan keçmiş 45 mindən artıq iştirakçı Azərbaycanın həyata keçirdiyi müasir şəhərsalma modeli ilə yaxından tanış olmaq imkanı əldə edəcək. Məlum olduğu kimi, Qarabağ və Şərqi Zəngəzur 30 il ərzində Ermənistanın işğalı altında qalıb və həmin müddətdə genişmiqyaslı dağıntılara məruz qalaraq demək olar ki, tamamilə məhv edilib. Erməni vandalizminin izlərini ən çox öz üzərində hiss etdirən şəhərlərdən biri də Ağdamdır. Bu şəhər dağıntıların miqyasına görə "Qafqazın Xirosiması" adlandırılır. İşğal dövründə yaşayış evləri, tarixi və mədəni irs nümunələri, ictimai binalar və infrastruktur məqsədli şəkildə sökülərək yerlə-yeksan edilib.

Bu baxımdan xüsusilə Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri beynəlxalq ictimaiyyətə təqdim olunacaq. Məhz bu bölgələrdə həyata keçirilən layihələr Azərbaycanın dayanıqlı və innovativ şəhərsalma yanaşmasının əsas nümunələrindən biri hesab olunur. Belə ki, azad olunmuş ərazilərdə "ağıllı şəhər" və "yaşıl enerji" layihələrinin icrası yeni urbanizasiya modelinin formalaşmasına xidmət edir. Bu təşəbbüslər təkcə ölkə daxilində deyil, qlobal şəhər innovasiyaları baxımından da mühüm töhfə kimi qiymətləndirilə bilər. Eyni zamanda, rəsmi Bakının postmünaqişə dövründə əldə etdiyi bərpa və quruculuq təcrübəsi oxşar problemlərlə üzləşmiş ölkələr üçün nümunəvi model kimi çıxış edir.

Prezident İlham Əliyev həmin müsahibədə bu məsələyə də xüsusi diqqət çəkib. Dövlət başçısı qeyd edib ki, ölkəmiz bu günədək şəhər və kəndlərin sıfırdan qurulması ilə bağlı misilsiz təcrübə formalaşdırıb: "Təəssüf ki, işğal altında olmuş ərazilərin genişmiqyaslı dağıntılara məruz qalması bizi buna vadar etdi. Mərhələli yanaşma, bəzi hallarda isə paralel inkişaf nəticəsində beş ilə artıq 85 min insanın doğma torpaqlarına qayıdışını təmin etmişik. İlk növbədə, elektrik enerjisi məsələsi həll olundu. Bu günədək 307 meqavatlıq hidroenerji gücü istifadəyə verilib, hazırda 340 meqavat gücündə Günəş enerjisi layihələri isə inşa edilir. Bu həcm yalnız Qarabağ və Şərqi Zəngəzur üçün deyil, daha geniş ərazilər üçün də kifayət edəcək. Bununla yanaşı, elektrik şəbəkəsinin ölkənin ümumi enerji sistemi ilə inteqrasiyası təmin olunub. Ümumi uzunluğu 75 kilometr olan tunellərin 70 kilometri artıq istifadəyə verilib, 500 körpüdən 435-i artıq tikilib".

Ölkə başçısı əlavə edib ki, dəmir yollarının, məktəblərin, xəstəxanaların və digər zəruri infrastrukturun qurulması paralel şəkildə həyata keçirilir. Dövlət başçısının sözlərinə görə, yenidənqurmanın ilk illərində əsas sərmayə infrastrukturun yaradılmasına yönəldilmişdisə, hazırda prioritet yaşayış sahələrinin tikintisinə verilir. Bu çərçivədə şəhərlərin baş planları əsasında "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarına uyğun layihələr icra olunur, hər bir yaşayış məntəqəsi üzrə müəyyən edilmiş planlar mərhələli şəkildə həyata keçirilir. Prezident vurğulayıb ki, Azərbaycanın əldə etdiyi bu təcrübə bənzər problemlərlə üzləşmiş ölkələr üçün yenidənqurma sahəsində nümunəvi model ola bilər.

*

Bakıda keçirilən və "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunan WUF13 qlobal mənzil çağırışlarını ön plana çıxarmaqla mənzil təminatını inklüzivlik və dayanıqlılığın əsas amillərindən biri kimi müzakirə edir, eyni zamanda, BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Yeni Şəhər Gündəliyinin icrasına töhfə verməyi hədəfləyir. Bu baxımdan forumun əsas mövzusu Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi genişmiqyaslı bərpa və yenidənqurma prosesi ilə xüsusi uyğunluq təşkil edir. Belə ki, uzun illər məcburi köçkün həyatı yaşamış insanların öz doğma torpaqlarına qayıdışı və onların müasir, təhlükəsiz yaşayış məskənləri ilə təmin olunması ölkənin sosial ədalət və yaşayış hüququnun bərpası istiqamətində atdığı mühüm addımlardan biridir. Eyni zamanda, bölgədə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında yeni urbanizasiya modelinin qurulması Azərbaycanın dayanıqlı şəhərsalma sahəsində formalaşdırdığı nümunəvi yanaşmanı beynəlxalq ictimaiyyətə nümayiş etdirmək üçün mühüm imkan yaradır.

Nəzərə çatdıraq ki, məcburi köçkünlərin mənzil təminatı uzun illər ərzində Azərbaycanın sosial siyasətinin əsas prioritet istiqamətlərindən biri olub. Ermənistanın işğal siyasəti nəticəsində doğma yurdlarını tərk etməyə məcbur qalan yüz minlərlə insanın sosial müdafiəsinin gücləndirilməsi, onların yaşayış şəraitinin yaxşılaşdırılması dövlətin daim diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə işğal dövründə ölkənin müxtəlif bölgələrində məcburi köçkünlər üçün yeni qəsəbələr və müvəqqəti yaşayış məskənləri salınıb, onların mənzil, təhsil, səhiyyə və digər sosial ehtiyaclarının qarşılanması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib.

Lakin dövlət siyasətinin əsas məqsədi onların doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdışını təmin etmək olub. İllər öncə Cocuq Mərcanlıya həyatın yenidən dönməsi Böyük Qayıdışın başlanğıc nöqtəsinə çevrildi.

***M.FİRİDUNOĞLU***
***XQ***

*Qərbi Azərbaycana Qayıdış*

# Ozan babamızın ruhu bizi çağırır...

**Azərbaycanın tarixi torpaqları olan İrəvan, Zəngəzur, Göyçə, Dərələyəz, Ağbaba mahalları erməni şovinistləri tərəfindən havadarlarının köməyi ilə Azərbaycandan zor gücünə qoparılaraq özününküləşdirilmiş, türk-müsəlman əhalisi deportasiya edilmişlər. Artıq o göynərtilərə son qoyulub. Bu gün Qarabağ torpaqlarına yeni nəfəs gəlib, bu ocaqlar doğma övladlarına qucaq açıb. Qərbi Azərbaycandan ayrı düşmüş həmvətənlərimiz də tam əminliklə doğma torpaqlarına qovuşacaqları günü səbirsizliklə gözləyirlər.**

Oğuz yurdu, Qərbi Azərbaycanın dilbər guşələrindən olan dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşən zümrüd qaşlı Göyçə mahalı 38 ildir ki, öz sakinlərinin həsrətindədir. Mavi gözlü, nəğməli Göyçə gölü sahilində yerləşən kəndlərdən söhbət salmaq, onların adət-ənənələrini, elm və mədəniyyətini çatdırmaq hər kəs üçün maraqlıdır. Göyçənin bərəkətli torpaqları, yaşıl yamacları, buz bulaqları, min bir dərdin dərmanı olan bitkiləri, təəssübkeş, qeyrətli, qonaqpərvər insanlarının xeyirxahlığı, əməksevərliyi, haqqında kitablar yazmaq olar. Bu yazıda əsas məqsəd Ozan davamçıları, korifey ustadlardan, görkəmli sənəd adamlarından söhbət açmaqdır. Müsahiblərimiz Azərbaycan aşıq sənətinin korifeyi Aşıq Ələsgərin nəslindən olan, tanınmış sənətkarlar Göyçə mahalının Ağkilsə kənd sakinləri Ləyaqət Məmmədov və Azər Məmmədovdur.



**Ləyaqət Məmmədov ürək yanğısı ilə qeyd etdi ki, dünyada tayı olmayan doğma el-obamızdan, kəndimizdən söhbət açmaq mənim üçün olduqca çətindir:**

– Tarixə nəzər salsaq, görərik ki, Göyçə mahalı hələ qədim dövrlərdən türkdilli xalqların məskəni olmuşdur. Məlumdur ki, Osmanlı imperiyası Asiyanın çox hissəsini, Avropanın şərq və cənub, Afrikanın şimal hissəsini əhatə etmiş, bir neçə əsr bu yerlərdə hökmranlıq etmişdir. Bu illər türk xalqının intibahı olmuşdur. Zaman keçdikcə imperiya süqut etmiş, tükdilli xalqlar təşəkkül tapmış və dövlətlərini bərqərar etmişlər.



Türkdilli xalqlar öz zəngin mədəniyyəti, qüdrəti ilə həmişə öyünə bilərlər. Göyçənin 85 faizi öz qədim torpaqlarında yurd salmış azərbaycanlılar idi. Onlar maldarlıq-qoyunçuluq, əkin-biçin, kənd təsərrüfatının bütün sahələri ilə məşğul olmuş, rahat yaşamışlar. Zaman-zaman xarici ölkələrdən ermənilər bura köçürülmüş, rəhbər vəzifələri tutmuşlar. Babam Bilal Məmmədov Şərq dünyasının ustad ozanı olan Dədə Ələsgərin qardaşı oğludur. Uzun müddət Basarkeçər Rayon Partiya Komitəsinin katibi, Basarkeçər Rayon Xalq Deputatlar Soveti İcraiyyə Komitəsinin sədri, Krasnoselsk Rayon Partiya Komitəsinin katibi olmuşdur. 40 ildən çox işlədiyi rəhbər vəzifələrdə şovinist ermənilərə qarşı qətiyyətlə mübarizə aparmış, imkan verməmişdir ki, azərbaycanları incitsin, haqlarını tapdalasınlar.

Mərdliyi, cəsarəti, qonaqpərvərliyi ilə yanaşı, müxtəlif səpkili şeirlərin də müəllifi olmuşdur. Yüksək atıcılıq qabiliyyətinə görə "Döyüş silahı" medalı və mükafatı ilə təltif edilmişdir. Dövlətə nümunəvi xidmətlərinə görə "Şərəf nişanı" ordeni və bir sıra medallar sinəsini bəzəmişdir. Məhz babam kimi qorxmaz, xalqının mənafeyini hər şeydən üstün tutan rəhbərlərimizin sayəsində ermənilər həmişə "qınında" qalmış, səslərini çıxara bilməmişlər. Zaman keçdikcə, himayədarlarının köməyi ilə quduzlaşmış erməni vandalları öz çirkin, eybəcər sifətlərini açıb göstərmişlər...

1985-ci ildən başlayaraq erməni vandalları hər yerdə azərbaycanlıları sıxışdırır, rayonun mərkəzinə gedib-gəlmələrini çətinləşdirirdilər. Ağkilsə kəndi, rayon mərkəzi Basarkeçərdən 16 kilometr məsafədə yerləşirdi. Kəndin yaranma tarixi XVI əsrin əvvəlinə (1610) təsadüf edir, bünövrəsi Cənubi Azərbaycanın Ərdəbil və Sulduz əyalətlərindən Göyçə mahalına gələn Məşədi Xavərlilər tayfasından olan dörd qardaş tərəfindən qoyulmuşdur.

Xavərlilər Cənubi Azərbaycan xanları ilə aralarında olan uzunmüddətli çəkişmələrə tab gətirə bilmədiklərinə görə Ağkilsə kəndində məskunlaşmışlar. Kənd şərq tərəfdən Zərzibil kəndi ilə 2 kilometr, qərb tərəfdən Nərimanlı kəndi ilə 5 kilometr, şimal tərəfdən Zod kəndi ilə 2 kilometr, cənub tərəfdən isə Qaraqoyunlu kəndi ilə 4 kilometr həmsərhəddir. Kəndin ərazisində adları Türk toponimlərdən ibarət çox mənzərəli və gəzməli qədim yurd yerləri vardır.

Onlardan Qaraqoyunlu kəndinin ərazisi olan Hüsən çayına 100 metr qalmış Ocaq daşı, Axund təpəsinin sol tərəfindəki "Bəzirxana", kəndin mərkəzindəki Dədə Ələsgərin qəbirüstü abidəsi və XIX əsrin sonlarında kəndin Hacılar tayfasının sakinləri tərəfindən tikilmiş məscidi göstərmək olar. Şəfalı Səhnəbani bulağı (Böyük bulaq), Mehdi bulağı, Döş bulağı, (Hallaclı yurdu) Bəzirxana bulağı, Qumlu bulağı, Bəşir düşən dərə, Dərə yurdu, Yelvə dərəsi, Axund təpəsi, Daşlı güney, Qalaq daşlarının hər torpağı-daşı kəndin ərazisində türklərin yaşayışından xəbər verir. El aşığı, babam sadaladığımız məkanların qeyri-adi gözəlliklərini şeirlərində tərənnüm etmişdir.




Kəndin ərazisində 3 ədəd su ilə işləyən un dəyirmanı olmuşdur. Yadımdadır, orta məktəb uşaqları tez-tez Aşıq Ələsgərin məzarını ziyarət edir, əzbərlədiyimiz şeirlərini avazla söyləyərdik. Hamımızın saz sənətinə rəğbətimiz var idi. Çünki Aşıq Ələsgər sözü, poeziyası alnına Tanrının möhür qoyduğu kamil insan təxəyyülünün, təfəkkürünün ifadə edə biləcəyi gözəlliklə, nurla, hikmətlə, müdrikliklə nəfəs alan sirli, müəmmalı, möcüzəli, tilsimli poeziya ümmanıdır! Bu ümmanın dərinliklərinə baş vurduqca, hətta poeziyanı az-çox bilən, onu sevən insan Ələsgər dühasının düşüncə, fikir tərzinin poetik-fəlsəfi mənasını anlamaqda çətinlik çəkir.

Tale elə gətirdi ki, erməni vandalları tərəfindən didərgin salındıq. Mən imkan taparaq o torpaqlardan bir ovuc götürə bildim, bu gün onu qoxulayaraq, təsəlli tapıram. Rayonumuzun, kəndimizin şəkillərinə baxdıqca ürəyim qubar edir. Prezident İlham Əliyevin qüdrətli söz ustadı Aşıq Ələsgərin 200 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi və sentyabrın 30-da doğma Bakı şəhərinin ən gözəl yerində, paytaxtın mərkəzində, füsunkar parkda abidəsinin ucaldılması bizi həddindən artıq sevindirdi. Bu, xalqımızın milli-mədəni irsinə silinməz hərflərlə yazılacaq çox əlamətdar, uzun illər gözlədiyimiz hadisə oldu. Eyni zamanda, bunu Ağkilsə kəndimizə qayıdışın müjdəsi hesab edirik.

**Azər Məmmədov isə qeyd etdi ki, anadan olduğu Göyçə mahalı, yaddaşımda ən əziz, xoş, bir xatirə kimi əbədi həkk olunmuşdur:**

– Xəyalımda yaşayan Göyçə mahalı mənim üçün eyniadlı gölü ilə bərabər, Tanrının sevgi ilə yaratdığı, hər tərəfdən dağlarla əhatə olunmuş, füsunkar təbiət gözəlliyini özündə cəm etmiş müqəddəs torpaqdır.

Mənim üçün dünyanın ən gözəl, sakit, xoş, zəngin təbiəti, axar-baxarlı, mənzərəli məkanı anadan olduğum Ələsgər yurdu Ağkilsədir. Kəndimizin insanları, saz-söz sənətinə həddən çox meyilli idilər. Rəsm və xalça toxumaq adət-ənənə halını almışdı. Camaatımız əkinçilik, heyvandarlıq, bağçılıqla məşğul olurdu. Kolxozun böyük alma, armud, gilas, alça, gavalı bağı vardı. Dadı, tamı və ətiri hər kəsi valeh edirdi.

Əfsus ki, bu gün o bağlar erməni əsarətindədir. Tam əminliklə deyə bilərəm ki, o meyvə ağacları quruyub, çünki erməni vandalları təbiətə olan diqqət və qayğıdan uzaqdırlar. Kənd camaatı xeyir-şərdə bir-birinin yanında olar, köməyini əsirgəməzdi. Ali təhsil almış insanlara, xüsusilə müəllimlərə xüsusi hörmət, ehtiram vardı. Bayram ənənələrimiz bu gün qorunub saxlanır. Göyçədə qədim məscidlər hər kəsin and yeri idi. Kəndimizə qonaq gələnləri qohum-qonşu qonaq aparar, darıxmağa qoymazdılar. Göyçə mədəniyyətindən, ənənələrindən günlərlə danışsaq da, bitməz. Gözəl ənənələri ata-babalarımız bizə öyrədərdirlər.

Şairlər, aşıqlar kəndi hesab olunan Ağkilsədə heç bir məclis sazsız, sözsüz, aşıqsız keçməzdi. Heyiflər olsun ki, bunun da sonu varmış. Tale bizi müxtəlif yerlərə səpələdi. Buna baxmayaraq, kəndimizin sakinləri ilə sıx təmasdayıq. Sevincləri sevincimiz, kədərləri kədərimizdir.

Ümummilli lider Heydər Əliyev 13 sentyabr 2002-ci ildə Goranboyda göyçəlilərlə görüşü zamanı böyük uzaqgörənliklə demişdir: "Dünya heç vaxt belə qalmayacaq, dünyada hər şey dəyişir. XX əsrin sonu, XXI əsrin ilk illəri bunu sübut edir və göstərir ki, dünyada çox böyük dəyişikliklər gedir. Bəli, heç bir şey bir yerdə durmur. Heç bir şey olduğu kimi qalmır. Mən inanıram, tam inanıram ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Azərbaycan xalqının bu əzab-əziyyətinə görə onun xeyrinə dəyişəcəkdir. Siz gələcəkdə mütləq və mütləq gedib hələ öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm. Mən buna inanıram və bu inamla da sizin qarşınızda nitq söyləyirəm".

Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu siyasəti, yurdsevər çağırışları Qərbi Azərbaycana qovuşmağımıza zəmin yaradır. Müdrik və qətiyyətli dövlət başçısı çıxışlarında dönə-dönə bildirib: "Bu tarixi torpaqlar unudulmamalıdır və biz bu torpaqları unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır"...

***Zabit XƏLİLOV***

*Əbədiyyət yolçusu*

# Qazax qardaşımız Yerbolun Qarabağ sevdası

## *İgid şəhidin məzarı önündə növbəti görüş*

**Birinci Qarabağ müharibəsində Azərbaycanın işğalçı Ermənistana qarşı apardığı ağır savaşda qardaş qazax xalqının igid övladı, cəsur kəşfiyyatçı, baş çavuş Yerbol Barımbetov da iştirak edib. O, Qarabağa könüllü gələrək burada bir çox ağır döyüşlərdə qeyri-adi şücaətlər göstərərək qəhrəmancasına şəhid olub. Döyüş yoldaşları qazaxıstanlı igidin İkinci Fəxri xiyabandakı məzarını tez-tez ziyarət edir, xatirəsini daim əziz tuturlar. Bu günlərdə Yerbolun Qarabağda həlak olmasının 32-ci ildönümünə həsr olunan anım mərasimi keçirilib.**



"İgid ölər, adı qalar!" deyib xalqımız. Qısa, lakin şərəfli ömür yaşamış Yerbolun adı və qəhrəmanlığı iki qardaş xalqın əbədi dostluq rəmzinə çevrilib. Yerbol Barımbetovun doğma vətəni Qazaxıstanda da tanınması və adının əbədiləşdirilməsinə nail olan "Yerbol - Qarabağ şəhidi" kitabının müəllifi, tanınmış qazaxıstanlı şairə-publisist Nəsihə Gumarqızı şəhidin məzarı qarşısında cəsur həmyerlisi ilə qürur duyduğunu bildirdi. O dedi ki, Yerbol ən çətin döyüş tapşırıqlarını yerinə yetirib, Kəlbəcər, Tərtər, Murovdağ istiqamətindəki hərbi əməliyyatlar zamanı düşmənə ağır zərbələr endirib. 8 dəfə düşmən arxasında kəşfiyyatda olub, hər dəfə də inanılmaz hünər və cəsarət göstərib.

Qazaxıstanlı xanım daha sonra dedi:

– Mən hesab edirəm ki, Yerbol Barımbetovun döyüş yoldaşları, o cümlədən komandir, Milli Qəhrəman, polkovnik Eldar Ağayevin məzarının yanında İkinci Fəxri xiyabanda dəfn olunması Azərbaycan hökumətinin qazaxıstanlı döyüşçünün xatirəsinə ehtiramın bariz nümunəsidir. 2020-ci ilin payızında 44 günlük şanlı savaşda Tarixi Zəfər qazanan Azərbaycana növbəti dəfə gəlişimdən sonsuz qürur duyuram.

Qeyd edək ki, Nəsihə xanımın təşəbbüsü və fəal iştirakı ilə Qarabağın qazaxıstanlı şəhidi ilə bağlı 2 il əvvəl AMEA-nın Mərkəzi Kitabxanasında, sonrakı dönəmdə isə Azərbaycanın və Qazaxıstanın bir çox ali və orta təhsil müəssisələrində, hərbi hissələrdə görüş və toplantılar təşkil olunub, hər dəfə də əfsanəvi kəşfiyyatçı Yerbol Barımbetovun parlaq döyüş yolu qədirbilənliklə xatırlanıb, ruhuna dualar oxunub.

Yeri gəlmişkən, sözügedən görüşlərin bir çoxunun iştirakçısı olduğum üçün tam səmimiyyətlə deyə bilərəm ki, vaxtilə cəbhədə Yerbolla birlikdə vuruşan döyüşçü dostları, onların ailə üzvləri, qazilərin hər biri Qarabağın qazaxıstanlı şəhidinə qəlblərində dərin sevgi və rəğbət bəsləyir və onun məzarını vaxtaşırı ziyarət eməyi özlərinə mənəvi borc bilirlər.

Anım mərasimində çıxış edən 776-cı Əlahiddə Xüsusi Təyinatlı Taborun şəxsi heyət üzrə rəhbəri, istefada olan kapitanı Saleh Əliyev dedi ki, Yerbol Barımbetov adi, sıravi kəşfiyyatçı deyildi. Onun cəsur və qorxubilməz bir əsgər olduğu düşmənə bəlli idi və adı çəkiləndə ermənilər qorxularından tir-tir əsirdilər. Saleh Əliyev zahirən sakit, təmkinli insan olsa da, Yerbolun şücaətlərindən danışanda hər dəfə olduğu kimi, həyəcanını gizlədə bilmirdi. O, sonda sonsuz bir fəxarət hissilə dedi:

– Yerbol və onun başçılıq etdiyi kəşfiyyat qrupunun üzvləri Qarabağda böyük qəhrəmanlıq dastanı yazıblar. Onların hər biri Vətənimizin qəhrəman adlandırılmağa layiq oğullarıdır! Yerbol Barımbetov isə təkcə qardaş Qazaxıstanın deyil, həm də Azərbaycanın sevimli igid övladıdır!

Kapitan Saleh Əliyev sonra özünün və döyüşçü dostlarının, hələ ki, ürəklərindəki bir arzunu dilə gətirdi:

– Hökumətimiz sağ olsun, baş çavuş Yerbol Barımbetova Qarabağ müharibəsi veteranı statusu verilib. Çox istərdik ki, layiq olduğu ordenlərlə də qiymətləndirilsin. Ümid edirik ki, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bu məsələ ilə bağlı təşəbbüs göstərəcək.

Bu yerdə bildirək ki, 1994-cü ilin əvvəllərində Yerbolun şəxsi işi itdiyindən onun həlak olması xəbərini bir müddət Qazaxıstandakı doğmalarına çatdırmaq mümkün olmayıb. Lakin döyüşçü dostları bu istiqamətdə gərgin səylərini uzun illər davam etdiriblər. Nəhayət, 2022-ci ilin yazında Yerbolun valideynlərinin Qazaxıstanda dəqiq ünvanını müəyyən etmək mümkün olub.

Dərhal Qazaxıstandakı Azərbaycan diasporunun fəal iştirakı ilə Yerbol Barımbetovun doğulub boya-başa çatdığı Cambul vilayətindəki Luqovski rayonunun Koraqatı kəndində şəhidin anım mərasimi təşkil olunub. Kapitan Saleh Əliyev və Yerbolun rəhbərlik etdiyi 9 nəfərlik kəşfiyyat qrupunun 4 ağır güllə yarası ilə sağ qalan yeganə üzvü Mehman Məmmədov mərasimdə iştirak ediblər.

Mehman Məmmədov bildirdi ki, o, qazax torpağında mərasimə toplaşanlar qarşısında Yerbolun qeyri-adi igidliyi barədə ürəkdolusu söz açandan sonra uzun illər qəlbində gəzdirdiyi ağır nisgilin xeyli yüngülləşdiyini hiss edib. Mehman sonra həyəcanla söylədi ki, həmin günlərdə komandiri bir neçə dəfə onun yuxusuna gəlib, nurlu siması, saf, işıqlı baxışları ilə gülümsəyərək sanki Azərbaycanda onun xatirəsini əziz tutan dostlara minnətdarlıq duyğularını çatdırmaq istəyib. Bu sözləri deyib kəşfiyyatçı Mehman Məmmədov doluxsundu və sözünü davam etdirə bilmədi.

Qazaxıstandakı anım mərasimində iştirak edən azərbaycanlı döyüşçülər həm də ona çox təəssüfləniblər ki, Yerbolun hər iki valideyni övladlarının qəhrəmanlıqlarından xəbərdar olmadan dünyalarını dəyişiblər. Şəhidin qardaşı Nurbol Barımbetov isə 1992-ci ilin aprelində Nəsihə xanım ilə birlikdə Bakıya gələrək Yerbolun məzarını ziyarət edib.

Toplantıda çıxış edən qocaman alim, Turan Elmlər Akademiyasının Azərbaycan filialının vitse-prezidenti, pedaqoji elmlər üzrə fəlsəfə doktoru Sabir Tağıyev qeyd etdi ki, Yerbol böyük Türk dünyasının igid oğludur. "Türk ağsaqqalları" qəzetinin redaktoru, 78 yaşlı jurnalist Əli Qarayev isə dedi ki, "Yerbol Qarabağa könüllü gələrək burada vuruşmaqla xalqlarımız arasında qurulan əbədi dostluq və qardaşlıq ənənələrinə yeni bir ruh qatıb".

Düşünürəm ki, həmin gün toplantıda çıxış edən Birinci Qarabağ müharibəsi veteranı, hazırda Qazaxıstanın Petropavlovsk şəhərində yaşayan, istefada olan mayor İsa Allahverdiyevim adını çəkməmək, ədalətsizlik olardı. O, əslən Gürcüstanın Dmanisi rayonunun Aşağı Qarabulaq kəndindəndir. Mayor dedi:

– Qazax xalqının gözəl bir atalar məsəli var: "Birlik dirilik olsun!". Buna bənzər zərbi-məsəllər bizdə də, digər türk xalqlarında da var. Yerbol Barımbetov sadə bir qazax ailəsində dünyaya gəlib, Qarabağda hünər və qəhrəmanlıq göstərməklə mübarək adını Böyük Turan qəhrəmanı kimi əbədi həkk edib!

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fizika İnstitutunun aparıcı elmi işçisi, fizika üzrə fəlsəfə doktoru, dosent Lalə Əliyeva da İkinci Fəxri xiyabanda Yerbolun məzarını ziyarət edənlərin arasında idi. O, daimi oxucusu olduğu "Xalq qəzeti"nə eksklüziv müsahibəsində bildirdi ki, 1990-cı illərin əvvəllərində ölkəmizdə elektronika sahəsində istedadlı tədqiqatçı-alim kimi tanınan qardaşı Rəşid Əliyev Qarabağda müharibə başlananda elmi işini yarımçıq qoyub "mənim elmim də, həyatım da oradadır" deyərək könüllü cəbhəyə gedib. Tale elə gətirib ki, Rəşid Əliyev 776-cı Əlahiddə Xüsusi Təyinatlı Taborun rabitə şöbəsinin rəhbəri olub və burada xidmət edən Yerbolla aralarında yaxın dostluq, əsl qardaşlıq münasibətləri yaranıb.

Lalə xanım həzin, kövrək səslə xatırladı ki, bir neçə il əvvəl dünyasını dəyişən Rəşid cəbhədən qayıdandan sonra uzun müddət Yerbolun cəbhədə ağır döyüşlər zamanı qeyri-adi şücaətlərindən söz açardı. Rəşid Yerbolun mütləq Azərbaycanın ən yüksək ordenlərindən biri ilə təltif ediləcəyinə də qəlbən inanırdı.

Lalə xanım söhbətin sonunda 776-cı taborun igid döyüşçüləri barədə geniş məlumatlar toplayaraq ayrıca kitab üzərində işlədiyini bildirdi və sonra özü ilə gətirdiyi al qərənfilləri ehmalca Yerbolun məzarı üstünə qoyaraq həzin səslə dedi: Allah rəhmət eləsin!

***Məsaim ABDULLAYEV***
***XQ***

# Savaş təxirə salındı...

## *Amma bu hələ sülh deyil*

**ABŞ – İran danışıqları uzandıqca, müharibə kabusu Yaxın Şərqin üzərində dolaşmaqda davam edir. Budur, Donald Tramp Çin səfərindən sonra yenidən İrana qarşı müharibədən danışır. Bazar ertəsi bir neçə saat ərzində Tramp sosial media hesabı olan "TruthSocial"da İrana yönələn istehza və təhdidlər yağdırıb.**

Bəzi analitiklər bu təhlükəli təhdidlərin Trampın Tehranı qorxudaraq, onu təslim olmağa məcbur etmək üçün nəzərdə tutulmuş bir şou olduğunu desələr də, İran paytaxtındakı mənbələr ABŞ-ın növbəti 48 saat ərzində hərbi əməliyyatlara başlayacağını istisna etmirlər.

Ağ Evin başçısı "Axios"a verdiyi müsahibədə özünəməxsus ritorika ilə İslam Respublikası üçün "vaxtın bitdiyini" bildirərək əlavə edib ki, əgər Tehran razılaşma üçün daha əlverişli şərtlər təklif etməsə, "onlara qarşı zərbələr əvvəlkindən daha güclü olacaq".

Bu təhdidlərə cavab olaraq İran Silahlı Qüvvələrinin "Xatəm əl-Ənbiya" Mərkəzi Komandanlığının sözçüsü İbrahim Zülfüqari Fars körfəzinin cənubundakı bütün ABŞ bazalarını sıradan çıxarmaqla hədələyib. O əlavə edib ki, İİKK Hərbi Dəniz Qüvvələri son 24 saat ərzində Hörmüz boğazından bir dənə də olsun gəminin keçməsinə icazə verməyib.

ABŞ və İran arasında yeni təhdidlər mübadiləsi, təbii ki, danışıqlarda çıxılmaz vəziyyət yarandığı bir vaxtda baş verir. "Fars" xəbər agentliyinin məlumatına görə, Vaşinqton ötən həftə Tehrana sülh razılaşması üçün əks təklif göndərib və burada Ağ Ev razılaşma üçün bir sıra şərtləri açıqlayıb. Təkliflər sırasında ABŞ təzminat ödəməkdən imtina edir və İrandan öz ərazisindən 400 kiloqram uranın çıxarılmasını tələb edir. Bundan əlavə, Amerika tərəfi İran aktivlərinin hətta dörddəbirinin belə dondurulmasını ləğv etmək planının olmadığını bildirib və Vaşinqton hərbi əməliyyatların dayandırılmasını danışıqların nəticələri ilə şərtləndirib.

Bu tələblər İranın, Livan da daxil olmaqla, bütün cəbhələrdə tam atəşkəs, bütün sanksiyaların ləğvi, İran aktivlərinin dondurulmasının ləğvi, zərərlərin ödənilməsi və Hörmüz boğazı üzərində İranın suverenliyinin tanınmasını tələb edən təklifləri ilə ziddiyyət təşkil edir.

CNN-nin verdiyi məlumatda göstərilir ki, Pentaqon Ağ Evin əmri olduğu təqdirdə İrana qarşı yeni hücum üçün artıq bir neçə plan hazırlayıb. Planlarda hədəflər siyahısına enerji obyektləri və infrastruktur daxildir.

"Responsible Statecraft" nəşrinin analitiki Trita Parsi Trampın müharibə təhdidlərinin nə qədər real olduğunu şərh edərək yazır: "Əvvəla, etiraf etmək lazımdır ki, müharibənin yenidən başlaması Trampın əvvəlki eskalasiyasının – onun çoxdan açıqlanan əks-blokadasının – uğursuz olduğunu etiraf etmək deməkdir. Bu da öz növbəsində, onun başladığı əvvəlki müharibənin də uğursuz olduğunu etiraf etməkdir".



Trita Parsi bu fikirdədir ki, yanvarda baş verən müharibə təhdidləri də uğursuz olub. "Daha əvvəl yazdığım kimi, İranı diz çökdürəcək universal vasitə axtarışı təkcə Trampa xas deyil. Onilliklərdir ki, qeyri-real bir çarə xəyalı Amerikanın İran siyasətində mühüm bir qüsur olaraq qalır".

Reallıq ondan ibarətdir ki, danışıqlarda bir sıra sahələrdə əhəmiyyətli irəliləyişlər əldə etsələr də, tərəflər hələ də razılığa gələ bilməyiblər. Buna əsas səbəblərdən biri isə Tehranın yüksək zənginləşdirilmiş uran ehtiyatı ilə bağlı barışmaz fikir ayrılığıdır. Vaşinqton blokadanın tam əks nəticələr verdiyini anladıqca, yeni və təhlükəli bir dinamika ortaya çıxıb: hər iki tərəf indi əmindir ki, yeni bir döyüş əməliyyatı sonrakı danışıqlarda onların mövqeyini yalnız gücləndirəcək.

Amma analitiklər qeyd edirlər ki, Tehran Trampın növbəti müharibəni daha böyük qəddarlıqla aparacağına əmin olduğu üçün İran strateqləri strateji məqsəd və vəzifələrin spektrini genişləndirərək daha geniş və cəzalandırıcı cavab kampaniyası hazırlayırlar.

Əvvəla, İran rəsmiləri daim Birləşmiş Ərəb Əmirliklərinə strateji ziyanı maksimum dərəcədə artırmaq barədə danışır, Əbu-Dabinin əvvəlki münaqişədəki fəal rolunu, İsraillə dərinləşən və getdikcə daha açıq tərəfdaşlığını və Trampı hərbi əməliyyatları bərpa etməyə inandırmaq cəhdlərini vurğulayırlar. Güman edilir ki, Tehran, çox ehtimal, BƏƏ-dəki ABŞ məlumat mərkəzlərini hədəf alacaq ki, bu da "bir güllə ilə bir neçə dovşan vurmaq" olacaq. İran rəsmiləri iddia edirlər ki, bu Amerika texnologiya şirkətləri Pentaqona dəstək səbəbindən artıq münaqişəyə ortaq olublar. Eyni zamanda, Tehran BƏƏ-nin süni intellekt üçün qlobal mərkəz olmaq istəklərini pozmaq və bununla da Vaşinqtonun Çinlə rəqabətində qanadlarını kəsmək üçün bir fürsət görür.

Bu, həmçinin İranın gələcək müharibədəki strategiyasının ikinci bir xüsusiyyətini ortaya qoyur. Tehran hesab edir ki, Tramp və ailəsi bu texnologiya şirkətlərində paya sahibdirlər. Şərhçilər yazırlar ki, İran münaqişənin ilkin mərhələsində Trampın şəxsi biznes maraqlarını hədəf almaqdan açıq şəkildə çəkinib, lakin indi bu vasitədən də istifadə etməyə hazırdır. Məntiq sadədir: Tramp Amerikanın strateji maraqlarına dəyən ziyana dözə bilər, lakin öz maliyyə imperiyasına dəyən ziyana kəskin reaksiya verəcək. Bu, Tramp üçün xərcləri artırar və o, real danışıqlar mövqeyi tutmağa daha çox hazır ola bilər.

Üçüncüsü, Fars körfəzinin digər ərəb dövlətlərinin ABŞ və ya İsrailin öz ərazilərindən və ya hava məkanlarından hərbi məqsədlər üçün istifadə etməsinə icazə verdiyinə dair dəlillər ortaya çıxsa, Tehranın əvvəlki təmkinindən imtina edəcəyi şübhə doğurmur. Nəticə daha böyük və daha təhlükəli üfüqi eskalasiya ilə nəticələnəcək və vacib enerji infrastrukturu təhlükəyə məruz qalsa, qlobal iqtisadiyyat üçün potensial fəlakətli nəticələrə səbəb olacaq.

Rəsmi Tehran artıq ciddi xəbərdarlıqlarını qonşu ərəb dövlətlərinə çatdırıb. Belə ki, İran Xarici İşlər Nazirliyinin sözçüsü Esmail Baqayi Yaxın Şərq ölkələrini son hadisələrdən dərs çıxarmağa çağırıb və ABŞ-ın bölgədəki mövcudluğunun inkişafa və iqtisadi rifaha ciddi təhlükə yaratdığını vurğulayıb. O, həmçinin regional dövlətlərin ərazilərini "təcavüzkarlara" təslim etməsini pisləyib.

Dördüncüsü, Qırmızı dəniz oyuna qoşulacaq. Bu, münaqişənin coğrafiyasını əhəmiyyətli dərəcədə genişləndirəcək və onsuz da dəyişkən olan neft qiymətlərini daha da artıracaq.

Nəhayət, Tehran getdikcə Fars körfəzindəki əsas dənizaltı fiber-optik kabellərini bağlamağı da hesaba alır. Körfəz dövlətlərinin internet trafikinin əsas hissəsi, eləcə də milyardlarla dollarlıq maliyyə əməliyyatları bu arteriyalardan keçir. İran rəsmiləri bunu getdikcə daha çox – qlobal iqtisadiyyatı misli görünməmiş şəkildə poza biləcək yeni güclü təsir nöqtəsi – "ikinci Hörmüz" – kimi görürlər.

Müharibənin yenidən başlaması elə də qaçılmaz görünmür. Lakin, nə qədər ki, hər iki tərəf yeni hərbi əməliyyatların danışıqlar stolunda onların mövqelərini gücləndirəcəyinə inanır, bu məntiq nə qədər irrasional olsa da, münaqişəyə maraq bir o qədər güclənir.

